# Xalq qəzeti

Xalqın qəzeti!

№ 127 (30531) 21 iyun 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


## Azərbaycan–Pakistan dostluğu yüksək səviyyəyə yön alır



**Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif iyunun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Məhəmməd Şahbaz Şərif dövlətimizin başçısını, dost və qardaş Azərbaycan xalqını müqəddəs Qurban bayramı münasibətilə təbrik edib.

Göstərilən diqqətə və təbriklərə görə minnətdarlığını bildirən Azərbaycan Prezidenti, öz növbəsində, bayram münasibətilə dost və qardaş Pakistan xalqına təbriklərini və sülh, əmin-amanlıq arzularını çatdırıb.

Telefon söhbəti zamanı Prezident İlham Əliyev və Baş nazir Məhəmməd Şahbaz Şərif əlaqələrimizin müxtəlif sahələrdə inkişaf perspektivlərini müzakirə edib və ikitərəfli münasibətlərimizin daha da yüksək səviyyəyə qaldırılması barədə razılığa gəliblər.

Pakistanın Baş naziri COP29-un ölkəmizdə keçirilməsi münasibətilə dövlətimizin başçısını təbrik edib və Prezident İlham Əliyevi Pakistana rəsmi səfərə dəvət edib.

Azərbaycan Prezidenti dəvəti məmnunluqla qəbul edib.

***Prezidentin Mətbuat Xidməti***

# İqlim dəyişmələri və kolonializm – Azərbaycanın COP29 gündəliyi

**İqlim dəyişmələrinin mənfi təsirlərinə ən çox məruz qalan inkişaf etməkdə olan kiçik ada dövlətlərinin üzləşdiyi problemlərin həlli COP29 sədrliyimizin gündəliyində duran prioritet məsələlərdən olacaq... Prezident İlham Əliyev bu fikri Bakıda "COP29-a aparan yol: Dayanıqlı və davamlı gələcək" mövzusunda keçirilən yüksək səviyyəli 29-cu toplantının iştirakçılarına müraciətində bildirib.**




Dövlətimizin başçısı, həmişə olduğu kimi, yenə də son dərəcə vacib məsələyə diqqət yetirib. Çünki XXI əsrdə kölə rəftarının, müstəmləkəçi təfəkkürün mövcudluğu bəşəriyyət üçün böyük təhdiddir. Belə münasibət, əlbəttə ki, iqlim məsələlərini də arxa plana atır.

Təsəvvür edin ki, hazırda müxtəlif beyin institutları hesablamalar aparır və iqlim dəyişiklikləri səbəbindən 30, 50, 100 ildən sonra Yer üzündəki həyatın necə olacağı barədə gündəm formalaşdırır, bədbin proqnozlar verirlər. Ancaq mövcud istiqamətdəki təcrübi biliklər real iş müstəvisində özünü ya göstərmir, ya da çox zəif göstərir. Sanki müəyyən dövlətlər gələcək düzəni deyil, yalnız indini düşünürlər. Elə müstəmləkəçilikdən əl çəkməmək də bunun nəticəsidir.

Müstəmləkəçilikdən əl çəkməyənlər kimlərdir? Başlıca olaraq Fransa, o cümlədən, Niderland. O ölkələr ki, dünyanın ayrı-ayrı məmləkətlərinə bəşəri dəyər və prinsiplərlə bağlı dərs verməyə qalxırlar, insan hüquq və azadlığının fundamentallığından dəm vururlar. Ancaq, nədənsə, özləri həmin fundamentallığı polis dəyənək və çəkmələrinin altında əzərək həqarətlərindən qalmırlar. XXI əsrdə Orta əsrlər dövrünün kolonial sistemlərini qoruyub saxlayırlar. Bununla bağlı müqavimət göstərir və elə rəy formalaşdırırlar ki, sanki hansısa mütərəqqi ənənənin sıradan çıxmasına qarşıdırlar. Əslində isə əldən buraxmaq istəmədikləri istismar etdikləri ərazilərdir. O ərazilər ki, insan orqanizmi üçün, ətraf mühit baxımından bütün çirkli və zərərli işlərini onlar üzərindən reallaşdırırlar. Söhbət həm də insanlığa əleyhinə cinayətlərə yol açan işlərdən gedir.

**(ardı 5-ci səhifədə)**

## Rəsmi İrəvanın iç üzü daha aydın göründü

**Fransa hakimiyyəti Cənubi Qafqaz regionu ilə bağlı destruktiv, sabitliyi pozan siyasət yürütməkdə davam edir. Parisin bu istiqamətdə atdığı son addım Ermənistanla hərbi əlaqələri daha üstün səviyyəyə qaldırmasıdır. İyunun 17-də Hayastanın müdafiə naziri Suren Papikyanın Fransaya səfəri zamanı tərəflər arasında "Caesar" ("Sezar") özüyeriyən artilleriya qurğularının alqı-satqısına dair müqavilə imzalanıb. Bundan əlavə, səfər zamanı Ermənistanla Fransa–Almaniya müştərək silah konserni olan KNDS arasında hərbi-texniki əməkdaşlığa dair sənədə imza atılıb. "Leopard 2", "Leclerc" tanklarının, "PzH 2000", "Caesar" haubitsalarının, zirehli transportyorların, hava hücumundan müdafiə sistemlərinin və mühəndis texnikasının istehsalçısı olan şirkətin Ermənistanla imzaladığı müqavilənin detallarını açıqlamaması suallar doğurur.**



"Beşinci Respublika"nın müdafiə naziri Sebastyan Lekornu özünün "X" hesabında bildirib ki, ölkəsi Ermənistanla müdafiə sahəsində əlaqələri gücləndirməyə davam edir. "Eurosatory" müdafiə və təhlükəsizlik sahəsi ilə bağlı beynəlxalq sərgi çərçivəsində erməni həmkarı Suren Papikyanla görüşdüyünü xatırladan fransalı nazir görüşü məhsuldar və səmərəli adlandırıb. Deyib ki, iki ölkə "Caesar"ın alqı-satqısı barədə müqavilə imzalamaqla hərbi sahədə əməkdaşlığın yeni mühüm mərhələsinə qədəm qoyub.

**(ardı 4-cü səhifədə)**

## Xəzərdən Avropaya mötəbər qaz axını

***Ötən il ölkəmiz Avropaya 11,8 milyard kubmetr "mavi yanacaq" ixrac edib***

**Son illər Avropanın enerji təhlükəsizliyinin təminatına mühüm töhfələr verən Azərbaycanın regionda əhəmiyyəti getdikcə artır. Xüsusən də Rusiya–Ukrayna müharibəsinin davam etdiyi hazırkı şəraitdə enerji təchizatı mənbələrinin şaxələndirilməsini özünün prioritet istiqaməti kimi müəyyənləşdirən "köhnə qitə"nin bir sıra ölkələri təbii qaza olan tələbatının ödənilməsində Azərbaycana daha çox ümid bəsləyirlər.**



Ötən müddətdə Avropa İttifaqının strateji tərəfdaşına çevrilmiş Azərbaycan da öz növbəsində, enerji əməkdaşlığının genişləndirilməsi ilə bağlı imzalanmış sənədlərdən çıxış edərək "köhnə qitə"nin ehtiyaclarını ödəmək üçün daha çox təbii qaz təklif edir. Təkcə onu qeyd etmək kifayətdir ki, ötən il Azərbaycanda 48,3 milyard kubmetr təbii qaz hasil edilib. Bu da əvvəlki ilə nisbətən 1,5 milyard kubmetr və ya 3,2 faiz çoxdur. Qazın 12,9 milyard kubmetri "Azəri–Çıraq–Günəşli", 26,2 milyard kubmetri "Şahdəniz", 0,8 milyard kubmetri "Abşeron" yataqları, 8,4 milyard kubmetri isə SOCAR üzrə hasil olunub.

***(ardı 8-ci səhifədə)***

## YAP İdarə Heyətində parlament seçkisi müzakirəsi




**İyunun 20-də Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin növbəti iclası keçirilib.**

Partiyanın mətbuat xidmətinin mediaya açıqlamasında bildirilib ki, iclasın gündəliyi barədə məlumat verən YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Prezident İlham Əliyevin rəhbərliyi ilə son illər tarixi qələbələr əldə edildiyini, ictimai-siyasi həyatın, dövlət idarəçiliyinin bütün sahələrində çoxşaxəli və məqsədyönlü islahatların uğurla və ardıcıl şəkildə həyata keçirildiyini deyib. YAP sədrinin müavini bildirib ki, bunun nəticəsi olaraq ölkəmiz özünün keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub..

YAP sədrinin müavini vurğulayıb ki, ölkəmizin dünyada nüfuzunun daha da yüksəlməsinə və beynəlxalq ictimaiyyətin Azərbaycana etimadının daha da güclənməsinə növbəti dəfə 2023-cü ilin dekabrında şahidlik etdik: "Belə ki, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29, Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyası kimi mötəbər beynəlxalq tədbirlərin 2024-cü ilin noyabr ayında Azərbaycanda keçirilməsi barədə qərar qəbul edilib".

Tahir Budaqov əlavə edib ki, COP29-un və digər mötəbər beynəlxalq tədbirlərin keçiriləcəyi vaxtda – 2024-cü ilin noyabrında Azərbaycan Konstitusiyasının 981-ci maddəsinin II hissəsinə əsasən Milli Məclisə növbəti seçkilər keçirilməlidir. Həm seçkilərin, həm də qeyd olunan tədbirlərin yüksək səviyyədə təşkili mühüm əhəmiyyət kəsb edir. Bundan əlavə, həmin dövrdə ölkə parlamentinin tam fəaliyyətdə olmasının məqsədəmüvafiqliyi də nəzərə alınmalıdır.

Sonra YAP sədrinin müavini Əli Əhmədov, YAP İdarə Heyətinin üzvləri Hikmət Məmmədov, Musa Quliyev, Elşad Mirbəşiroğlu, Kamal Cəfərov, Anar İsgəndərov, Tahir Mirkişili və Bahar Muradova parlament seçkilərinin önə çəkilməsinin məqsədəuyğunluğunu əsaslandıraraq məsələyə münasibət bildiriblər.

Sonda YAP-ı Milli Məclisdə təmsil edən deputatlara altıncı çağırış Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə Azərbaycan Prezidentinə müraciət olunması üçün təşəbbüs göstərmələrinin tövsiyə olunması barədə yekdil qərar qəbul edilib.

***XQ***

## Planetin "yaşıl nəbzi" Bakıda vurur




Səhifə ⇨ 3

## Azərbaycan dayanıqlı inkişaf mövqeyini möhkəmləndirir

Səhifə ⇨ 8



## Prezident İlham Əliyevin 15 İyun Milli Qurtuluş Günü münasibətilə paylaşımı




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 15 İyun Milli Qurtuluş Günü münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib.**

AZƏRTAC paylaşımı təqdim edir.

## Prezident İlham Əliyev Qurban bayramı ilə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qurban bayramı münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib.**

AZƏRTAC paylaşımı təqdim edir.

## Birinci vitse-prezident Mehriban Əliyevanın 15 İyun Milli Qurtuluş Günü ilə bağlı paylaşımı




Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 15 İyun Milli Qurtuluş Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir.

# "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" mövzusunda beynəlxalq konfransın iştirakçılarına

**Hörmətli konfrans iştirakçıları!**

Sizi "Türk Dövlətləri Təşkilatı: geosiyasi reallıqlar və qlobal kataklizmlər fonunda yeni strateji hədəflərə doğru" mövzusunda beynəlxalq konfransın keçirildiyi, Türk dünyasının mədəniyyət paytaxtı olmuş Şuşa şəhərində səmimi-qəlbdən salamlayır, konfransın işinə uğurlar arzulayıram.

Müasir dövrdə qlobal kataklizmlər beynəlxalq münasibətlər sisteminin geosiyasi reallıqlarından birinə çevrilmişdir. Xarici güc mərkəzlərinin təsiri və müdaxiləsi ilə dünyanın müxtəlif regionlarında çoxsaylı qarşıdurmaların – etnik və dini zəmində münaqişələrin, siyasi konfrontasiyaların baş verməsi, xaos və anarxiya mühitinin yaranması ayrı-ayrı dövlətlərə və bütövlükdə beynəlxalq təhlükəsizliyə ciddi təhdidlər yaratmaqdadır. Beynəlxalq hüquq normalarının kobudcasına pozulduğu və ikili standartlara əsaslanan selektiv yanaşmaların baş qaldırdığı belə bir şəraitdə milli maraqların qorunmasına hədəflənmiş və mövcud çağırışlara cavab verən siyasətin həyata keçirilməsi müstəqil dövlətlərin qarşısında duran başlıca vəzifələrdəndir.

Son zamanlarda yeni strateji hədəflərə doğru inamla irəliləyərək dünya siyasətində yüksələn güc mərkəzinə çevrilən, beynəlxalq nüfuzu və geosiyasi təsir imkanları artmaqda olan Türk Dövlətləri Təşkilatında birləşən ölkələr də analoji çağırışlarla üzləşirlər. Yeni ittifaq modeli kimi dünyanın diqqət mərkəzində olan bu təşkilatda təmsil olunan ölkələrin sıx həmrəylik şəraitində dostluq və qardaşlıq prinsiplərinə, qarşılıqlı anlaşmaya, bərabərhüquqlu tərəfdaşlığa və çoxşaxəli əməkdaşlığa əsaslanan münasibətləri həm milli və regional səviyyədə, həm də qlobal miqyasda sabitliyə, təhlükəsizliyə və inkişafa xidmət edən çox önəmli amildir.

Heç şübhəsiz, Türk Dövlətləri Təşkilatında bir araya gələn ölkələrin siyasi partiyalarının qarşılıqlı faydalı əməkdaşlığı da müştərək məqsədlərin həyata keçirilməsində əhəmiyyətli rol oynayır.

Əminəm ki, Azərbaycan xalqı üçün əlamətdar olan mühüm tarixdə – Milli Qurtuluş Günündə və Şuşa Bəyannaməsinin imzalanmasının növbəti ildönümündə Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə "İslam dünyasının mədəniyyət paytaxtı" Şuşa şəhərində keçirilən, bu səbəbdən xüsusi rəmzi mənaya və mənəvi-siyasi önəmə malik bu tədbirin ölkələrimiz arasında çoxşaxəli münasibətlərin inkişafına, Türk dünyasında birliyin daha da möhkəmlənməsinə, yeni hədəflərin reallaşmasına dəyərli töhfələr verəcəkdir.

Fürsətdən istifadə edərək, milli-mənəvi dəyərlərimizin və İslam mədəniyyətinin mühüm tərkib hissəsi olan müqəddəs Qurban bayramı münasibətilə hər birinizi ürəkdən təbrik edir, sizə möhkəm cansağlığı və fəaliyyətinizdə yeni nailiyyətlər diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 iyun 2024-cü il**

# Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "COP29-a aparan yol: Dayanıqlı və davamlı gələcək" mövzusunda keçirilən yüksək səviyyəli 29-cu toplantının iştirakçılarına

Hörmətli toplantı iştirakçıları.

Əziz dostlar.

Sizi Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə gerçəkləşən "COP29-a aparan yol: Dayanıqlı və davamlı gələcək" mövzusunda yüksək səviyyəli 29-cu toplantının açılışı münasibətilə səmimi-qəlbdən salamlayıram.

Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin fəlsəfi fikirlərini, mütərəqqi ideyalarını, ümumbəşəri dəyərləri və prinsipləri rəhbər tutaraq fəaliyyət göstərən Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qısa zaman ərzində yüksək nüfuz və etimad qazanaraq dünyada aparıcı beynəlxalq təsisatlardan birinə çevrilmişdir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşəbbüsləri, qlobal gündəlikdə duran aktual məsələlərin həlli istiqamətində təklif etdiyi yeni yanaşmalar beynəlxalq aləmdə təqdir edilir və yüksək dəyərləndirilir.

Artıq uzun zamandan bəri iqlim dəyişmələri ilə mübarizə qlobal gündəlikdə duran ən vacib və prioritet məsələlər sırasındadır. Bəşəriyyətin ortaq problemi olan iqlim böhranı və onun fəsadları ölkələrin dayanıqlı inkişafına və rifahına əngəl törətməklə yanaşı, sadə insanların da gündəlik həyatlarına və yaşam tərzlərinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Məlum olduğu kimi, ötən ilin sonunda Azərbaycan Respublikası dünya dövlətlərinin yekdil qərarı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etmək şərəfinə layiq görülmüşdür. Bildirmək istərdim ki, Azərbaycan COP29-a var gücü ilə hazırlaşır, yaşıl, ədalətli, inklüziv və dayanıqlı dünya naminə həmrəyliyi gücləndirmək, planetimizin gələcəyi üçün müsbət nəticələr əldə etmək üçün səylərini əsirgəmir.

Bəşəriyyəti narahat edən iqlim dəyişmələrinə qarşı mübarizədə ölkəmiz digər dövlətlərlə birgə əməkdaşlıq çərçivəsində ağıllı həllər tapmağa çalışacaq, eyni zamanda, biz töhfə vermək istəyən qeyri-hökumət təşkilatları və beyin mərkəzləri ilə əməkdaşlığa açığıq. Bu baxımdan, COP29-a hazırlıqla bağlı Bakı və işğaldan azad edilmiş Zəngilan şəhərlərində üç gün davam edəcək bu tədbir çərçivəsində Mərkəzin dəyərli üzvlərinin və tərəfdaşlarının bizimlə zəngin təcrübələrini və biliklərini bölüşərək dəstək göstərmək səylərini yüksək qiymətləndirirəm.

Qlobal istiləşmənin qarşısını almaq üçün bu günə qədər dünya ictimaiyyəti tərəfindən mühüm addımlar atılsa da, qarşımızda hələ də yeni çağırışlar və gündən-günə ciddiləşən təhdidlər dayanır. Eyni zamanda artıq hamı tərəfindən qəbul olunmuş reallıq budur ki, qlobal istiləşməni 1,5 C° səviyyədə saxlamaq məqsədilə beynəlxalq ictimaiyyətin səylərini səfərbər edərək birgə təcili tədbirlərin görülməsi və təxirəsalınmaz addımların atılması üçün vaxtımız azalır.

Bakıda təşkil ediləcək COP29-da 2025-ci ildən sonrakı dövr üçün iqlim maliyyəsi üzrə yeni kollektiv kəmiyyət hədəfinin razılaşdırılması üzrə danışıqlar aparılacaqdır. İqlim dəyişmələri ilə bağlı inkişaf etməkdə olan ölkələrin artan maliyyə ehtiyaclarını ödəmək məqsədilə yeni kollektiv kəmiyyət hədəfinin razılaşdırılması hamımızın qarşısında duran ümdə vəzifə, ortaq gələcəyimizə sərmayə, müasir və gələcək nəsillər qarşısında kollektiv məsuliyyətimizdir. Azərbaycan bu danışıqların şəffaflıq və inklüzivlik şəraitində irəli aparılması, bundan əvvəl götürülmüş öhdəliklərin və vədlərin yerinə yetirilməsinin sürətləndirilməsi istiqamətində bütün zəruri tədbirləri görəcəkdir.

Eyni zamanda iqlim dəyişmələrinin mənfi təsirlərinə ən çox məruz qalan inkişaf etməkdə olan kiçik ada dövlətlərinin üzləşdiyi problemlərin həlli COP29 sədrliyimizin gündəliyində duran prioritet məsələlərdən olacaqdır.

Bu mötəbər tədbirin sədrliyini öz üzərinə götürən Azərbaycan bütün tərəflərlə səmimi və nəticəyönümlü dialoq quraraq COP prosesini irəli aparmaq, səmərəli iqlim fəaliyyətini təmin etmək və COP29-un uğurlu nəticələrlə yekunlaşması üçün əlindən gələni edəcəkdir.

Önümüzdəki günlərdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvlərinin mitiqasiya və adaptasiya, maliyyələşmə, iqlim dəyişmələri və onun biomüxtəlifliyə, su və qida təhlükəsizliyinə olan təsirləri, ərzaq və kənd təsərrüfatı sektorunun hazırkı vəziyyəti, elm, texnologiya və innovasiyanın rolu kimi mövzular ətrafında müzakirələr aparmaqla, COP29-a hazırlıq mərhələsində iqlim fəaliyyəti gündəliyinin irəli aparılmasına və planetimiz üçün həyati vacib olan qərarların qəbul edilməsinə öz töhfəsini verəcəyinə inanıram.

Sizə ən xoş arzularımı yetirir, 29-cu Yüksək Səviyyəli Toplantının işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 iyun 2024-cü il**

# Böyük Britaniya və Şimali İrlandiyanın Kralı Əlahəzrət III Çarlza

Əlahəzrət,

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən məmnunluq duyuram.

Birləşmiş Krallıq ilə münasibətlər bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Biz dövlətlərarası əlaqələrimizin bütün sahələrdə dərinləşməsinə, xüsusilə də strateji xarakter daşıyan çoxillik səmərəli enerji əməkdaşlığımızın daha da genişlənməsinə böyük önəm veririk. Bu ilin noyabrında Azərbaycanın COP29-a evsahibliyi etməsi Birləşmiş Krallıq ilə iqlim fəaliyyəti və yaşıl enerjiyə keçid məsələlərində də birgə işin davam etdirilməsi üçün yaxşı imkanlar yaradır.

Əminəm ki, Azərbaycan ilə Birləşmiş Krallıq arasında sağlam təməllər üzərində qurulmuş ənənəvi dostluq əlaqələri, qarşılıqlı faydalı əməkdaşlığımız bundan sonra da xalqlarımızın rifahı naminə uğurla inkişaf edəcək və genişlənəcəkdir.

Əlahəzrət, belə bir əlamətdar gündə Sizə bir daha ən səmimi təbriklərimi çatdırır, möhkəm cansağlığı, xoşbəxtlik, fəaliyyətinizdə uğurlar, Birləşmiş Krallığın dost xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyun 2024-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Ölkənizin milli bayramı münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Zati-alinizə şəxsi rifah, Azərbaycan xalqına isə firavanlıq və xoşbəxtlik arzulayıram.

Hörmətlə,

***ANRİ,***
***Lüksemburqun Böyük Hersoqu***

## Türkiyə Prezidentinin Milli Qurtuluş Günü təbriki

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan 15 İyun Milli Qurtuluş Günü münasibətilə Azərbaycan xalqını təbrik edib.**




Türkiyə Prezidentinin "X" sosial şəbəkə hesabında bununla bağlı paylaşım edilib.

Paylaşımda deyilir: "Can Azərbaycanın 15 İyun Milli Qurtuluş Gününü ən səmimi hisslərimlə təbrik edir, bütün azərbaycanlı qardaşlarıma salam və məhəbbətimi çatdırıram. Yaşasın Azərbaycan!".

***AZƏRTAC***

## Şimali Kipr Prezidenti xalqımızı təbrik edib

**Dost və qardaş ölkə Azərbaycanın müstəsna cəsarət, əzm, qətiyyət və fədakarlıqla əldə etdiyi müstəqilliyinin rəmzi olan Milli Qurtuluş Günü və Şuşa Bəyannaməsinin üçüncü ildönümü mübarəkdir.**




Bu fikirlər Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarın Azərbaycana təbrik mesajında yer alıb.

Şimali Kipr Prezidentinin "X" sosial şəbəkə hesabında paylaşılan mesajda, həmçinin deyilir: "Bir millət, üç dövlət şüarı ilə daim bərabərik".

***AZƏRTAC***

## Birinci vitse-prezident Mehriban Əliyeva Qurban bayramı münasibətilə paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində Qurban bayramı münasibətilə paylaşım edib.**




***AZƏRTAC** xəbər verir ki, paylaşımda deyilir:*

*"Əziz həmvətənlər!*

*Sizi və dünya müsəlmanlarını Qurban bayramı münasibətilə təbrik edirəm! Allah etdiyiniz duaları, kəsdiyiniz qurbanları qəbul etsin! Hər birinizə möhkəm cansağlığı, sevgi, sevinc və gözəl əhvali-ruhiyyə arzulayıram. Qoy bu bayram ürəklərdə saf niyyətlər və xoş duyğular oyatsın, hər bir ocağa xeyir, rahatlıq və xoşbəxtlik gətirsin!*

*Dərin hörmət və sevgilərlə,*

*Sizin MEHRİBAN".*

# Planetin "yaşıl nəbzi" Bakıda vurur

## Azərbaycanın həm COP29-a hazırlıq, həm də sonrakı dövr üçün "Yol xəritəsi" hazırdır

**Xeyli müddətdir ki, dünyada baş verən iqlim dəyişmələri ilə mübarizə qlobal gündəliyi zəbt etmiş mövzulardan biri kimi həlli vacib prioritet məsələlərdən sayılır. Artıq Yer sakinlərinin ortaq probleminə çevrilmiş iqlim böhranının fəsadları əksər ölkələrin sabit inkişafına əngəl törətməklə yanaşı, sadə insanların gündəlik həyatına, onların güzəranına əhəmiyyətli dərəcədə təsir göstərməkdədir.**




Bakının vəziyyətdən çıxış yollarını birlikdə aramaq barədə çağırışları getdikcə daha geniş əks-səda verməkdədir. Ölkəmizin planetin qlobal gündəliyində duran aktual məsələlərin həlli istiqamətində irəli sürdüyü yeni yanaşmaların, təklif etdiyi "Yol xəritəsi"nin beynəlxalq miqyasda təqdir olunması, "böyük güclər" tərəfindən müsbət dəyərləndirilməsi hamının bildiyi faktdır. Hazırda dünyanın "yaşıl nəbzi"nin Bakıda vurduğu isə hətta, Azərbaycanı xoşlamayan ölkələrin belə qəbul etdiyi danılmaz həqiqətdir. Bu, eyni zamanda, son illər beynəlxalq miqyaslı, çox nüfuzlu tədbirlərə yüksək səviyyədə evsahibliyi etmiş ölkəmizə olan inamın daha da artmasının göstəricisidir.

* * *

Bu gün Azərbaycan liderinin həyata keçirdiyi siyasətin əsas istiqamətlərin biri dünya birliyinə inteqrasiya, beynəlxalq təşkilatlarla münasibətlərin daha da genişləndirilməsidir. Məhz bu baxımdan Azərbaycanda keçiriləcək COP29 tədbiri böyük əhəmiyyətə malikdir. Ölkəmiz BMT-nin bu mötəbər sammitinə hərtərəfli hazırlaşır. Bakının məqsədi ev sahibi kimi iqlim kataklizmlərindən əziyyət çəkən bütün ölkələrlə körpülər qurmaqdır. Noyabr sammitində təmsil olunacaq dövlətlərin coğrafiyası, Azərbaycana təşrif buyuracaq xarici qonaqların sayı bunun üçün bütün şərt və imkanları yaradacaq. Bu günədək keçirdiyi beynəlxalq miqyaslı çoxsaylı tədbirlərdə olduğu kimi, bu dəfə də Azərbaycanın hamı üçün faydalı və kəsərli sözünü deyəcəyi şübhəsizdir. Sammit iştirakçılarının Bakıda eşidəcəkləri qlobal çağırışlara qarşılıq verəcəklərini, həmrəylik nümayiş etdirəcəklərini indidən söyləmək olar.

Beləliklə, noyabr ayında Bakı dünyaya "yaşıl nəfəslik" açmağa hazırlaşır. Azərbaycan Prezidentin söylədiyi kimi, bu, böyük siyasətdir və ölkəmiz bundan ötrü vahid platforma yarada bilər. Bu nöqteyi-nəzərdən ötən ilin sonunda Azərbaycan dünya dövlətlərinin yekdil qərarı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etmək şərəfinə layiq görülməsini həm də tarixi fürsət kimi dəyərləndirir.

"Bildirmək istərdim ki, Azərbaycan COP29-a var gücü ilə hazırlaşır, yaşıl, ədalətli, inklüziv və dayanıqlı dünya naminə həmrəyliyi gücləndirmək, planetimizin gələcəyi üçün müsbət nəticələr əldə etmək üçün səylərini əsirgəmir. Bəşəriyyəti narahat edən iqlim dəyişmələrinə qarşı mübarizədə ölkəmiz digər dövlətlərlə birgə əməkdaşlıq çərçivəsində ağıllı həllər tapmağa çalışacaq. Eyni zamanda, biz töhfə vermək istəyən qeyri-hökumət təşkilatları və beyin mərkəzləri ilə əməkdaşlığa açığıq". Azərbaycan Prezidenti İlham Əliyev bunu Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "COP29-a aparan yol: Dayanıqlı və davamlı gələcək" mövzusunda keçirilən yüksək səviyyəli 29-cu toplantının iştirakçılarına müraciətində bildirib. Dövlətimizin başçısı toplantı iştirakçılarına müraciətində COP29-a hazırlıqla bağlı Bakıda başlayıb, işğaldan azad edilmiş Zəngilanda yekunlaşacaq tədbir çərçivəsində dəyərli qonaqların, tərəfdaşların Azərbaycanla zəngin təcrübə və biliklərini bölüşərək dəstək göstərmək səylərini yüksək qiymətləndirdiyini vurğulayıb.

Qlobal istiləşmənin qarşısını almaq üçün bu günədək dünya ictimaiyyəti tərəfindən mühüm addımların atıldığına diqqəti çəkən Azərbaycan lideri qarşıda hələ yeni çağırışların, gündən-günə ciddiləşən problemlərin dayandığını da xatırladıb. BMT-nin bu mötəbər tədbirinə sədrliyi öz üzərinə götürən Azərbaycanın bütün tərəflərlə səmimi və faydalı nəticəyə hesablanan dialoq quraraq COP prosesini irəli aparmaq, səmərəli iqlim fəaliyyətini təmin etmək və sammitin uğurla yekunlaşması üçün əlindən gələni edəcəyini əminliklə dilə gətirən İlham Əliyev müraciətinin sonunda COP29-a hazırlıq mərhələsində iqlim fəaliyyəti gündəliyinin irəli aparılacağına, planetimiz üçün həyati əhəmiyyət kəbs edən qərarların qəbuluna öz töhfəsini verəcəyinə inandığını xüsusi olaraq vurğulayıb.

* * *

Bu gün işğaldan azad edilmiş Zəngilanda öz işini başa vuracaq "COP29-a aparan yol: Dayanıqlı və davamlı gələcək" toplantısı beş ay sonra Bakıda gerçəkləşəcək BMT-nin ən nüfuzlu iqlim sammitinə hazırlıq xarakteri daşısa da, üçgünlük müzakirə və debatlarda kifayət qədər maraqlı və aktual fikirlər səsləndi.

"Azərbaycanda COP29-a hazırlıq işləri intensiv şəkildə davam etdirilir. BMT-nun belə nüfuzlu tədbirinə hazırlıqla əlaqədar Azərbaycanın təcrübəsində dövlət sektoru ilə bərabər vətəndaş cəmiyyəti, media və özəl sektorun nümayəndələrinin də iştirakı böyük əhəmiyyət kəsb edir". Bu fikirləri Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə açıqlamasında deyib. Onun sözlərinə görə, həqiqətən də, Azərbaycanda COP29-un təşkili ilə bağlı bütün tərəflərin – qeyri-hökumət təşkilatları, akademik dairələr, beynəlxalq təsisatların fikirləri ciddi şəkildə nəzərə alınır, iqlim sammiti ərəfəsində onların təqdim etdiyi məsələlər ciddi müzakirə edilir, bir çox aspektlərlə bağlı nəticə əldə olunur. Prezidentin köməkçisi COP29 sədri olaraq Azərbaycan üçün bütün fikirləri eşitmək, konsensusa əsaslanan proqram hazırlamaq və iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün hər kəsin imkanını genişləndirən ümumi həll yollarının tapılmasının vacibliyini önə çəkib.

"COP29-un uğurla keçirilməsi üçün Azərbaycan Qoşulmama Hərəkatına sədrlik təcrübəsindən istifadə edəcək". Bunu Azərbaycanın Ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev dünən Bakıda Qoşulmama Hərəkatının Gənclər Təşkilatının təşkilatçılığı ilə iqlim fəaliyyətinə dair forumda çıxışı zamanı deyib. Onun sözlərinə görə, ölkəmiz Qoşulmama Hərəkatına sədrliyi zamanı əldə etdiyi təcrübədən uğurla istifadə etmək barədə düşünür. "Azərbaycan çalışır ki, bütün ölkələr qarşılıqlı maraq doğuran məsələlərlə bağlı dəstəklərini ifadə etsinlər. Bütün tərəfləri iqlim dəyişikliyi ilə mübarizə üzrə beynəlxalq öhdəliklərə əməl etməyə çağırsınlar", – deyə qeyd edən M.Babayev COVID-19 ilə iqlim dəyişikliyinə qarşı kollektiv mübarizə arasında paralellərin aparılmasının əhəmiyyətli olduğunu da vurğulayıb: "Bu, bizə ümumi problemi həll etmək üçün bütün dünya səylərini birləşdirməyin vacibliyini göstərib. Son aylarda komandamız maraqlı tərəflər və müvafiq beynəlxalq təşkilatların rəhbərləri ilə geniş və məzmunlu məsləhətləşmələr aparıb. Biz ümumi iqlim probleminin nəticələrini aradan qaldırmaq üçün bütün tərəflərin birgə işləməyə sadiq olduqlarını gördük".

Nazir çıxışında onu da qeyd edib ki, Petersberq İqlim Dialoqu zamanı Azərbaycan komandası bu qlobal problemlə mübarizə üçün ambisiya və fəaliyyətin artırılmasına yönəlmiş COP29 üçün bir baxış ortaya qoyub: "İndi komanda ümumi plandan daha konkret istiqamətlərə keçməyə hazırdır".

* * *

Hər şeydən göründüyü kimi, Azərbaycan bütün xarici tərəfdaşlarına özünün milli iqlim fəaliyyəti ilə bağlı planlarına dəstək olmaq, şəffaf hesabatları vasitəsilə öz ambisiyalarını yüksəltmələrinə kömək etmək üçün çalışır. Həmin plan və hesabatlar isə qarşılıqlı etimadın yaradılmasına, eləcə də ortaya qoyulacaq sərmayəni düzgün istiqamətləndirməyə kömək edə bilər. Burada söhbət cəmiyyətin hər bir üzvündən gedir. Həmin üzvlərin arasında yetişməkdə olan gənc nəsil isə fövqəladə əhəmiyyətə malikdir. Hazırda iqlim dəyişmələri ilə bağlı Azərbaycanın təhsil sahəsində də müəyyən addımlar atılır, orta məktəblərdə maarifləndirmə işləri aparılır. Etiraf etmək lazımdır ki, bu, çox sevindirici haldır. Azyaşlılar arasında ekoloji maarifləndirmə fəaliyyətinə nəinki orta məktəbdən, hətta uşaq bağçasından başlanılmalı, onlara qlobal iqlim dəyişmələrinin fəsadları, təbiətə və insanlara zərərli təsirləri anlaşılan formada öyrədilməlidir. Bunu sürətlə korlanmaqda olan su, hava, torpaq, yerin təki kimi, millətin genefondu da tələb edir.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Elxan ŞAHİNOĞLU,**
**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi**

Azərbaycan bu ilin noyabr ayında iqlim dəyişikliyi ilə bağlı BMT-nin çox nüfuzlu tədbirinə evsahibliyi edəcək. Bu baxlımdan ölkəmiz təkcə bölgədə deyil, bütün dünyada baş verən iqlim hadisələri ilə bağlı müəyyən məsuliyyət daşıyır. Yəni, bu xarakterli məsələlərə diqqət yetirmək məcburiyyətindədir. Prezident İlham Əliyevin verdiyi açıqlamalr, səsləndirdiyi çağırışlar məhz bu səpkidədir. Planetin üzləşdiyi qlobal problemlərin həllinə Azərbaycan öz töhfəsini verməkdədir. COP29-un keçiriləcəyi noyabr ayından sonra da ölkəmiz bu prosesdə iştirakını davam etdirəcək. Azərbaycan artıq özündə Günəş və külək enerjilərinə daha çox üstünlük verir və bununla bağlı ciddi layihələr həyata keçirir.

Bundan başqa, bəzi kiçik dövlətlər, dənizaşırı ada-ölkələr vardır ki, onlar çox ciddi problemlərlə üzüzə qalıblar. Qlobal iqlim dəyişiklikləri hətta bu ölkələrin bəzilərini yox olmaq təhlükəsi qarşısında qoyub. Həmin ölkələrdən bəzilərinin nümayəndələri bu yaxınlarda Bakıda keçirilən foruma qatılmışdılar. Əlbəttə ki, COP29-un ev sahibi kimi, Azərbaycan da bu qəbildən olan məsələlərə diqqət yetirir. Rəsmi Bakı yaranan problemlərin həlli istiqamətində öz fikirlərini bildirir, dünyanın böyük dövlətləri ilə birgə fəaliyyət göstərir.

Azərbaycan Prezidentinin çıxışlarında vurğuladığı əsas motiv məhz ölkəmizin öz üzərinə götürdüyü məsuliyyət yükü ilə bağlıdır. Bakı dünya gücləri ilə birgə iqlim dəyişiklikləri ilə bağlı dünyanın üzləşdiyi probemlərin həllində davamlı olaraq iştirak edəcək.

# Ermənistanın anti-KTMT kursu

## Rusiya XİN rəsmisinin İrəvana xatırlatmaları

**Ermənistan, demək olar, hər gün Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə ziddiyyətlərini dərinləşdirməkdə davam edir. Doğrudur, rəsmi İrəvan, hələlik, qurumla yollarını tam şəkildə ayırdığını bildirmir. Baxmayaraq ki, bununla bağlı da müəyyən eyhamlar var, erməni iqtidarı indilik yalnız psixoloji gedişlərə əl atır, sözügedən qurumun toplantılarını boykot etməklə kifayətlənir. Məsələn, Ermənistan təmsilçisinin təşkilatın Xarici İşlər Şurasının bu gün Almatıda keçiriləcək iclasına qatılmayacağı da məlumdur.**



Ermənistan–KTMT ziddiyyətləri 2022-ci ilin noyabrından aktiv fazaya daxil olub. Həmin vaxt quruma rotasiya qaydasında sədrliyi həyata keçirən baş nazir Nikol Paşinyan KTMT-nin İrəvanda düzənlənmiş ali səviyyəli toplantısında tələb etmişdi ki, təşkilat Azərbaycanı pisləyən qərar çıxarsın. Daha dəqiq desək, 2022-ci ilin sentyabrında Azərbaycan–Ermənistan şərti sərhədində yaşanan gərginliyi rəsmi Bakının işğalçılıq niyyəti kimi tanısın. Paşinyanın bu istəyi keçməmişdi. Bildirilmişdi ki, iki Cənubi Qafqaz ölkəsi arasında sərhədlər müəyyənləşmədiyindən, KTMT-nin məsuliyyət zonası aktiv deyil. Həmin vaxtdan etibarən rəsmi İrəvan qurumun Ermənistandakı məsuliyyət zonasını dəqiqləşdirməyəcəyi halda, onunla münasibətlərin əvvəlki qaydada olmayacağını vurğulamaqdadır. Elə o zamandan başlayaraq KTMT, o cümlədən, Rusiya Ermənistanın, necə deyərlər, nazı ilə oynamaqla məşğuldur. Əslində, Rusiyanın xarici işlər nazirinin müavini Mixail Qaluzinin fikirləri də rəsmi İrəvan üçün KTMT ilə münasibətləri yoluna qoymağı düşünmək şansıdır. Bu barədə söz açacağıq. Ancaq əvvəlcə bir paradoksal məqamı diqqətə çatdıraq.

Məsələ bundadır ki, Paşinyan administrasiyasının təmsilçiləri 2022-ci ilin sentyabrında yaşanan hərbi eskalasiya nəticəsində Azərbaycanın suveren Ermənistanın ərazilərinə qəsb gerçəkləşdirdiyi fikrini deməkdən usanmırlar. Bu ritorikadan beynəlxalq müstəvidə ölkəmizə qarşı anti-təbliğat vasitəsi olaraq "yararlanırlar". Üstəlik, KTMT-nin Ermənistanın təhlükəsizliyini qorumaq baxımından, guya, zəifliyini önə çəkirlər. Paradoksallıq isə bundadır: N.Paşinyan daxili auditoriyaya hesablanmış bütün çıxışlarında bildirir ki, Ermənistanın sərhədlərini dəqiq müəyyənləşdirmək lazımdır. Onun sözlərindən belə nəticə hasil olur ki, indiyədək Ermənistan adlı dövlət, ümumiyyətlə, mövcud olmayıb və bundan sonra görüləcək işlər həmin dövləti gələcək nəsillərə miras kimi saxlamağa yönəlməlidir. Bir vaxtlar Nikolun Ermənistan üçün "doğum şəhadətnaməsi" almaqla əlaqədar söylədikləri də fikrimizin təsdiqidir. Deməli, həqiqətən, KTMT-nin məsuliyyət zonası qeyri-müəyyəndir. O zaman rəsmi İrəvan qurumdan niyə şikayətlənir? Nəyin davasını aparır?

Belə qənaətə gəlirik ki, Ermənistan rəhbərliyinin bütün anti-KTMT davranışları planlaşdırılıb və onun mövcud xüsusda irəli sürdüyü fikirlər arqument deyil, yalnız bəhanələrdir. Yəni, rəsmi İrəvan Rusiyanın orbitindən tam şəkildə uzaqlaşmaq üçün bəhanələr axtarır və KTMT bu baxımdan yaxşı tutacaq yeridir. Qaluzin isə bildirir ki, Moskva Ermənistanın mövqeyindən geri çəkiləcəyini gözləyir. Yəni, haqqında söz açdığımız şans məntiqi elə budur.

Əlqərəz, Rusiyanın XİN rəhbərinin müavini deyir ki, Kreml İrəvanın KTMT platformasının regional təhlükəsizliyin təminatı məsələlərində əməkdaşlıq naminə hər cür imkanlar yaratdığını anlayacağına inanır: "Biz müttəfiq olaraq qalırıq. Ümidvarıq ki, erməni tərəfdaşlarımız regional təhlükəsizliyin təmin edilməsinin ən effektiv metodunun region dövlətləri arasında əməkdaşlıq olduğunu başa düşəcəklər. KTMT platforması bunun üçün hər cür imkan yaradır".

Göründüyü kimi, M.Qaluzin, eyni zamanda, ölkəsinin Ermənistanın Cənubi Qafqaz regionuna kənar oyunçular cəlbi niyyətinə qarşı çıxdığını bəyan edir. O, dolayısı ilə İrəvanın gedişlərinin təhlükəsizliyə fayda verməyəcəyinin, əksinə durumu gərginləşdirəcəyinin anonsunu verir.

İkinci məqam "Region region ölkələri üçündür" deyimi ilə bağlıdır. Yəni, başlıca məsələ regional əməkdaşlığın saxlanılmasıdır. Bu əməkdaşlıqda mühüm halqa yenə də kənar oyunçuların dominant mövqeyinə imkan verməməkdir. Ancaq son günlər yaşanan proseslər onu göstərir ki, Ermənistan rəhbərliyinin istəyi oyun qaydalarını pozmaqdır. Məsələn, ABŞ Dövlət Departamentinin rəhbərinin müavini Ceyms O'Brayn İrəvana gəlir və faktiki olaraq bildirir ki, Azərbaycan–Ermənistan sülh müqaviləsi Rusiyanın Cənubi Qafqazdan uzaqlaşdırılmasına, ölkənin bölgədəki təsirini azaltmağa yönəlib. O, nəinki belə deyir, ümumən, məsələni Vaşinqtonun hədəfi formasında açıqlayır. Ermənistan rəsmiləri bununla razılaşmış kimi görünürlər...

Bundan başqa, son günlər Fransanın Ermənistanı silahlandırması ilə bağlı məsələ yenidən aktuallaşmaqdadır. Heç şübhəsiz, bu amil də regional təhlükəsizlik üçün ciddi təhdid yaradır. Nəzərə alsaq ki, hazırda Bakı–İrəvan sülh gündəliyi aktualdır, o zaman Fransanın hazırkı fəaliyyətinin, eləcə də Ermənistanın həmin fəaliyyətə adekvat davranışının hansı fəsadlara yol açacağını proqnozlaşdırmaq elə də çətin deyil.

Deməli, Paşinyan adminstrasiyası, ümumən, regional təhlükəsizlik alətlərini heçə saymaq yolu tutur və anti-KTMT kursu da mövcud mənfi trayektoriyadakı mühüm siyasi gedişlərdən biridir. Yeri gəlmişkən, onu da diqqətə çatdıraq ki, baş nazir N.Paşinyan 2024-cü il başlayandan həmin kursu genişləndirməklə məşğuldur. Məsələn, o, fevral ayında bildirmişdi ki, ölkəsi qurumdakı iştirakını dondurub. Yazımızda Qaluzinin açıqlaması fonunda bu dondurmanın bir seqmentini xatırlatdıq. Yada salaq ki, rəsmi İrəvan mayın 31-də KTMT-nin Almatıda keçirilmiş Müdafiə Nazirləri Şurasının iclasında da iştirak etməyib. Bu günlərdə isə N.Paşinyan bildirib ki, hakimiyyət lazım bildiyi zaman ölkə qurumdan çıxacaq.

Qeyd etdiklərimizlə yanaşı, Ermənistanın baş naziri Belarus Prezidenti Aleksandr Lukaşenko ilə bağlı bir müddət əvvəlki mənfi fikirlərini də KTMT müstəvisində gündəmə gətirmişdi. "Gedib Belarus Prezidentinin yanında oturub Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı formatında məsələləri müzakirə etməliyəmmi? Mən bəyan edirəm ki, Aleksandr Lukaşenko bu ölkənin Prezidenti olduğu müddətdə bir daha Belarusa getməyəcəm", – deyən Paşinyan həddini aşaraq onu da bildirmişdi ki, Lukaşenko erməni xalqından üzr istəməlidir.

Bu yerdə cənab Lukaşenkonun Paşinyana cavabını xatırlatmaqla yazımızı bitirək. Hesab edirik ki, bu cavab Ermənistanın həm anti-KTMT kursuna, həm də ümumən xarici siyasətinin motivlərinə verilən ən yaxşı qiymətdir: "Qulaq asın, bu, axı gülməlidir. O deyir ki, qoy, Lukaşenko üzr istəsin. Yaxşı, mən indi, bu dəqiqə, hər kəsin qarşısında hazıram. Üzr istəyirəm, əzizim, amma sən iyrənc insansan. Daha bir şey… Bizdə artıq yaşıl köynəkdə, daha bir şey tələb edən belə bir iyrənc insan olub. Onunla artıq hər şey aydındır. Lakin bu Paşinyan bir zamanlar mənə gecə zəng vurub xahiş edirdi ki, onu Putinlə barışdırım. Mən həmin vaxt ona kömək etdim. Vladimir Vladimiroviç (Putin) mənə demişdi ki, Aleksandr Qriqoryeviç, bir bilsəniz bu Paşinyan necə bezdirib. O, bir az başqa cür demişdi, sadəcə indi sizə yumşaq formada deyirəm. O zaman xahiş etdim, onlar Moskvada görüşdülər. İndi mənə belə "təşəkkür" edir".

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Rəsmi İrəvanın iç üzü daha aydın göründü



(əvvəli 1-ci səhifədə)

İyunun 18-də isə Fransanın məkrli Cənubi Qafqaz planları ilə bağlı daha bir addım atılıb. Həmin gün ölkənin yüzə yaxın tanınmış siması Fransa silahlı qüvvələrinin Ermənistana göndərilməsi xahişi ilə prezident Emmanuel Makrona müraciət edib. Müraciətdə Azərbaycan tərəfindən Ermənistana hansısa təhlükənin mövcud olduğu iddia edilərək, Makrondan "bir çox fransızı və hüquq müdafiəçisini narahat edən çox mühüm məsələyə – Ermənistanın mövcudiyyəti ilə bağlı vəziyyətə diqqət yetirmək" xahiş olunub. Məktubun əsas mahiyyətini isə Fransa hərbçilərinin "sülhməramlı kontingent" şəklində Ermənistana göndərilməsinə çağırış təşkil edib.

Qeyd edək ki, Fransa 44 günlük Vətən müharibəsindən, ələlxüsus, ötən il ordumuzun keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra Ermənistanı fəal şəkildə silahlandırır. Paris bundan öncə İrəvana 3 ədəd GM200 radar sistemi, 50 ədəd "Bastion" tipli zirehli texnika tədarük edib. Həmçinin, "Mistral" yaxınmənzilli hava hücumundan müdafiə sistemlərinin alınmasına dair müqavilə imzalanıb. İndi isə həmin siyasətin davamı kimi növbəti təxribatçı addımını atır.

Silah sövdələşməsi Azərbaycanda haqlı və ciddi narazılıq doğurub. Bu da səbəbsiz deyil. Çünki burada söhbət torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlamış ölkənin silahlandırılmasından gedir. Halbuki, Ermənistan tərksilah edilməli ölkədir. Əvəzində biz görürük ki, Hayastanda tez-tez hərbi təlimlər keçirilir, ehtiyatda olan hərbçilərin təlim toplanışları aparılır, yerli hərbi sənaye şirkətlərinə il ərzində 495 milyon dollar dəyərində silah-sursat istehsalına dair sifariş verilib. Son günlərdə Ermənistan–Azərbaycan şərti sərhədinin Naxçıvan istiqamətində atəşkəs rejiminin müntəzəm pozulması halları da bu çərçivədə diqqətdən qaçmır və bütün bunlar təhlükəli tendensiyadan xəbər verir. İndi Fransanın atdığı təxribatçı addım isə yanan ocağa benzin tökməyə bənzəyir.

Fransanın təxribatçı addımı ilə bağlı Azərbaycan Müdafiə Nazirliyi açıqlama yayıb. Açıqlamada bildirilib ki, Azərbaycan tərəfinin xəbərdarlığına rəğmən Fransanın Ermənistanı öldürücü və hücum təyinatlı artilleriya qurğuları və digər silah növləri ilə təchiz etməsi Parisin Cənubi Qafqazda təxribatçı fəaliyyət aparmasının növbəti sübutudur. Bildirilib ki, Fransa Müdafiə Nazirliyi keçən ilin oktyabrında verdiyi açıqlamada Ermənistana tədarük edilən hərbi texnikanın müdafiə xarakteri daşıdığını iddia etsə də, hazırkı hərbi sövdələşmə ilə İrəvanın öldürücü silahlarla təchiz edilməsi Fransa rəhbərliyinin riyakarlığının növbəti təzahürüdür. Açıqlamada Cənubi Qafqazda vəziyyətin gərginləşməsinə və yeni müharibə ocağının yaranmasına görə məsuliyyəti tam şəkildə revanşist siyasət yürüdən Ermənistan rəhbərliyinin və Makron diktaturasının daşıyacağı bəyan edilib.

Xarici İşlər Nazirliyi isə Ermənistan tərəfinin bu ölkənin silahlanması səylərinə bəraət qazandırmasına dair bəyanatını qətiyyətlə rədd edib. Qeyd edilib ki, guya, sülhü dəstəkləyən və Ermənistanın məhz müdafiə qabiliyyətini artırmağa yönəlmiş bəyanatlarına zidd olaraq, hücum silahları ilə təchiz edilməsində yarışan Fransa kimi ölkələrin Hayastanın yeni gərginlik və təhdid mənbəyinə çevrilməsinə xidmət etdiyi bəllidir. Bu siyasətin Ermənistanın növbəti mümkün təcavüzünə töhfə verdiyini nəzərə alaraq, nə qədər ki gec deyil, bu addımlardan geri çəkilməsi əhəmiyyət kəsb edir.

Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib ki, Fransanın Cənubi Qafqazla bağlı siyasətini səmərəli hesab etmirik, bu, zərərli siyasətdir. Onun sözlərinə görə, Fransanın Ermənistanı silahlandırması indiyə qədər əldə olunmuş nəticələrə, Qafqazda sülhə təhdiddir və regionda sülhə heç bir halda töhfə vermir. Həmçinin, münasibətlərin normallaşması prosesinə ciddi zərbədir. Eyni zamanda, Ermənistan daxilindəki revanşist qüvvələrin bir növ həvəsləndirilməsinə xidmət edəcək bir addımdır: "Ona görə də Fransanın militarizasiya siyasəti, xüsusilə də Ermənistana hücum xarakterli silahların təqdim etməsi və Ermənistan–Fransa hərbi əməkdaşlığının genişləndirilməsi ciddi narahatlıq doğuran haldır. Hesab edirik ki, Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvü olaraq daha məsuliyyətli bir siyasət həyata keçirməlidir".

Bu arada Fransadan Ermənistana silah tədarükü ilə bağlı yeni faktlar açıqlanıb. Məlum olub ki, Ermənistan adı çəkilən ölkədən 36 ədəd "Caesar" özüyeriyən artilleriya qurğusu alıb. Fransanın məşhur "Fiqaro" qəzetinin direktor müavini, jurnalist Jan-Kristof Byuisson "X" platformasında bildirib ki, alınan silahlar qarşıdakı 15 ay ərzində çatdırmalıdır.

Göründüyü kimi, əvvəllər aldığı silahları "müdafiə xarakteri" ilə "əsaslandırmağa" çalışan Ermənistan rəhbərliyi hazırda Fransa tərəfinin təhriki ilə açıq revanşizmə sürüklənir. Ancaq görünür, rəsmi İrəvan bunun hansı öldürücü nəticələrinin olacağını dərk etmir. Bölgədə yenidən müharibə olsa, Azərbaycan Ordusu yenə öz gücünü və peşəkarlığını göstərəcək. Ermənistanı qızışdırıb ortalığa atanların isə yenə buruqlarının ucu da qanamayacaq. Digər tərəfdən Ermənistan rəhbərliyi hazırda özünü səmimi şəkildə sülhə can atan tərəf kimi göstərməyə çalışır. Lakin İrəvanın bir tərəfdən Azərbaycanın sülh müqaviləsi imzalamaq üçün zəruri şərtlərini qəbul etməkdən boyun qaçırması, digər tərəfdən isə öldürücü silahların alınmasına külli miqdarda vəsait xərcləməkdə davam etməsi fonunda bu səmimiyyət ciddi şübhələr yaradır. Bütün bunlar İrəvanın iç üzünün bir daha aydın göründüyünü söyləməyə əsaslar verir.

Mövzu üzrə söhbətləşdiyimiz Azərbaycan Ordusunun sabiq korpus komandiri, ehtiyatda olan polkovnik **Şair Ramaldanov** bildirdi ki, Fransa Ermənistanı mütəmadi şəkildə silahlandırır. Onun sözlərinə görə, hazırda Parisin İrəvana özüyeriyən artilleriya qurğuları verməsindən söhbət gedir. Bunlar nə "Bastion" zirehli texnikaları, nə "GM200" radar sistemləri, nə də "Mistral" yaxınmənzilli hava hücumundan müdafiə sistemləridir. Ermənistana 15 ay ərzində 36 ədəd özüyeriyən



artilleriya topunun verilməsi diqqəti kifayət qədər özünə cəlb edən silahlandırmadır.

Hərbi ekspert bildirdi ki, "Caesar" özüyeriyən artilleriya qurğusu "Renault Sherpa 10" zirehli kabinli yük maşınının şassisinə quraşdırılmış 155 mm-lik haubitsadır. "Caesar"ın bir ədədinin qiyməti 4-6 milyon dollardır. Haubitsa 40 kilometr uzaqlıqdakı hədəfləri vura bilir. Reaktiv mərmilərlə isə hədəf vurma imkanları 55 km-dək çoxalır. Bu topların atdığı mərmilərin peykdən idarə olunaraq, dəqiqliklə vura bilmə imkanlarını da nəzərə alsaq, əlbəttə, məsələ diqqətdən kənarda qala bilməz. Azərbaycan da bununla bağlı öz xəbərdarlığını edib.

Ş.Ramaldanov qeyd etdi ki, Ermənistanın silahlandırılması məsələsində qırmızı xətt keçilməməlidir: "Əgər ölkəmiz bu prosesin bizə hansısa təhlükə yaradacağını görsə, dərhal cavab tədbirləri görməli olacaq. Düşünürəm ki, Bakıdan verilən ismarıc ciddi xəbərdarlıqdır. Çünki burada söhbət müdafiə xarakterli silahlardan getmir. 55 km uzaqlıqdakı hədəfi vuran artilleriya topları sırf hücum silahlarıdır. Onlar proseslərə müəyyən şəkildə təsir edəcək silah kimi qəbul olunmalıdır".

Bununla belə, müsahibimiz bildirdi ki, sırf hərbi cəhətdən götürdükdə Ermənistanın silahlandırılması, əlbəttə, Azərbaycanla paritet yarada bilməz. Bu gün Ermənistanın hansısa revanşist addım atmağa və nəyəsə nail olmağa potensialı yoxdur. Sabah da olmayacaq. Ancaq bu hadisənin regionun təhlükəsizliyinə çox böyük mənfi təsiri var. Fransa Ermənistanı silahlandırmaqla burada öz məqsədini güdür. Bu məqsədlər isə Ermənistan dövlətçiliyinin itirilməsinə gətirib çıxara bilər. Ermənistanda hansı qüvvənin hakimiyyətə gəlməsindən asılı olmayaraq, onlar müstəqil siyasət yürütməyə və qərar qəbul etməyə qadir deyil. Onlar hər zaman bu və ya digər güclərin təsiri altında, hətta öz ölkələrinin ziyanına olan qərarlar qəbul edirlər. Belə olan təqdirdə Fransanın Ermənistanda öz maraqlarını təmin etmək və genişləndirmək üçün atdığı addımlar həm erməni xalqı, həm də bütövlükdə, region üçün yaxşı heç nə vəd etmir.

Sabiq korpus komandiri digər tərəfdən diqqəti Ermənistanda Rusiya hərbi bazasının mövcudluğuna yönəltdi. Fransa isə Rusiyaya dost ölkə deyil. İki ölkənin maraqlarının Ermənistanda toqquşmasının nəyə gətirib çıxaracağı və region üçün hansı təhdidlər yaradacağı hər kəsə aydın olduğu üçün bu barədə çox düşünməyə gərək yoxdur. Əlbəttə, Fransanın bizim regionumuzda atdığı addımlar həm də Rusiyanın Afrika qitəsində Parisə qarşı yürütdüyü siyasətə cavabdır. Fransa hazırda Rusiyanın maraqlarının olduğu hər yerdə, o cümlədən, Ermənistanda Moskvaya qarşı çıxmağa, əvəzində öz maraqlarını genişləndirməyə çalışır. Bu isə bütün region ölkələri üçün təhlükəlidir.

*Səxavət HƏMİD*
*XQ*

Replika

**Əgər sərlövhənin altındakı fikrə şübhə edənlər varsa, baş nazirin diaspor nümayəndələri ilə görüşündə dediklərini diqqətlə oxusunlar. Nikol Paşinyan dövləti fetişləşdirənlərə üzünü tutaraq bəyan edir ki, dövlət heç də qarşısında şam yandırılan ikona deyil, onun da özünün müsbət və ya mənfi cəhətləri var: "Dövlət bir çox məqamlarda sevilə bilən, bəzi hallarda isə cəlbedici olmayan canlı orqanizm kimi qəbul edilməlidir".**

Bu sözləri baş nazir Ermənistanın dövlət orqanlarına diaspor mütəxəssislərinin cəlb edilməsi üzrə "iGorts" proqramının iştirakçıları ilə görüşündə deyib. Onun sözlərinə görə, erməni mediasının sitat gətirdiyi kimi, canlı orqanizm məşq edib daha da yaxşılaşa, təkmilləşə bilər, amma ikona bunu bacarmır.

Paşinyan bunları dilə gətirməklə, əslində, Hayastanda tarixləri kimi, əksər dəyərlərin də ehkama çevrildiyinə və bunun millətin və dövlətin inkişafı yolunda süni buxov rolunu oynadığına işarə vurur.

Əslində, Paşinyan fetişizmi əmələ gətirən şovinizm və revanşizm kimi milli natamamlıq komplekslərini qamçılamağa

# Fetişizm = şovinizm + revanşizm

## *Deyəsən, Paşinyan xalqını etnik natamamlıq kompleksindən qurtarmaq istəyir*



cürət edib. Həm də bunu kimlərin qarşısında edir? Yüz illərdir "miatsum", "dənizdən-dənizə böyük Ermənistan", "artsax xalqı" kimi utopik təmayüllü xəstəlik viruslarını dünya ermənilərinin beyinlərinə yeridən təşkilatların nümayəndələrinin hüzurunda.

Aşağıda oxuyacaqlarınız isə bir erməninin öz haylarının üzünə dedikləridir:

"Hər şeyi fetişləşdirmək bizim təbiətimizdədir. Biz hətta dövlətin özünü də fetişləşdiririk. Problem ondadır ki, bununla da özümüzü dövlətimizi yaxşılaşdırmaq imkanından məhrum edirik. Əslində, bununla özümüzü dövlətin insanların həyatını yaxşılaşdırmaq üçün alət olması düşüncəsindən də məhrum edirik. Vaxtilə ordumuzu da fetişləşdirirdik, bəs axırda nəyə nail olduq? 2020-ci ildə və ondan sonra gördüklərimiz və yaşadıqlarımız məhz ordumuzun fetişləşdirilməsi səbəbindən baş verdi. Deyirdilər ki, sus, ordu barədə pis heç nə deyə bilməzsən, çünki, o, başqa orqanizmdir. Onun ünvanına pis bir kəlmə işlədə bilməzsən. İntəhası, eyni zamanda, hamımız ordunun içində nələrin baş verdiyini bilirdik...".

Paşinyanın acı etirafları bununla da bitməyib. O, dünyada 10 milyon erməninin yaşadığına da şübhə ilə yanaşdığını bildirib: "Bu yaxınlarda özümə belə bir sual verdim: diaspor, media mənsubları davamlı olaraq dünyada yaşayan 10 milyon ermənidən bəhs edirlər. Bəs bu qədər erməninin siyahısı haradasa varmı? Əminəm ki, belə bir siyahı yoxdur".

Bunu fetişləşdirmə adlandıran Paşinyan hətta rəqəmin də, guya, müqəddəs, toxunulmaz olduğunu lağa qoyur: "Amma artıq neçə on ildir ki, bu rəqəm nə artır, nə də azalır. Sadəcə olaraq dəyişdirilə bilməz".

"İndi biri çıxıb desə ki, bu rəqəm 10 milyon deyil, 10 milyon 561 mindir, hamı ona qarşı hücuma keçib hayqıracaq: Cahil! Sən bunu haradan bilirsən? Yaxud kimsə desə ki, yox, dünyadakı ermənilərin sayı 9 milyon 200 mindir, onun da üstünə çımxıracaqlar: "Sən ermənilərin qlobal təsirini aşağılayırsan, bir qələm zərbəsi ilə 800 min ermənini məhv edirsən".

Hayastanın gerbində, konstitusiyasında, orta məktəblərin coğrafiya kitablarındakı qonşulara qarşı ərazi iddiaları kimi qüsurlardan açıq danışan Nikol Paşinyanı kimlərin və nəyə görə qınadığının fərqinə varmaq lazımdır. Bunu da millətin etnik komplekslərini acı reallıq kimi izah edən Ermənistan hökumətinin başçısını qorxaqlıqda ittiham edənlərin mənyusuna yazdıq.

***İ.HƏSƏNQALA***
***XQ***

# QMİ sədrinin RPK-nin yepiskopu ilə görüşü

**İyunun 18-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, şeyxülislam Allahşükür Paşazadə Rus Pravoslav Kilsəsinin Azərbaycana yeni təyin etdiyi Yepiskop Aleksiy ilə görüşüb.**

Söhbət zamanı şeyxülislam Azərbaycanın multikultural dəyərlərindən, bütün dinlərə və adətlərə bəslədiyi hörmətdən söz açaraq hər iki dinin nümayəndələri arasındakı münasibətlərin səviyyəsindən məmnunluğunu bildirən şeyxülislam bu əlaqələrin səmərəli və davamlı olacağına inandığını qeyd edib.

Ölkəmizin postmüharibə dövründə dini fəaliyyətini diqqətə çatdıran QMİ sədri vurğulayıb ki, 30 illik düşmən işğalında dağıdılmış məscid və kilsələr bu gün Azərbaycanın Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xətti ilə bər-



pa olunur, dindarların rahat şəkildə istifadəsi üçün hər bir şərait yaradılır.

Yepiskop Aleksiy Azərbaycan xalqının müxtəlif dinlərə qarşı olan tolerantlığından bəhs edərək bu münasibətlərdən məmnunluğunu ifadə edib.

Bakı Dağ Yəhudiləri İcmasının sədri Milix Yevdayev ölkədə dini fəaliyyət üçün yaradılmış şərait üçün Azərbaycan dövlətinə təşəkkür edib.

*XQ*

# Kibercinayətkar şəbəkə ifşa olunub

**Dövlət və ictimai xadimlərin adından saxta müraciətlər hazırlayan kibercinayətkar şəbəkə ifşa olunub.**

Bu barədə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) mətbuat xidmətindən məlumat verilib.

Məlumatda bildirilib ki, kibercinayət yolu ilə Azərbaycan Respublikası Prezidentinin, digər dövlət və ictimai xadimlərin adından süni intellekt proqramları– "deepfake" texnologiyaları vasitəsilə saxta videomüraciətlərin hazırlanması, bu yolla müxtəlif sosial şəbəkələrdə Dövlət Neft Şirkəti ("SOCAR"), "Kapital Bank", "Azərbaycan Beynəlxalq Bankı" tərəfindən iri məbləğlərdə qazanc vəd edən saxta elanlar yaymaqla vətəndaşların pul vəsaitlərinin ələ keçirilməsi faktları ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 272.2.1, 272.2.2 (Mütəşəkkil dəstə tərəfindən təkrar olaraq kompüter məlumatlarını qanunsuz ələ keçirmə), 273-2-ci (Kompüter məlumatlarının saxtalaşdırılması) və 178.3.1 (Mütəşəkkil dəstə tərəfindən dələduzluq) maddələri ilə cinayət işi başlanılıb.

Cinayət işi üzrə kompleks araşdırmalar aparılaraq kibercinayətlərin törədildiyi ölkələr müəyyən edilib, həmin dövlətlərin aidiyyəti orqanları ilə operativ prosessual əməkdaşlıq çərçivəsində beynəlxalq kibercinayətkar şəbəkə ifşa olunub, qeyd olunan cinayət əməllərinin qarşısı alınıb.

Müəyyənləşdirilib ki, kibercinayətkarların yaratdıqları saytlara istinadən internetin Azərbaycan seqmentinin istifadəçilərinə təqdim edilən çoxsaylı saxta elanlarda vətəndaşlar müxtəlif investisiya layihələrinə pul vəsaiti yatırmağa dəvət edilib, köçürülmüş vəsaitlərin müntəzəm olaraq əhəmiyyətli dərəcədə artması görüntüsü yaradılıb, vəd edilmiş investisiya qazancının zərərçəkmiş şəxslərin bank kartlarına köçürülməsi adı altında, habelə kibercinayət yolu ilə sonuncuların kart məlumatları əldə edilərək həmin kartlardakı pul vəsaitləri ələ keçirilib.

Azərbaycanın və digər ölkələrin vətəndaşlarının külli miqdarda pul vəsaitlərini analoji cinayət əməlləri ilə ələ keçirmiş beynəlxalq kibercinayətkar qruplaşmanın üzvləri Ukrayna ərazisində yerli hüquq-mühafizə orqanları tərəfindən cinayət məsuliyyətinə cəlb edilib, transmilli mütəşəkkil dəstənin cinayət əməllərinin törədilməsində iştirak etmiş Azərbaycan Respublikasının vətəndaşları – 1998-ci il təvəllüdlü Zöhrabov Rafiq Mahir oğlu və 1979-cu il təvəllüdlü Niftalıyev Sərdar Əlixan oğlu Azərbaycanda cinayət məsuliyyətinə cəlb olunub, məhkəmənin qərarı ilə barələrində həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə araşdırmalar və beynəlxalq hüquqi əməkdaşlıqdan irəli gələn cinayət-prosessual tədbirlər davam etdirilir.

*XQ*

# Postmüharibə dövründə liderlik

## I MƏQALƏ

*Öncədən görmək idarə etmək deməkdir.*

***Blez PASKAL***



### Heydər Əliyevin siyasi uzaqgörənlik məharəti

Siyasətdə, xüsusilə liderlikdə öncəgörmə böyük əhəmiyyət daşıyır. XXI əsrin geosiyasi dinamikasının mürəkkəbliyi, qeyri-müəyyənliyi və riskliliyi fonunda, bu, ayrıca əhəmiyyəti olan məqamdır. Avrasiya məkanında XX əsrin 90-cı illərindən bu yana olan siyasi idarəetmə təcrübəsi göstərir ki, liderlər əsasən proqnozlaşdırmadakı uğursuzluğa görə, siyasi səhnədən çəkilməli olurlar. Liderdə hətta əksəriyyətə qaranlıq olan məqamlar haqqında öz kursuna uyğun aydın təsəvvür olmalıdır. Bu bağlılıqda Azərbaycan təcrübəsində çox maraqlı faktlar mövcuddur.

Heydər Əliyev keçən əsrin 90-cı illərində düzgün proqnozlaşdırmaq qüdrətini göstərdi. Ulu öndər yeganə siyasi lider idi ki, Avrasiya məkanında müstəqil dövlət quruculuğu kursunun strateji hədəfini güclü dövlət qurmaq kimi müəyyənləşdirdi. Bu qərar həmin mərhələ üçün xeyli dərəcədə gözlənilməz idi. Çünki o zaman, xüsusilə SSRİ-nin dağılması nəticəsində müstəqil olmuş ölkələrin böyük əksəriyyəti liberalizmdən, demokratiyadan və Qərb nümunəsində "azad cəmiyyət" qurmaqdan bəhs edirdi. Və bu tendensiya həmin mərhələdə sosialist düşərgəyə qalib gəlmiş və buna görə də dünyanın yeganə "ümid yeri" kimi qəbul edilən Qərb tərəfindən dəstəklənirdi.

Deməli, Azərbaycan iki yoldan birini seçməli idi. Birincisi, Qərbin marağına uyğun olan sözdə liberal və demokratik kursu seçmək olardı (o cümlədən, qonşular kimi). İkincisi, o dövr üçün qeyri-populist olsa da, milli maraqlara xidmət edən güclü dövləti olan azad, demokratik, hüququn aliliyinin, insan haqlarının təmin olunduğu, multikultural dəyərlərə sahib və hakimiyyət-toplum birliyinə dayanan vətəndaş cəmiyyəti formalaşdırmaq. Yəni qısa ifadə etsək: güclü dövlətdən güclü, monolit vətəndaş cəmiyyətinə doğru!

O mərhələdə dünya miqyasında güclü dövlət qurmaq kursu ən yaxşı şəkildə Çində əksini tapmışdı. Çin öz milli dövlətçilik ənənəsi üzərində müasir tələblərə cavab verən güclü iqtisadiyyata və iradəetmə institutlarına malik dövlət qurmaqda idi. Lakin Cənubi Qafqaz ölkəsi kimi Azərbaycanın bu seçimi etməsi yüksək liderlik qabiliyyəti, uzaqgörənlik, iradə və qətiyyət tələb edirdi. Milli liderin ən böyük keyfiyyəti ondan ibarətdir ki, bu cür həyati seçim məqamında öz imicini deyil, dövlətin müstəqilliyini önə çəksin. Həmin məqamda liderin mövqeyi ilə strateji öncəgörməsi vəhdət təşkil etməlidir. Etiraf edək ki, Heydər Əliyevin bu seçimini əvvəlcə, hətta, Azərbaycan cəmiyyətində anlamayanlar oldu.

Lakin liderin prosesləri geniş və dərindən görmək qabiliyyəti, ölkə tarixinin incəliklərini dərindən bilməsi, siyasi qətiyyəti, əminliyi və obyektiv siyasi-nəzəri proqnozlaşdırmaq qüdrəti həlledici rol oynadı. Heydər Əliyevin milli müstəqil dövlət quruculuğunda seçdiyi istiqamət güclü dövlət konsepti oldu! Onu da vurğulamaq lazımdır ki, o dövrdə Qərbin də tanınmış politoloqları, analitikləri, filosofları "güclü dövlət" anlayışının praktiki tərəfini tam anlamış deyildilər – onlar da hər bir müstəqil dövlətin uğurlu gələcəyini liberalizm və demokratiya ilə bağlayırdılar. Xüsusilə, Avrasiya məkanında yalnız liberallığın müstəqil dövləti inkişaf etdirə biləcəyini təsdiq edən tezislər irəli sürürdülər. Nümunə kimi də əsasən Ukrayna və Gürcüstanı göstərirdilər, Ermənistanı da Qafqazda "demokratiya adası" kimi təqdim etməyə çalışırdılar.

### Güclü dövlətlə liberalizm arasında

Bunların xülya olduğunu həyat sübut etdi. Öncə, XXI əsrin əvvəllərində Qərb fəlsəfi və politoloji fikrində "güclü dövlət" anlayışını fərqli aspektdə anlamağa başladılar. Bunun bariz nümunəsi Frensis Fukuyamanın "Güclü dövlət. XXI əsrdə idarəetmə və dünya nizamı" (2004-cü il) əsəri idi. Diqqət edək: Qərbin ən nüfuzlu analitik, sosioloq və filosoflarından biri güclü dövlət anlayışına XXI əsrdə dünya nizamı və idarəetmə fonunda baxır. Əsərinin ilk sətirlərindən aydın olur ki, F.Fukuyama həmin dövrdə Qərb fəlsəfi və politoloji fikrində dominant olan mövqeyə uyğun gəlməyən konsepsiya irəli sürür.

O yazır ki, "bizim diqqət mərkəzində güclü dövlət quruculuğunun əsas yer tutması kimlərəsə nöqsan kimi görünə bilər". Çünki çoxları dövlətin məhdudlaşması və onun funksiyalarının azaldılmasından bəhs edir. Ancaq F.Fukuyama fikrini onunla əsaslandırır: "Dünya təcrübəsi göstərdi ki, qlobal miqyasda ciddi problemlərin qaynağı zəif müstəqil dövlətlərin və hakimiyyətlərin olması ilə bağlıdır."

O, həmin əsərdə güclü dövlət qurmağın fəlsəfəsini də bu şəkildə qısa ifadə etmişdir: "Güclü dövlət qurmaq mövcud hakimiyyət institutlarını (müəssisələrini, qurumlarını – F.Q.) möhkəmlətmək və yenilərini yaratmaqdan ibarətdir."

Bizim oxucuya güclü dövlət quruculuğunun fəlsəfi və politoloji özəlliklərini tam anlatmaq kimi niyyətimiz yoxdur. F.Fukuyamanın XXI əsrin əvvəllərində yazdığı fikirləri ulu öndər Heydər Əliyevin hələ XX əsrin 90-cı illərində (əsasən 1994 və 1995-ci illərdə) dolğun, aydın və politoloji prinsiplərə tam uyğun söylədiyini siyasi proqnozlaşdırma kontekstində anlatmağa çalışırıq. 1994-cü və 1995-ci illəri də təsadüfən seçmirik. Biz onu nəzərdə tuturuq ki, həmin illərdə Heydər Əliyev iki miqyasda güclü dövlət quruculuğu aspektində böyük işlər gördü.

Birincisi, daxildə qanunsuz silahlı qruplaşmalara və radikal siyasi düşüncələrə qarşı nəticəverici mübarizə apardı.

İkincisi, iki il dalbadal – 1994-cü il və 1995-ci ildə BMT Baş Assambleyasının iclaslarında Azərbaycanda güclü və hüquqi dövlət quruculuğunun əsas parametrlərini dünyaya anlatdı!

O dövrdə F.Fukuyama və həmfikirləri dünyada liberalizmin möhtəşəm qələbəsindən "tarixin sonu" kontekstində geniş danışırdılar. Güclü dövlətçiliyi Qərb dəyərlərinin daha tez mənimsənilməsi ilə bağlayırdılar. Qərb politoloqları üçün, təqribən, 10 il lazım oldu ki, geosiyasi, siyasi və bütövlükdə politoloji prosesləri təhlil edib, proqnozlaşdırmaqda Heydər Əliyev mövqeyinin doğru olduğunun qəbul etsinlər.

Bundan başqa, XXI əsrin ilk iki onilliklərində postsovet məkanında baş verən proseslər Heydər Əliyevin tam haqlı olduğunu və F.Fukuyama ilə yanaşı, onlarca Qərb filosof və politoloqunun öz yanlışlığını düzəltməyə çalışdığını sübut etdi. Belə ki, 2008-ci ildə Gürcüstan və 2014-cü ildən başlayaraq isə Ukrayna güclü zərbələr aldılar. Onlarda liberal, güclü və demokratik dövlət anlayışından əsər-əlamət qalmadı.

Bu hadisələrdən sonra Qərb və Ukrayna politoloqları demokratik və liberal dövlətdən yox qrup maraqlarının və kənardan təsirlərin üstünlük təşkil etdiyi dövlətdən danışmağa başladılar. Hər iki anlayışı birləşdirən məqam dövlətdə real demokratik faktorların deyil, qrup maraqlarının, hakimiyyətin sırf süni irsi əsaslarla ötürülməsinin (bu anlamda siyasi varisiliyin qeyri-obyektiv istiqamət almasına) aparıcı olmasıdır (məsələn, ukraynalı araşdırmaçı A.A.Fisun (1997, 2000, 2004) mövqeyidir). Eyni zamanda, politoloqlar artıq güclü iqtisadiyyatı demokratiya və liberalizmlə bağlamaq kimi xülyalardan da imtina etməkdədirlər. Gürcüstan bunun tipik nümunəsidir. Hazırda qonşu dost ölkədə siyasi qüvvələr bir-biri ilə milli maraqlara görə deyil, qrup maraqlarına görə çəkişirlər. Halbuki, Azərbaycan Gürcüstanın güclü dövlət olmasında maraqlıdır.

### Siyasi dinamika və əsaslı proqnozlaşdırma

Qısa müqayisələrdən maraqlı politoloji nəticələr əldə etmək olar. Hər şeydən öncə, siyasi və geosiyasi proqnozlaşdırmanın Azərbaycan təcrübəsi göstərir ki, ən böhranlı situasiyalarda belə uzaqgörən lider dövləti, cəmiyyəti və bütövlükdə, ölkəni düzgün istiqamətə yönəldə bilər. Bu zaman ən böyük maneələrdən biri, nüfuzlu sayılan siyasi və elmi dairələrin ehkam halına gəlmiş təsəvvürlərinə qarşı olmaqdan ibarətdir.

Heydər Əliyev bu aspektdə nümunədir. Ulu öndər milli, regional və qlobal miqyasda keçən əsrin son onilliyi üçün, demək olar ki, ehkam halını almış təsəvvürləri darmadağın etdi. Güclü dövlət konseptini ekskluziv olaraq həyata keçirməklə siyasi və geosiyasi proqnozlaşdırmada öndə olduğunu sübut elədi. Yuxarıda Qərb politoloji fikrinin təzadları kontekstində apardığımız qısa müqayisələr bu məsələdə Heydər Əliyevin dövlət xadimi kimi yüksək təhlil və proqnozlaşdırma potensialından xəbər verir. Deməli, siyasi proqnozlaşdırmada liderin biliyi, təcrübəsi və iradi qətiyyəti vəhdət halında ilk sıradadır.

Yuxarıdakı müqayisə əsasında siyasi proqnozlaşdırmanın digər aspekti kimi liderin hər tarixi situasiyanı obyektiv, dərindən və milli maraqlar kontekstində dərk etməsinin zəruriliyini qəbul edə bilərik. Liderlik təlimlərində liderin situasiyanın məntiqini dərk etməsi ciddi yer tutur. Hətta, bununla bağlı XX əsrdə liderologiyada situativlik nəzəriyyəsi formalaşmışdır. Bu nəzəriyyə daxilində "situasion liderlik modeli" (Pol Hersi və Ken Blanşar) formalaşdırılmışdır. Həmin modelə əsasən, hər bir uğurlu lider situasiyanın şərtlərinə uyğun fəaliyyət göstərməlidir. Bunun isə iki tərəfi vardır – birincisi, liderin şəxsi keyfiyyətləri, ikincisi, liderin ətraf mühitlə uğurlu kommunikasiya qurmaq bacarığı. Bu iki tərəf real sintez edildikdə lider konkret situasiyada uğurlu ola bilər.

Buradan belə nəticə ala bilərik ki, geniş miqyasda liderin bilik, bacarıq, təcrübəsini konkret tarixi situasiyanı dərindən və obyektiv dərk etmək əsasında əyaniləşdirməsi olduqca vacib keyfiyyətdir. Onun reallaşmasında isə siyasi proqnozlaşdırmanın (o cümlədən, strateji öncəgörmənin) rolu ayrıdır.

Nəhayət, üçüncü aspekt. Geosiyasi və siyasi proqnozlaşdırmada dünya miqyasında dəyişmə mənzərəsini lider görə bilməlidir. XXI əsr üçün bunun nə dərəcədə çətin olduğunu bəlkə də sübut etməyə ehtiyac qalmamışdır. Çünki çox sayda fəlsəfi, siyasi, geosiyasi, hüquqi, iqtisadi və s. araşdırmalarda dövrün xarakteristikası verilmişdir. Bizi maraqlandıran lider–siyasi proqnozlaşdırma kontekstində isə başlıca məqam konkret tarixi mərhələdə liderin proqnostik fikirləri və praktiki davranışlarının məntiqidir. Bu məqalədə postmüharibə dövrü bizi Prezident İlham Əliyevin uğurlu liderliyi fonunda məhz həmin aspektdə maraqlandırır.

Fikirlərimizə davam etmək üçün öncə onu vurğulayaq ki, postmüharibə dövründə İlham Əliyevin uğurlu lider kimi proqnozlaşdırma qüdrətini vurğuladığımız üç aspektin kəsişmə "sahəsi"ndə araşdırmağa çalışacağıq. Bunun üçün isə siyasi proqnozlaşdırmanın metodoloji bazasında xüsusi yeri olan bir faktora nəzər salmaq lazım gəlir. Biz, "siyasi diaqnostika" anlayışını nəzərdə tuturuq. Çünki təcrübə göstərdi ki, Prezident İlham Əliyev II Qarabağ savaşına qədərki dövrün dəqiq siyasi diaqnostikasını müəyyən etmişdir. Ona görə də postmüharibə dövründə siyasi diaqnostikanın başlıca məqamlarını anlamamız üçün öncəki tarixi mərhələnin bir sıra geosiyasi və siyasi özəlliklərinə baxmalıyıq.

(ardı var)

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# İqlim dəyişmələri və kolonializm – Azərbaycanın COP29 gündəliyi

**(əvvəli 1-ci səhifədə)**

Bəli, bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilib. Ölkənin indinin özündə də fəal surətdə məşğul olduğu qul ticarəti insanlığın ən utancverici və rüsvayçı səhifələrindən biridir. Nəzərə alaq ki, tarixin müxtəlif dövrlərində milyonlarla afrikalı həmin siyasətin qurbanı olub. Dünyanın ədalətsizliyinə də baxın ki, hazırda Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür, insanlığın taleyi ilə bağlı qərar verən statusundadır.

Rəsmi Paris mövcud yüksək statusundan sui-istifadə edir, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozur. Həmçinin zorakılıqla da. Yeri gəlmişkən, haqqında söz açdığımız mövzu Qoşulmama Hərəkatının Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə bu günlərdə Nyu-Yorkda keçirilmiş və kolonializmə qarşı mübarizəyə həsr olunmuş tədbirdə də müzakirəyə çıxarıldı. Toplantıda Fransa və Niderlandın müstəmləkə altında saxladıqları ərazilərdən təmsilçilər, habelə Korsika, Fransa Qvianası, Qvadelupe, Martinik, Maohi Nui (Fransa Polineziyası), Kanaki (Yeni Kaledoniya), müstəqillik hərəkatlarının rəhbər şəxsləri, dekolonizasiya üzrə ekspertlər və tədqiqatçılar, kolonializmə qarşı mübarizə aparan və azad olmağa çalışan xalqların nümayəndələri bildirdilər ki, Fransa beynəlxalq təşkilatların və müstəqillik uğrunda mübarizə aparan xalqların uzun illərdir tələblərinə məhəl qoymur, neokolonializm siyasətini davam etdirir. Ən əsası isə bu çirkin siyasət nəticəsində yalnız xalqların müstəqillik və suverenlik hüquqları məhdudlaşdırılmayıb, həm də onların malik olduqları yeraltı və yerüstü sərvətlər amansızcasına talan edilib. Elə buna görə də Azərbaycan Prezidenti məsələnin COP29 çərçivəsində müzakirəsini mühüm prioritet elan edib.

Qeyd edək ki, bu gün BMT-nin Nyu-Yorkdakı Mənzil Qərargahında Bakı Təşəbbüs Qrupunun təşəbbüsü və təşkilatçılığı ilə BMT-nin Müstəmləkə altında olan ölkələr və xalqlara müstəqillik verilməsi haqqında Bəyannaməsinin icrası ilə bağlı yaradılmış xüsusi komitənin – C24-ün illik iclası çərçivəsində "Müstəqilliyə və fundamental azadlıqlara doğru: Müstəmləkəçiliyə son qoyulmasında C24 Komitəsinin rolu" adlı konfransı da keçiriləcək. Göründüyü kimi, dövlətimiz məsələyə fundamental yanaşır. Heç şübhəsiz, fundamentallıq özünü digər yüksək miqyaslı tədbirlərdə də göstərəcək. Başlıca vəzifə isə ona hesablanıb ki, dünya üzrə aparılan kolonializm siyasətinin fəsadları müxtəlif aspektlərdən dəyərləndirilsin. Azərbaycan öz tərəfindən məsələyə böyük önəm verir. Təsadüfi deyil ki, ölkəmiz Qoşulmama Hərəkatına sədrliyi dövründə dekolonizasiya prosesi ilə mübarizəyə müstəsna dividendlər qazandırıb. Əlbəttə, müstəmləkəçiliyin aradan qaldırılması istiqamətində sistemli və ardıcıl iş aparılması və təşkilatlanma son dərəcə vacibdir. Əslində, Azərbaycan Prezidentinin COP29-la bağlı müəyyənləşdiriyi gündəlik də bu baxımdan xüsusilə əhəmiyyətlidir.




Habelə, Korsikada, Fransa Qvianasında, Qvadelupedə, Martinikdə, Maohi Nuidə və digər Fransa müstəmləkələrindəki vəziyyətə dair gerçəkliklərin dünya ictimaiyyətinə çatdırılması üçün çağırışlar da səsləndirilməlidir. Hesab edirik ki, bu baxımdan da Azərbaycanın COP29-a sədrliyi mühüm nəticələr verəcək. Bir daha bildirək ki, qlobal iqlim fəlakətlərini doğuran cəhətlərin kökündə qeyri-insani rəftarın özü dayanır. Belə yarıtmaz təfəkkürə son qoyulmalıdır. Azərbaycanın prinsipial mövqeyi bundan ibarətdir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Bakıda “COP29-a aparan yol: Dayanıqlı və davamlı gələcək” mövzusunda yüksək səviyyəli 29-cu toplantı keçirilib

**Azərbaycanın ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a hazırlıq məqsədilə iyunun 19-da Bakıda “COP29-a aparan yol: Dayanıqlı və davamlı gələcək” mövzusunda yüksək səviyyəli 29-cu toplantının rəsmi açılış mərasimi keçirilib.**






Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə baş tutan tədbirdə əvvəlcə moderator – Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin toplantını açdıqdan sonra Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına müraciətini oxuyub. (Müraciətin mətni qəzetin 21 iyun nömrəsində dərc olunub)

Daha sonra Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldinə “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” təqdim edilib.

Tədbirdə çıxış edən İ.Serageldin bildirib ki, Kyoto Protokolunun bağlanmasından 30 ilə yaxın müddət keçib. Geriyə baxsaq, 1997-ci ildə iqlim tullantılarının qarşısını almaq üçün ilk səylərin başladığı zamanla indiki vaxt müqayisə oluna bilməz.

Azərbaycanın bu il COP 29-a evsahibliyi etməsinin onları məmnun etdiyini vurğulayan İ.Serageldin bildirib: “Biz komandamızla sıx işləyirik, müzakirələr aparırıq. Biz həm Pakistanda, həm də Hindistanda 52 dərəcədən yuxarı rekord istini gördük, bu da bir insan üçün inanılmaz dərəcədə çətindir. Ümumiyyətlə, qlobal istiləşmə, iqlim dəyişikliyi bütün bəşəriyyət üçün çox ciddi problemdir”.

Azərbaycanın COP29-u inklüziv, şəffaf və ədalətli şəkildə təqdim etməyə sadiq olduğunu vurğulayan COP29-un prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev diqqətə çatdırıb ki, COP29 Sədrliyi olaraq bütün fikirləri eşitmək, iqlim dəyişikliyi üçün hər kəsi ortaq həllər tapmağa səsləmək vacibdir.

Nazir, həmçinin qeyd edib: “Ötən aylar ərzində komandamız müvafiq beynəlxalq təşkilatların rəhbərləri ilə geniş və dərin məsləhətləşmələr aparıb. Bu görüşlər ambisiyaları artırmaq və hərəkətə keçmək üçün yeni fürsətlər yaradıb”.

BMT Baş Assambleyasının 73-cü Sessiyasının prezidenti, Ekvadorun sabiq xarici işlər və müdafiə naziri Maria Fernanda Espinoza Azərbaycanın evsahibliyi edəcəyi COP29-a hazırlıq məqsədilə təşkil olunan Yüksək Səviyyəli 29-cu Toplantıda bir araya gəlməkdə məqsəd iqlim dəyişikliyi ilə mübarizədə əsas məsələlərlə bağlı müzakirələr aparmaq olduğunu deyib. Bildirib ki, COP-un bu günü və gələcəyi hamımız üçün mühümdür.

M.Espinoza vurğulayıb ki, COP29-un uğuru təkcə Azərbaycanın uğuru olmayacaq. İnanırıq ki, tədbir prosesə inamı və legitimliyi gücləndirəcək.

COP29-un bəşəriyyət ilə təbiət arasında sülhün bərqərar edilməsi üçün keçirilən tədbir olduğunu bildirən qonaq deyib: “Biz uğurun bir hissəsi və COP29-un səfirləri olmaq istəyirik”.

CGIAR şirkətinin icraçı direktoru, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının sabiq baş elmi işçisi İsmahane Elouafi qeyd edib ki, COP29-da müzakirə olunacaq məsələlər problemdən həll yollarının tapılması istiqamətində çox vacibdir. “Ümid edirəm ki, gələcək nəsillərə dünyanı daha sağlam və yaşanıla biləcək bir yer olaraq ötürə bilərik”, – deyə o vurğulayıb.

İqlim dəyişikliyi probleminin həlli üçün təcili birgə fəaliyyət göstərməyin vacibliyini qeyd edən Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus tədbir iştirakçılarına videomüraciəti zamanı diqqətə çatdırıb ki, iqlim dəyişikliyi probleminin həlli üçün təcili birgə fəaliyyət lazımdır. Dünyada bu problemlə bağlı yaşanan hadisələr iqlim dəyişikliyi ilə mübarizə üçün kollektiv fəaliyyətə təcili ehtiyac olduğunu aydın surətdə xatırladır. Biz birlikdə davamlı həll yollarına marağı artıra və gələcək nəsillər üçün daha sağlam dünya yarada bilərik.

Milyonlarla insanın Asiyada həddindən artıq istidən əziyyət çəkdiyini bildirən T.Qebreyesus iqlim dəyişmələrinin vəba, malyariya kimi xəstəliklərinin sürətlə yayılmasına səbəb olduğundan narahatlığını ifadə edib.

“İqlimin mülayimləşdirilməsindən əldə olunan gəlirlərlə hər il milyonlarla insanın həyatını xilas edə bilərik. Xərclənən hər 1 dollar 4 dollardan çox gəlir gətirə bilər. Bu tədbirlərə həssas insanları istilik dalğalarının təsirindən qorumaq, səhiyyə müəssisələri üçün bərpaolunan enerjiyə sərmayə qoymaq, ətraf mühiti çirkləndirən yanacaqlara subsidiyaların verilməsini dayandırmaq daxildir”, – deyə o vurğulayıb.

Bəşəriyyətin iqlim dəyişikliyinə və bu qlobal problemin həlli yolunda hərəkətsizliyə görə fəlakətin astanasında olduğunu diqqətə çatdıran BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos videomüraciətində planetin xilası geosiyasi parçalanmanın girovuna çevrilə biləcəyindən narahatlığını ifadə edib.

Migel Anxel Moratinos qeyd edib: “Unutmayaq ki, problemin həlli təkcə iqlimə deyil, iqtisadi rifaha və davamlı inkişafa da kömək etmək imkanı yaradır. İqlim dəyişikliklərini həll etmək planeti və həssas insanları qorumaq deməkdir”.

Tədbirə videoformatda qoşulan digər qonaqlar – BMT-nin İnsanın İmmunçatışmazlığı Virusu/Qazanılmış İmmun Çatışmazlığı Sindromu üzrə Birgə Proqramının (UNAIDS) icraçı direktoru Vinni Byanyima, Finlandiyanın sabiq Prezidenti Tarya Halonen, Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) Baş direktorunun müavini, Nüvə Elmləri və Tətbiqləri Departamentinin rəhbəri Nəcat Moxtar, Böyük Britaniyanın sabiq Baş naziri Qordon Braun iqlim dəyişikliyi ilə bağlı fikirlərini bölüşüb, təkliflərini səsləndiriblər. Natiqlər qlobal problemlərdən biri olan iqlim dəyişikliyi ilə mübarizədə səylərin birləşdirilməsinin vacibliyini vurğulayıblar.

Tədbir işini panel iclaslarla davam etdirib.

*

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a hazırlıq məqsədilə keçirilən “COP29-a aparan yol: Dayanıqlı və davamlı gələcək” mövzusunda yüksək səviyyəli 29-cu toplantının ilk gününün birinci panel iclası “Çağırışın statusunun icmalı” mövzusuna həsr olunub.

Bosniya və Herseqovinanın sabiq Baş naziri və xarici işlər naziri Zlatko Laqumdziyanın moderatorluğu ilə keçirilən müzakirələrdə çıxış edən COP29-un baş danışıqçısı, Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev COP29 komandasının iyul ayında yeni beynəlxalq tədbir təşkil edəcəyini diqqətə çatdırıb. O deyib ki, iqlim dəyişikliyi ilə mübarizə məsələlərini müzakirə etmək üçün tərəfləri daha qeyri-rəsmi şəraitdə bir araya gətirmək üçün bu vacibdir.

Dünyadakı icmaların iqlim dəyişikliyinin təsirindən əziyyət çəkməkdə davam etdiklərini söyləyən baş danışıqçı beynəlxalq ictimaiyyətin havanın temperaturunun yüksəlməsinin 1,5 Selsi dərəcədə saxlanılması ilə bağlı Paris sazişindən irəli gələn öhdəlikləri yerinə yetirmədiyini vurğulayıb.

İqlim dəyişikliyi ilə mübarizədə maliyyəyə ehtiyac duyulduğunu bildirən Y.Rəfiyev bu maliyyələşmənin təkcə dövlət sektoru ilə məhdudlaşmalı olmadığını deyib, orada özəl sektorun iştirakının da vacibliyinə diqqət çəkib.

Bolqarıstanın sabiq Prezidenti Rosen Plevneliyev Azərbaycanda keçiriləcək COP 29-un uğurlu olacağından əmiliyini ifadə edib. Onun sözlərinə görə, iqlim dəyişikliyi ilə mübarizədə uğur qazanmaq istəyiriksə, fikirlərimizi beynəlxalq tribunalardan və yüksək səviyyədə çatdırmağı bacarmalıyıq. “Azərbaycan gələcək nəsillərə təmiz, yaşıl gələcək təmin etmək üçün çox vacib bir işin öhdəliyini öz üzərinə götürüb”, – deyə o vurğulayıb.

“Əsas məsələ budur ki, hər kəs qlobal istiləşmə problemi ilə bağlı ortaq bir həll yolu tapmalıdır”, – deyən BMT Baş Assambleyasının 77-ci sessiyasının prezidenti Tsaba Körösi əks halda, məsələnin həlli istiqamətində heç bir addım atmağın mümkün olmayacağını diqqətə çatdırıb. Qeyd edib ki, burada və COP29-la bağlı müzakirə olunacaq məsələlər son dərəcə vacibdir. Çünki hazırkı statistik göstəricilər vəziyyətin hansı dərəcədə olduğunu göstərir. Dünyanı dəyişdirmək üçün özümüzdən başlamalıyıq.

*

Toplantının ilk günündə aparılan müzakirələrdən biri də “Balanslaşdırma, azaltma, uyğunlaşma və davamlılıq” mövzusunda olub.

Panel iclasa "Liberal International" təşkilatının prezidenti, Mərakeşin İqlim dəyişikliyi üzrə xüsusi nümayəndəsi, COP21-in vitse-prezidenti Hakima El Haite moderatorluq edib.

COP29-un Təşkilat Komitəsi Katibliyinin rəisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin sektor müdiri Həbib Mikayıllı Bakıda keçiriləcək konfransın iqlim dəyişikliyi ilə mübarizəyə mühüm təsir göstərəcəyini deyib. O qeyd edib ki, COP29-un əsas mövzusu maliyyə məsələləridir. “Maliyyələşdirmə olmadan iqlim dəyişikliyinin mənfi nəticələrini aradan qaldırmaq mümkün deyil. Bu altı ay ərzində bizim COP29 komandamız müxtəlif danışıqlar qruplarına daxil olan ölkələrlə məsləhətləşmələr apararaq onların fikirlərini dinləmək, prioritetlərini, mövqelərini anlamaq üçün dünyanın müxtəlif yerlərinə səfərlər edib və bu səfərlər çox uğurlu olub”, – deyə Prezident Administrasiyasının rəsmisi bildirib.

BMT-nin Məskunlaşma Proqramının sabiq icraçı direktoru Maimuna Mohd Şərif iqlim dəyişikliyinin qarşısının alınması üçün investisiya qoyuluşlarının zəruri olduğunu vurğulayıb. Azərbaycanda keçiriləcək COP29-un əhəmiyyətini qeyd edən M.Şərif deyib: “Daha yaxşı qlobal dəyişiklik üçün biz suallarımıza bu platformada cavab tapa bilirik. Xüsusilə təkrar emalda istifadə etdiyimiz bütün əşyaların iqlim dəyişikliyinə təsiri var. Daha xoşbəxt nəsil üçün təkliflərimiz çoxdur. Bunun üçün sülh mühitinə ehtiyacımız var”.

Çexiyanın sabiq Baş naziri Yan Fişer iqlim dəyişikliyi ilə mübarizədə Azərbaycanın önəmli işlər gördüyünü vurğulayıb. İqlim dəyişikliyi ilə mübarizədə siyasətçilərlə bərabər, elm adamları, tədqiqatçılar, beynəlxalq təşkilatları təmsil edən QHT-lərin rolunu qeyd edən Y.Fişer Azərbaycanda COP29-a yüksək səviyyədə hazırlıq görüldüyünü bildirib. Emissiyaların azaldılmasının vacibliyini vurğulayan qonaq deyib: “Biz bütün elmi araşdırmalarda görürük ki, emissiyaları azaltmaq üçün şirkətlər rəqabətədavamlı iqtisadi yollar axtarır, araşdırmalar aparırlar". Yan Fişer su problemlərinin həll olunmasında özəl və dövlət sektorlarının bir-biri ilə əlaqəli şəkildə əməkdaşlıq etməsinin müsbət nəticə verəcəyindən əminliyini ifadə edib.

COP29-un ilin ən vacib tədbirlərindən olduğunu vurğulayan Xorvatiyanın sabiq Prezidenti İvo Yosipoviç Bakda keçirilən toplantıdan gözləntilərinin çox olduğunu bildirib. “Biz bu tədbir çərçivəsində gələcəyimizi müəyyən edir, planetin üzləşdiyi problemləri müzakirə edirik”, – deyə o diqqətə çatdırıb.

Panel iclas sual-cavab sessiyası ilə başa çatıb.

*

İyunun 19-da “COP29-a aparan yol: Dayanıqlı və davamlı gələcək” mövzusunda yüksək səviyyəli 29-cu toplantının ilk gününün sonuncu panel iclası “İqlim dəyişikliyi və onun su, biomüxtəliflik və ərzaq təhlükəsizliyi ilə əlaqələri” mövzusuna həsr olunub.

İclasda çıxış edən İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyinin sabiq Baş direktoru, iclasın moderatoru Valter Fust iqlim dəyişikliyi ilə mübarizədə ölkələr və beynəlxalq təşkilatlar arasında əlaqələrin, eləcə də medianın təsirinin böyük olduğunu deyib. Bu işdə medianın səfərbər edilməsinin və fəallığının artırılmasının vacibliyinə diqqət çəkən V.Fust bir neçə il əvvəl Davosda Dünya İqtisadi Forumunda ərzaq təhlükəsizliyi ilə bağlı sessiyada çıxışını xatırladıb. Onun sözlərinə görə, həmin iclasda bir çox mütəxəssis belə qənaətə gəlib ki, su probleminə toxunmadan heç vaxt qida təhlükəsizliyindən danışmaq olmaz.

Moldovanın sabiq Baş naziri Kirill Qaburiç bildirib ki, iqlim dəyişikliyinin zərər verdiyi sahələrdən biri də şirin su qaynaqlarının azalmasıdır. Su problemi biomüxtəliflik üçün ciddi təhlükə mənbəyidir. Sağlam planet və sağlam insanlar üçün yeni həll yolları tapılmalıdır. Bu işdə sadəcə dövlətlər deyil, şəxslər də iştirak etməlidirlər.

BMT Baş Assambleyasının 77-ci sessiyasının sədri Caba Korosi istiləşmədən yaranan problemlərin müxtəlif sahələrdə özünü büruzə verdiyini qeyd edib. Qlobal istiləşmə ilə bağlı problemin həllini tapmaq üçün bütün aspektləri nəzərdən keçirməyin vacibliyini söyləyən C.Korosi deyib: “Bakıda keçiriləcək COP29-da sözügedən bütün aspektlərə toxunulacaq, geniş müzakirələr aparılacaq. Düşünürəm ki, insanların informasiyalarının artırılması bu məsələdə bizə kömək edə bilər”.

Qida təhlükəsizliyi üçün qlobal tədqiqat tərəfdaşlığı şirkəti olan CGIAR-ın icraçı direktoru, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının sabiq baş elmi işçisi İsmahane Elouafi qlobal istiləşmə problemini yaradan amillərdən bəhs edərək bildirib ki, bu məsələdə insanların rolu olduqca böyükdür: “Hər kəs anlamalıdır ki, yaşadığımız planet bizimdir və onu qorumalıyıq. Hazırda düşünülən ən dəhşətli məqam bizim sözügedən problemi özümüzdən sonra gələn nəsillərə ötürməyimizdir”.

*

İyunun 20-də “COP29-a aparan yol: Dayanıqlı və davamlı gələcək” mövzusunda yüksək səviyyəli 29-cu toplantının ilk panel iclası “Elm, texnologiya və innovasiyanın rolu” mövzusuna həsr olunub.

Tədbir Monteneqronun sabiq müdafiə naziri Miliça Peyanoviç-Durisiçin moderatorluğu ilə keçirilib.

Miliça Peyanoviç-Durisiç bildirib ki, biz hazırda elm, texnologiya və innovasiyaların inqilabi dəyişikliklərinin yaratdığı inanılmaz zamanda yaşayırıq. Yeni biologiya, İKT və süni intellektin fövqəladə vəziyyətindəki inqilablar, bütün imkanlar artıq əlçatandır. Bütün bunların iqlim dəyişikliyi fonunda gələcək nəsillərə necə çatdırılmasının və ancaq faydalar üçün istifadə etməyin yollarını tapmaq əsas məqsədimizdir.

Qırğızıstanın sabiq Baş naziri Comart Otorbayev Azərbaycanda İKT sektorunun inkişafına xüsusi diqqətin göz önündə olduğunu vurğulayıb. Deyib ki, hazırda Azərbaycan Çin ilə İKT sahəsində çox sıx əməkdaşlıq edir.

C.Otorbayev bildirib ki, ölkəni innovasiyalar məkanına çevirmək üçün İKT sektorunda çalışan mütəxəssislərin kritik kütləsini toplamaq şərtdir. Bu baxımdan COP29-un önəmli platforma olacağını deyən sabiq Baş nazir Azərbaycanın bunun öhdəsindən uğurla gələcəyinə əminliyini ifadə edib.

Rumıniyanın sabiq Baş naziri Petre Roman Xəzər dənizinin suyunun getdikcə azalmasının son illərdə böyük narahatlıq doğurduğunu qeyd edib.

O bildirib ki, Xəzər dənizinin dibində baş verən tektonik hadisələr suyun səviyyəsinin dəyişməsinə təsir göstərən amillərdəndir. Bu gün Xəzərin əsas qida mənbəyi olan Volqa çayının axınında da azalma müşahidə edilir.

COP29-un İqlim üzrə yüksək səviyyəli çempionu, Milli Məclisin deputatı Nigar Arpadarai Azərbaycanın milli və beynəlxalq səviyyədə əməkdaşlığı gücləndirməyə sadiq olduğunu vurğulayıb.

O bildirib ki, COP29-da əsas prioritet iqlim dəyişikliyi problemlərinin həllinə sərmayə cəlb etməkdir.

Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) Nüvə elmləri və tətbiqləri departamentinin koordinatoru Jan-Pyer Kayol isə vurğulayıb: “İnnovasiyaların artırılması iqlim dəyişikliyi ilə bağlı qlobal prosesdə həlledici rol oynayacaq. COP29 çərçivəsində daha çox nüvə təhlükəsizliyi mövzularının olmasını vacib hesab edirəm. Düşünürəm ki, bu sahəyə təkcə dövlət deyil, həmçinin özəl sektor cəlb olunmalıdır. Bu baxımdan COP29-u yaxşı fürsət kimi dəyərləndirmək olar".

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin bu il Həcc ziyarəti zamanı yüksək temperatur səbəbindən yüzlərlə zəvvarın həlak olduğunu xatırladaraq deyib: “Bu, iqlim dəyişikliyinin əsas göstəricilərindən biridir. Biz təkcə 2025–2026-cı illər deyil, uzunmüddətli gələcək naminə iqlim dəyişikliyi problemlərini diqqət mərkəzində saxlamalıyıq”.

O bildirib ki, COP29 bu gün görülmüş və görüləcək işlərin nəzarətdə saxlanılması üçün vacib tədbirdir.

Panel müzakirə sual-cavab sessiyası ilə başa çatıb.

*

İyunun 20-də – “COP29-a aparan yol: Dayanıqlı və davamlı gələcək” mövzusunda yüksək səviyyəli 29-cu toplantının ikinci günündə “Ərzaq və kənd təsərrüfatı sektorunun xüsusi vəziyyəti” mövzusunda panel müzakirələri olub.

Panel iclasının moderatoru – Beynəlxalq Kənd Təsərrüfatı Tədqiqat Mərkəzləri Konsorsiumunun (CGIAR) icraçı direktoru, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının sabiq baş alimi İsmahane Elouafi iqlim dəyişikliyinin qarşısının alınması üçün hər bir sektorda görülə biləcək ən yaxşı işin emissiyaları azaltmaq və fəaliyyətin səmərəliliyini artırmaq olduğunu qeyd edib. Deyib ki, bunun üçün ərzaq və kənd təsərrüfatı sektoru həqiqətən dəyişdirilə bilər.

O bildirib ki, istixana qazlarının aradan qaldırılmasına böyük töhfə verə biləcək fəaliyyət həyata keçirmək və beləliklə, bəşəriyyətin iqlim dəyişikliyi problemini həll etmək üçün irəli sürülən həllərin tərkib hissəsi məhz kənd təsərrüfatı sisteminin səmərəli fəaliyyətidir.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin son illərdə təbii fəlakətlərin aqrar sektora 3 trilyon dollardan çox zərər vurduğunu deyib. Qeyd edib ki, kənd təsərrüfatı istehsalı və ərzaq təhlükəsizliyi, həmçinin iqlim dəyişikliyi, pandemiya, epidemiya və silahlı münaqişələrdən də zərər çəkir.

Azərbaycanın kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova diqqətə çatdırıb ki, ölkəmizin kənd təsərrüfatı sektoru iqlim dəyişikliyi, o cümlədən temperaturun dəyişməsi, yüksəklikdə yağıntıların norması və ekstremal hava hadisələrinin artması ilə bağlı əhəmiyyətli risklərlə üzləşir.

Ölkəmizdə kənd təsərrüfatı sahəsində tərəfdaşlıq sistemi haqqında məlumat verən nazir müavini deyib: “Buna görə də COP29-da ərzaq təhlükəsizliyi və qida məsələləri ilə bağlı bu çağırış bizim üçün vacibdir. Azərbaycanın kənd təsərrüfatı sahəsində məhsuldarlığını, ərzaq təhlükəsizliyini və kənd icmalarının rifahını yaxşılaşdırmaq əsas məqsədidir. Azərbaycanın hazırda bütün dünyada iqlim dəyişikliyi və ətraf mühitin qorunması məsələlərinə sadiqliyini bildirən Prezident İlham Əliyevin 2024-cü ili ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik İli” elan etməsi buna bariz nümunədir”.

İ.Qədimova vurğulayıb ki, hazırda Azərbaycanda kənd təsərrüfatı sahəsində dövlət dəstəyi ilə dronlar, robotlaşdırılmış texnika və elmin ən yeni nailiyyətləri tətbiq olunur. Bu isə ərzaq və qida təhlükəsizliyinə töhfə verir.

Monteneqronun sabiq Prezidenti Filip Vuyanoviç COP29-dan yüksək nəticə gözlədiyini deyib. Bildirib ki, hazırda bütün dünyada meyvə və su problemi var. “Biz bilirik ki, qlobal miqyasda istehsal olunan ərzaq məhsullarının təqribən 40 faizi israf edilir, hər bir ölkədə həddindən artıq ərzaq istehsalı baş verir. Ərzaq çatışmazlığı yoxsul ölkələrdə insanların həyatı və sağlamlığı üçün təhlükəli, ölüm halları doğuran səbəblərdəndir”, – deyə o əlavə edib.

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) sabiq Baş direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Əbdüləziz əl-Tüveycri bütün dünya əhalisinin ərzaq təhlükəsizliyinin təmin olunmasının zəruriliyini vurğulayıb. O, COP29-un da bu istiqamətdə atılan mühüm addım olacağına inandığını bildirib.

COP29-un əhəmiyyətini vurğulayan Əbdüləziz əl-Tüveycri bildirib ki, bu tədbir bütün dünya dövlətlərini aclıq və müharibələrdən əziyyət çəkən ölkələri dəstəkləməyə çağırmaq üçün bir vasitədir. Ərzaq çatışmazlığından əziyyət çəkən ölkələri dəstəkləmək bütün bəşəriyyətin gələcəyinə veriləcək dəstəkdir.

Panel iclası mövzu ətrafında müzakirələrlə yekunlaşıb.

*

“COP29-a aparan yol: Dayanıqlı və davamlı gələcək” mövzusunda yüksək səviyyəli 29-cu toplantının növbəti panel iclasında “İqlim dəyişikliyinə və Davamlı İnkişaf Məqsədlərinə cavabımızın maliyyələşdirilməsi” mövzusunda müzakirələr aparılıb.

Dünya Bankının Şərqi və Cənubi Afrika regionu üzrə sabiq vitse-prezidenti Hafez Qanemin moderatorluğu ilə keçirilən panel iclasda çıxış edən COP29-un baş danışıqçısı, Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev dünyanın inkişaf etmiş ölkələrinin iqlim dəyişikliklərinin maliyyələşdirilməsini qrant layihələri formasında həyata keçirdiklərini bildirib. İnkişaf etmiş ölkələrin iqlim dəyişikliyi zamanı necə hərəkət etdiklərini və bu sahədə maliyyələşdirmənin nə qədər böyük olduğunu görməliyik. BMT-nin yaz sessiyasının iclasları göstərdi ki, orada resurs var. Deməli, maddi vəsait artıq mövcuddur, lakin onu bazarlara çatdırmaq mexanizmi yoxdur.

Y.Rəfiyev qeyd edib ki, sözügedən bu sahədə özəl sektorun da iştirakı çox vacibdir. “Biz təkcə dövlət vəsaitinə güvənməməliyik, çünki söhbət gedən mükafatları, milyardları təkcə dövlət vəsaitlərinin resursları hesabına ödəmək mümkün deyil. Biz mütləq özəl sektoru COP29-a cəlb etməliyik. Bir sıra ölkələrdə iki istiqamətə və potensial investorlara, həmçinin korporativ sosial məsuliyyət portfelinin bir hissəsi kimi korporativ sosial məsuliyyətə ehtiyac duyulur. Digər bir məsələ dövlətlərin ölkə platformaları kimi bəzi təşəbbüslərlə çıxış etmələri, bəzi təşəbbüslər irəli sürmələridir”, – deyə nazir müavini əlavə edib.

COP29-un baş icraçı direktoru Elnur Soltanov deyib ki, bir sıra ölkələr yer üzünü çirkləndirdikləri üçün hələ də inkişaf edirlər. Onların mövcud olan istixana qazlarından istifadə etmək imkanları yoxdur. Bir sıra dövlətlərin mövqeyi isə dünya ictimaiyyətinin gələcəyinə daha çox uyğun gəlir. Çünki onların tutduqları yol hər bir dövlətin milli maraqlarına uyğundur.

Özbəkistanın sabiq xarici işlər naziri Vladimir Norov qeyd edib ki, Avropada (müsəlmanların sayı 44 milyon nəfərdir) və ABŞ-da (müsəlmanların sayı hazırda 3,5 milyon nəfərdir), ümumiyyətlə, dünyada İslam maliyyələşməsi sürətlə genişlənir. 2060-cı ilədək dünyada müsəlmanların sayı 3 trilyon nəfərə çatacaq.

“Son illərdə İslam İnkişaf Bankının maliyyə vəsaiti 4 dəfə artıb. Hazırda İslam İnkişaf Bankının əməliyyat kapitalı 70 milyard dollar təşkil edir”, - deyən sabiq nazir bildirib ki, bu, demək olar məcburi deyil, xeyriyyə təşkilatlarından könüllü şəkildə, fondlara islami ianələrdən yığılan vəsaitdir. Yoxsulluğun aradan qaldırılması üçün İslam sosial maliyyəsinin potensialı çox böyükdür.

“Mən xüsusilə buna diqqət çəkmək istəyirəm. Çünki müsəlman əhalinin sayı dünyada artacaq, 2060-cı ildə dünyada 3 trilyon müsəlman olacaq və buna görə də bizim xüsusi diqqətə ehtiyacımız var. Çünki bu gün müsəlman ölkələrində iqlim böhranı artır”, - deyə o qeyd edib.

Tədbir müzakirələrlə davam edib.

*

“COP29-a aparan yol: Dayanıqlı və davamlı gələcək” mövzusunda yüksək səviyyəli 29-cu toplantının ikinci gününün sonuncu – 4-cü panel iclası “Eyni planet, eyni sağlamlıq: davamlı gələcək üçün birləşmək” mövzusunda olub.

İclasın moderatoru – Serbiyanın sabiq Prezidenti Boris Tadiç bildirib ki, sağlamlıq və iqlim dəyişikliyinin kəsişməsi dövrümüzün ən kritik çağırışlarıdır. İqlim dəyişikliyi mövcud sağlamlıq təhdidlərini gücləndirir və yeni risklər yaradaraq ən həssas əhaliyə qeyri-mütənasib şəkildə təsir göstərir.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəsi Hande Harmancı qeyd edib ki, insanın fiziki vəziyyəti yaxşı olanda xəstəlikdən danışmır. Beləliklə, bütün inkişaf səylərində sağlamlıq bir nömrəli prioritet olmalıdır. COVID-19 bunu bizə çox yaxşı öyrətdi. COVID-19 bizə elə böyük sarsıntı yaşatdı ki, bu, bizdə çox primitiv bir amili - yaşamaq instinktini işə saldı.

“Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, COVID-19 bizə təxminən 14 trilyon dollara başa gəlib. Təkcə karantin xərcləri qlobal ÜDM-in 9 faizini təşkil edirdi. Biz etimad institutlarının itirilməsinin hələ də davam edən ictimai iğtişaşların və çoxtərəfli qərarların qəbuluna təsirlərinin dəyərini hesablaya bilmirik.

İndi biz COP29 adlı başqa bir çoxtərəfli qərar qəbuletmə prosesinə hazırlaşırıq. Söhbət, şübhəsiz ki, ekzistensial problemdən, iqlim dəyişikliyindən gedir. Amma bu dəfə qaçıb qapıları bağlamağa yer yoxdur”, – deyə o vurğulayıb.

Sloveniyanın sabiq Baş naziri Borut Pahor deyib ki, COP29-un ən güclü dəstək ola biləcəyi istiqamət vahid sağlamlıq yanaşması olar. Düşünürəm ki, biz COVID-19 böhranı zamanı beynəlxalq əməkdaşlığın son dərəcə vacib olduğunu gördük.

Qeyd edək ki, işini iyunun 21-də yekunlaşdıracaq tədbirin panel müzakirələrindən ikisi Zəngilan rayonunda təşkil olunacaq.

**XQ**

# Baş nazir və Milli Məclisin Sədri ulu öndər Heydər Əliyevin Fəxri xiyabanda məzarını ziyarət ediblər



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və Milli Məclisin Sədri Sahibə Qafarova 15 İyun – Milli Qurtuluş Günü münasibətilə Fəxri xiyabanı ziyarət ediblər.**

Ziyarət zamanı müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsi ehtiramla yad olunub.

***AZƏRTAC***

# Azərbaycan XİN xəbər verir

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidan arasında telefon danışığı olub.**







XİN-dən XQ-yə bildirilib ki, nazirlər iki ölkə arasında ikitərəfli müttəfiqlik münasibətlərinin müxtəlif aspektləri üzrə görülən işləri müzakirə ediblər. Bununla yanaşı, Türk Dövlətləri Təşkilatının (TDT) Şuşada keçiriləcək qeyri-rəsmi Zirvə görüşünə hazırlıq məsələləri nəzərdən keçirilib.

Telefon danışığı zamanı qarşılıqlı maraq doğuran ikitərəfli məsələlər, eləcə də regional vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

***

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Pakistan İslam Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd İshaq Dar ilə də telefonla danışıb.**

Nazirlər iki dost və qardaş ölkə arasında mövcud olan strateji əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirərək, bir çox istiqamətlərdə əməkdaşlığın daha da dərinləşməsinin zəruri olduğunu vurğulayıblar. İki ölkə liderləri arasında yüksək səviyyəli razılıqlar və tapşırıqların davamı olaraq, nazir Ceyhun Bayramovun ötən ayın sonunda Pakistana rəsmi səfərinin nəticələri və əldə olunmuş razılıqların icrası məsələləri, o cümlədən gələcək planlar da müzakirə edilib.

Telefon danışığı zamanı qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Avropa İttifaqı–Azərbaycan Təhlükəsizlik Dialoqunda növbəti müzakirə

**Avropa İttifaqı Aİ–Azərbaycan Təhlükəsizlik Dialoqunun 5-ci raundu ilə bağlı tərəflərin birgə bəyanatını yayıb. Bu barədə Azərbaycan XİN-in məlumatında bildirilir.**



Avropa Xarici Fəaliyyət Xidmətinin saytında dərc olunmuş sənəddə deyilir ki, iştirakçılar Aİ ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin vəziyyəti, eləcə də qarşılıqlı maraq doğuran aktual xarici və təhlükəsizlik siyasəti məsələləri ətrafında açıq və səmimi fikir mübadiləsi aparıblar: “Tərəflər Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşması prosesinə, eləcə də daha geniş regional təhlükəsizlik məsələlərinə də toxunublar. Bu kontekstdə regional sabitliyin və davamlı əlaqənin gücləndirilməsinin vacibliyi diqqətə çatdırılıb”.

Bəyanatda daha sonra Aİ-nin regionda yaşayan bütün insanların rifahı naminə təhlükəsiz, sabit, dinc və firavan Cənubi Qafqaz üçün sülh prosesinə davamlı dəstəyinə diqqət yetirilib. Azərbaycanın etibarlı və mühüm enerji tərəfdaşı kimi rolu və Orta Dəhlizin gələcək inkişafında əhəmiyyəti vurğulanıb: “Aİ-nin Azərbaycanda humanitar minatəmizləmə və mina qurbanlarına yardıma göstərdiyi dəstək yüksək qiymətləndirilib. Bildirilib ki, Aİ-nin “Team Europe” təşəbbüsü və digər proqramlar çərçivəsində Azərbaycanın minalarla mübarizə proqramına yardımları gələcəkdə davam etdiriləcək. Azərbaycan tərəfi həmçinin Avropa Sülh Fondu (AƏF) çərçivəsində Aİ ilə mümkün əməkdaşlığın araşdırılmasında maraqlı olduğunu bir daha bəyan edib”.

Sənədə əsasən, görüşün yekununda Aİ və Azərbaycan xarici və təhlükəsizlik siyasəti məsələləri üzrə müntəzəm mübadilələri davam etdirmək barədə razılığa gəliblər. Aİ–Azərbaycan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi çərçivəsində ikitərəfli əməkdaşlığın bütün müvafiq istiqamətləri üzrə mənalı işin vacibliyi də vurğulanıb.

İclasa Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Avropa Xarici Fəaliyyət Xidmətinin baş katibinin siyasi məsələlər üzrə müavini Enrique Mora həmsədrlik ediblər.

***XQ***

# Fransa Bakı Təşəbbüs Qrupunun BMT konfransına maneçilik törədir

**Bakı Təşəbbüs Qrupu iyunun 20-də BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında müstəmləkəçiliyə qarşı mübarizəyə dair keçiriləcək konfransdan əvvəl iştirakçılar və media nümayəndələri üçün məlumatlandırma sessiyası təşkil olunub.**



Bakı Təşəbbüs Qrupunun şöbə müdiri Elgün Hacıyev “Müstəqilliyə və Fundamental Azadlıqlara doğru: Müstəmləkəçiliyə son qoyulmasında C24 Komitəsinin rolu” adlı konfransda Fransanın və Niderlandın müstəmləkə altında saxladığı ərazilərdən nümayəndələr, habelə 40-dan artıq rəsmi şəxs, müstəqillik hərəkatlarının rəhbər şəxsləri, dekolonizasiya üzrə ekspertlər, deputatlar və tədqiqatçılar iştirak edəcəklərini bildirib. Konfransın təşkilində məqsəd neokolonializmdən əziyyət çəkən xalqların ədalətli mübarizəsini dəstəkləmək, bu sahədə beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində onlara dəstək nümayiş etdirməkdir.

Elgün Hacıyev dəvət olunmuş bəzi şəxslərin tədbirə qatıla bilməyəcəklərini də deyib: “Bunun səbəbi Fransa hökumətinin əsas göstərmədən onları öz hava limanlarından buraxmamasıdır. Biz hesab edirik ki, bu, təzyiq vasitəsidir. Lakin onların buraxılmaması bizim mübarizəmizə heç bir mənfi təsir göstərməyəcək. Biz hər zaman müstəmləkələrin ədalətli mübarizəsini dəstəkləyirik”.

Sonra tədbir iştirakçıları təmsil etdikləri ərazilərin üzləşdiyi problemlər, o cümlədən kolonial ölkə tərəfindən insan hüquqlarının pozulması, yeni müstəmləkəçilik meyilləri barədə məlumat verib, sözügedən konfransın öz səslərini dünyaya çatdırmaq üçün çox vacib platforma rolu oynayacağını qeyd ediblər. Yeni Kaledoniyanın xarici işlər naziri Mikael Forrest son bir ay ərzində Fransa hökumətinin addımlarına görə Yeni Kaledoniyanın çox çətin günlər yaşadığını deyib. Braziliya Universitetinin dayanıqlı inkişaf və dekolonizasiya üzrə professoru Luis Felippe isə Yeni Kaledoniyada baş verənlərin zorakılıq olduğunu bildirib. “Bonayre” insan haqları təşkilatının vitse-prezidenti Ceyms Finies bonayr xalqının çox çətin dönəmdən keçdiyini deyib.

Xatırladaq ki, konfrans BMT-nin Müstəmləkə altında olan ölkələr və xalqlara müstəqillik verilməsi haqqında Bəyannamənin icrası ilə bağlı yaradılmış xüsusi Komitə – C24-ün illik iclası çərçivəsində təşkil edilib.

***XQ***

**Milli Məclisdə**

# “Sağlam ailə modeli və nikah hüququ” mövzusunda ictimai dinləmə



**Dünən Milli Məclisin Ailə, qadın və uşaq məsələləri və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin “Sağlam ailə modeli və nikah hüququ” mövzusunda birgə ictimai dinləməsi keçirilib.**

Müzakirəni giriş sözü ilə açan Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova erkən nikahların, qohum evliliklərinin hazırda aktual məsələlərdən olduğunu qeyd edib. Diqqətə çatdırılıb ki, məsələyə dair parlamentə qanun layihəsi daxil olub və komitə iclasında geniş müzakirə edilib.

Komitə sədri daxil olan qanun layihəsində nikah yaşının bir ildən çox olmayaraq azaldılması halının aradan qaldırılması ilə bağlı dəyişikliyin təklif olunduğunu, yetkinlik yaşına çatmayanla qeyri-rəsmi nikaha daxil olan şəxs və buna şərait yaradan valideynlər barəsində İnzibati Xətalar Məcəlləsində və Cinayət Məcəlləsində məsuliyyətin nəzərdə tutulduğunu deyib. Hicran Hüseynova 2011-ci ildə Milli Məclisin deputatı olarkən Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Ailə, həm də Cinayət Məcəlləsinə edilən dəyişikliklərin müsbət nəticələr verdiyini diqqətə çatdırıb. Qanunvericiliyə edilən son dəyişikliklər də ölkəmizdə ailə institutunun gücləndirilməsinə, sağlam ailə modelinin, düzgün ailə münasibətlərinin qurulmasına öz töhfəsini verəcək.

Sonra parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişikliklərin mahiyyəti barədə danışıb. Dinləmədə deputatlar, aidiyyəti qurumların, həmçinin QHT-lərin nümayəndələri və digər rəsmi şəxslər çıxış edərək qohum nikahların fəsadlarından, milli genofonda vurduğu ziyanlardan qanunvericiliyin sərtləşdirilməsinin əhəmiyyətini, bu sahədə həyata keçirilən dövlət siyasəti ilə bağlı fikirlərini bölüşüblər.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# Qoşulmama Hərəkatı Gənclər Təşkilatının Bakı İqlim Forumu

**İyunun 20-də Bakıda Qoşulmama Hərəkatı Gənclər Təşkilatının (QHGT) təşkil etdiyi QHGT İqlim Fəaliyyəti Forumunun açılış mərasimi olub.**



Məclisdə COP29-un İqlim üzrə gənclər çempionu, QHGT-nin sədri Leyla Həsənova gənclərin qlobal problemlərin həllində iştirak etmələrinin son dərəcə vacib olduğunu bildirib: “Bu gün biz iqlim dəyişikliyi ilə bağlı yeni normanı modelləşdiririk. Biz başa düşürük ki, bu mübarizə bütün səviyyələrin, o cümlədən gənclərin və uşaqların iştirakını tələb edir”.

QHGT-nin son dövrlərdə fəaliyyətini və tədbirin loqo konsepsiyasını əks etdirən videoçarxın nümayişindən sonra COP29-un prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev dünyanın gələcəyi olan gənc liderlərin dinamik və yaradıcı qüvvəsinin beynəlxalq iqlim danışıqlarında mühüm rol oynadığını bildirib. Nazir gənclərin iqlim fəaliyyətində iştirakının vacibliyini vurğulayıb. Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov gəncləri tədbirdə fəal iştirak etməyə çağırıb, bütün iştirakçılara uğurlar arzulayıb.

COP29-un baş danışıqçısı, Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev Qoşulmama Hərəkatına üzv dövlətlərin gənclərinin iqlim dəyişikliyi və ətraf mühitin davamlılığı məsələlərinə yönəlmiş müzakirələrə cəlb olunmalarının önəmindən bəhs edib. O, 121 ölkənin gənclərini birləşdirən ən böyük beynəlxalq gənclər təşkilatı olan QHGT platformasının gənclərin iqlim fəaliyyətinə cəlb edilməsinin əhəmiyyətini vurğulayıb.

Sonda xatirə fotosu çəkilib.

***

Açılış mərasimindən sonra tədbir “Boşluqların doldurulması: iqlim dəyişikliyinə uyğunlaşma və dayanıqlılıq tədbirlərində gənclərin mənalı iştirakının genişləndirilməsi” mövzusuna həsr olunmuş panel müzakirələrlə davam edib. QHGT-nin protokol və tədbirlərin təşkili üzrə meneceri Nəzrin Qasımovanın moderatorluğu ilə keçirilən tədbirdə çıxış edən ADA Universitetinin prorektoru Fariz İsmayılzadə iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün ali təhsil ocaqlarında elmi araşdırmaların aparılmasının vacibliyini bildirib.

BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreyeva bildirib ki, COP29 gənclərin səsini eşitmək üçün gözəl fürsətdir. COP29-un adaptasiya, itki və zərər üzrə aparıcı danışıqçısı Elvin Əşrəfzadə gənclərin iqlimlə bağlı danışıqlara cəlb olunmalarına böyük əhəmiyyət verildiyini diqqətə çatdırıb.

Panel iclası müzakirələrlə davam edib.

Bakı və Şamaxı şəhərlərində 5 gün davam edəcək foruma QHGT-nin bir sıra Milli Bölmələrinin nümayəndələri, yerli və əcnəbi gənclər, həmçinin dövlət qurumları və beynəlxalq təşkilatların nümayəndələri kimi yüksək səviyyəli qonaqlar və ekspertlər qoşulublar.

***XQ***

# Azərbaycan–İtaliya hərbi-texniki əməkdaşlığı

**Azərbaycanın müdafiə nazirinin müavini - Baş direktor Aqil Qurbanov İtaliya Respublikasına səfərə gedib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən XQ-yə verilən məlumatda bildirilir ki, A.Qurbanov Romada İtaliyanın müdafiə naziri Quido Krosetto ilə görüşüb.

Azərbaycan və İtaliya arasında münasibətlərin strateji tərəfdaşlığa əsaslandığı qeyd olunan görüşdə hərbi, hərbi-texniki sahələrdə əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib.

Görüşdə birgə layihələr, eləcə də bir sıra digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

***XQ***

# Media müsabiqəsi başa çatıb







**Medianın İnkişafı Agentliyi onlayn (veb-saytların) və çap media subyektlərinin inkişafı, iqtisadi müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, habelə dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsi məqsədilə təşkil edilən müsabiqənin nəticələrini açıqlayıb.**

Bu barədə agentliyin məlumatında bildirilib.

***XQ***

# Azərbaycan dayanıqlı inkişaf mövqeyini möhkəmləndirir

## *Bu ilin 5 ayında ölkədə 48 milyard manatlıq ÜDM istehsal olunub*

**Bu ilin ilk 5 ayı ərzində həyata keçirilən uzaqgörən siyasət, aparılan mütərəqqi islahatlar nəticəsində uğurlu nəticələr, yüksək inkişaf göstəriciləri əldə edilib. Bununla da sosial-iqtisadi nailiyyətlərin davamlılığı və dayanıqlı tərəqqi üçün etibarlı zəmin yaradılıb.**




Belə bir vəziyyət onu göstərir ki, dünyada yaşanan siyasi-iqtisadi böhran şəraitində belə Prezident İlham Əliyevin çevik, praqmatik siyasətii Azərbaycanı xarici iqtisadi təsirlərdən qoruyub, nəzərdə tutulan bütün sosial-iqtisadi proqramların tam icrasını, iqtisadiyyatın artmasını şərtləndirib. Bütün bunlara nail olunmasında isə təbii ki, iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın minimuma endirilməsi, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi tədbirləri xüsusi önəm kəsb edib.

Beləliklə, Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2024-cü ilin yanvar-may aylarında ölkədə 48 milyard manatlıq və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 4,2 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal edilib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə iqtisadiyyatın qeyri-neft-qaz sektorunda əlavə dəyər istehsalı 7,3 faiz yüksəlib, neft-qaz sektorunda isə eyni səviyyədə qalıb.

2023-cü ilin yanvar-may ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 3,1 faiz, o cümlədən heyvandarlıq məhsulları istehsalı 1,7 faiz, bitkiçilik məhsulları istehsalı 7,4 faiz artıb. Ötən 5 ayda diri çəkidə 231 min ton ət, 915 min ton süd, 983 milyon ədəd yumurta, 11,4 min ton yun istehsal olunub. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,7 faiz, süd istehsalı 0,6 faiz, yumurta istehsalı 7,1 faiz çoxalıb.

Komitənin məlumatına görə, iyun ayının 1-nə kimi tarlalardan 89 min ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 8,5 faiz çox taxıl, 429,4 min ton (11,5 faiz çox) tərəvəz, 33,6 min ton (14,2 faiz çox) meyvə və giləmeyvə yığılıb.

Hesabat dövründə respublikada əsas kapitala 6 milyard 641 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11 faiz çox investisiya yönəldilib. Neft-qaz sektoruna yatırılan investisiyaların həcmi 9,2 faiz, qeyri-neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi isə 12,1 faiz çoxalıb.

Qeyd edək ki, bu nəticələrə nail olmaq üçün dövlət tərəfindən ardıcıl olaraq dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, dövlət tənzimləməsinin, o cümlədən inzibati qayda və prosedurların təkmilləşdirilməsi, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin və süni maneələrin aradan qaldırılması, sahibkarlara dövlət dəstəyi və təşviq mexanizmlərinin formalaşdırılması, ən yüksək beynəlxalq standartlara uyğun olaraq elektron dövlət xidmətləri göstərilməsi sahələrini əhatə edən kompleks tədbirlər həyata keçirilib.

Ölkədə daxili investisiya qoyuluşu ilə bağlı yüksək göstəricinin əldə edilməsi demək olar ki, innovativ yanaşmaların tətbiqi ilə investisiya cəlbediciliyinin artırılmasının diqqətdə saxlanılmasından irəli gəlir. Bununla bərabər, ölkədə davamlı makroiqtisadi və maliyyə sabitliyi də investisiya fəallığını sürətləndirir. Sağlam və şəffaf biznes mühitinin yaradılması isə respublikaya yüksək texnologiya və bilik gətirən birbaşa xarici investisiyaların axınını stimullaşdırır. Bu strateji istiqamətin önəmi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də və bir sıra dövlət proqramlarında vurğulanır, biznesin fəaliyyətinin beynəlxalq normalar əsasında formalaşması, həmçinin özəl sektorun inkişaf tempinin yüksəldilməsi məqsədilə yeni stimulların tətbiqi, iqtisadi islahatların davam etdirilməsinin zəruriliyi göstərilir.

İlin ilk 5 ayında iqtisadiyyatın digər sahələrində də müsbət göstəricilər əldə edilib. Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 5 ayda 94 milyon ton yük və 803 milyon sərnişin daşınıb. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 3,4 faiz, sərnişin daşınması isə 8,1 faiz artıb.

Belə müsbət göstəricilərin əldə edilməsi təsadüfi deyil. Çünki son illər ərzində ölkəmizdə nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı irimiqyaslı layihələr həyata keçirilib, bu sahəyə böyük həcmli dövlət investisiyaları yönəldilib. Avtomobil yollarının və dəmir yolu xətlərinin, xüsusilə Gürcüstan, Rusiya və İran istiqamətində ölkə ərazisindən keçən magistral yolların beynəlxalq standartlar əsasında yenidən qurulması, Bakıda və regionlarda beynəlxalq hava limanlarının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində gerçəkləşdirilən layihələr Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynamaqla yanaşı, ölkəmizin tranzit potensialını daha da gücləndirib.

2024-cü ilin yanvar-may aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 21,5 milyard manatlıq, o cümlədən 12 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 9,4 milyard manatlıq qeyri-ərzaq malları satılıb. 2023-cü ilin yanvar-may ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,3 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 1,8 faiz, qeyri-ərzaq malları üzrə 5,2 faiz çoxalıb.

Hesabat dövründə istehlakçıların pərakəndə ticarət şəbəkəsində xərclədiyi vəsaitin 56,3 faizi ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, 13,1 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,8 faizi avtomobil benzini və dizel yanacağının, 4,5 faizi elektrik malları və mebellərin, 2,4 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 1,3 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 16,6 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunub.

Dövlət Gömrük Komitəsinin müvafiq statistikasına əsasən, 2024-cü ilin yanvar-may aylarında Azərbaycanın xarici ticarət dövriyyəsi 18 milyard 440 milyon dollar təşkil edib. Bu, 2023-ci ilin eyni dövrü ilə müqayisədə 19,6 faiz azdır. Xarici ticarət dövriyyəsindəki azalma tamamilə ixracdakı azalmadan qaynaqlanır. Belə ki, 5 ayda Azərbaycanın ixracı 11 milyard 139 milyon ABŞ dolları təşkil edib ki, bu da illik ifadədə 31 faiz azalma deməkdir. İdxal isə əksinə, 6,7 faiz artaraq 7 milyard 302 milyona ABŞ dollarına çatıb. Nəticədə ölkənin xarici ticarət dövriyyəsindəki müsbət saldo 3 milyard 839 milyon dollara düşüb ki, bu da 2023-ci ilin 5 ayına nəzərən 2,4 dəfə azdır.

Qeyri-neft ixracında artımla qeydə alınan məhsullar sırasında pambıq lifi xüsusi yer tutur. Ötənilki 50,4 milyon dollara qarşı bu il ixrac 100,2 milyon dollara çatıb. Bundan əlavə, alma, xurma ixracında da artım var.

İxracında ciddi artım olan digər qeyri-neft məhsulu pomidordur. 2024-cü ilin yanvar-may aylarında Azərbaycandan 108 milyon 587 min dollar dəyərində 86 min 67 ton pomidor ixrac olunub. Pomidor ixracı ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsilə 17 milyon 115 min dollar və ya 19 faiz, miqdar ifadəsilə 7 min 991 ton və ya 10 faiz artıb. Yeri gəlmişkən, keçən ilin ilk 5 ayında isə Azərbaycandan 91 milyon 472 min dollar dəyərində 78 min 76 ton pomidor ixrac olunmuşdu. Bu məhsulun ixracdakı artımının əsas səbəbi əsas ixrac bazarı olan Rusiyada iyunun sonunadək bir sıra pomidor növlərinin idxalının rüsumlardan azad olunmasıdır. Azərbaycanın Rusiyaya ixrac etdiyi pomidor bu güzəştə düşən növlərdir.

# Xəzərdən Avropaya mötəbər qaz axını

**(əvvəli 1-ci səhifədə)**

Bu arada, Avropa Komissiyasının 2023-cü ilin son rübü ilə bağlı dərc etdiyi hesabatda ölkəmizin ötən il "köhnə qitə"yə ixrac etdiyi təbii qazın həcmi açıqlanıb. Bildirilib ki, il ərzində Azərbaycandan Avropa İttifaqına (Aİ) 11,8 milyard kubmetr "mavi yanacaq" ixrac edilib. Bununla da, ölkəmizin Aİ-nin təbii qaz idxalındakı payı 2021-ci ildəki 3 faizdən 7 faizə yüksəlib. Xatırladaq ki, 2020-ci ilin son günündə istismara buraxılmış Trans-Adriatik Boru Kəməri (TAP) ilə bir il sonra 8 milyard kubmetr təbii qaz ixrac olunub. Bütövlükdə isə, 2023-cü ildə Azərbaycan xaricə 23,8 milyard kubmetr təbii qaz satıb ki, bu da əvvəlki illə müqayisədə 5,3 faiz çoxdur. Ötən il, həmçinin Türkiyəyə 9,5 milyard kubmetr, Gürcüstana isə 2,5 milyard kubmetr qaz satılıb. İl ərzində Trans Anadolu Boru Kəməri ilə 5,6 milyard kubmetr qaz nəql olunub.



Azərbaycan qaz ixracını bu ilin ötən dövründə də ahəngdar şəkildə davam etdirib. Energetika Nazirliyinin məlumatına görə, yanvar-may aylarında Avropaya 5,3 milyard kubmetr, Türkiyəyə 4,1 milyard kubmetr, Gürcüstana isə 1,2 milyard kubmetr qaz ixrac olunub. Hesabat dövründə TANAP-la Türkiyəyə 2,3 milyard kubmetr qaz nəql edilib. Bu ilin 5 ayı ərzində xaricə qaz satışı ötən ilin müvafiq dövrü ilə müqayisədə, təqribən, 3,4 faiz artıb.

Avropa Komissiyasının sözügedən hesabatına əsasən, 2023-cü ildə Aİ-nin təbii qaz idxalı 290 milyard kubmetr, istehlakı isə 330 milyard kubmetr təşkil edib. Bu isə əvvəlki illə müqayisədə müvafiq olaraq 13,4 faiz və 7,3 faiz azalıb. Hesabatda qeyd olunur ki, Avropa İttifaqı 2023-cü ildə əsas qaz təchizatçısı olan Rusiyadan idxalı 3,5 dəfə azaldaraq 150 milyard kubmetrdən 43 milyard kubmetrə endirib. Yeri gəlmişkən, bu həcmi həm "Qazprom" şirkəti, həm də Ukraynadakı operator – "Operator GTS Ukraine" təsdiqləyib. Bu ölkədən təbii qaz alışının azalmasına isə, heç şübhəsiz, Rusiya–Ukrayna müharibəsi ilə əlaqədar tətbiq edilən sanksiyalar və mövsümi temperaturun normadan çox olması səbəb olub.

Bununla yanaşı, ötən il Avropa İttifaqı üzrə qaz hasilatı əvvəlki illə müqayisədə 19,1 faiz azalaraq 38 milyard kubmetrə enib və istehlakda payı 11 faiz təşkil edib. Avropa İttifaqı məkanına daxil olan ölkələr arasında ən böyük təbii qaz istehsalçıları isə Niderland (12 milyard kubmetr) və Rumıniya (9,3 milyard kubmetr) olub. Bir məqamı da qeyd edək ki, 2023-cü ildə Aİ-də yeraltı anbarların təbii qaz ehtiyatları ilə doluluq səviyyəsi əvvəlki illə müqayisədə 18 faiz bəndi artaraq 79 faizə çatıb. Müqayisə üçün bildirək ki, 2021-ci ildə bu göstərici 49 faiz təşkil edib. Hazırda Avropa birjasında təbii qazın min kubmetri, təxminən, 380 ABŞ dollarına satılır.

Məlum olduğu kimi, hazırda 8 ölkə Azərbaycandan qaz alır. Prezident İlham Əliyev iyunun 4-də Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu "Caspian Oil&Gas" və 12-ci "Caspian Power" sərgilərinin açılışında çıxışında qeyd etdiyi kimi, Azərbaycan qaz təchizatında etibarlı tərəfdaş olduğunu bir çox ölkələrə sübut edib. Bir neçə ay bundan öncə keçirilmiş Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının toplantısında Avropa Komissiyasının Azərbaycanı ümum-Avropa qaz təchizatçısı adlandırdığını xatırladan dövlətimizin başçısı bunun həqiqət olduğunu vurğulayıb. Hazırda Avropada Azərbaycan qazına tələbatın yüksək olduğunu xatırladan Prezident İlham Əliyev deyib: "Qaz təchizatımızın coğrafiyası, əlbəttə ki, artacaq. Hazırda öz enerji təhlükəsizliyini təmin etmək üçün Azərbaycan təbii qazına ehtiyacı olan bir neçə əlavə ölkə ilə danışıqların aktiv fazası gedir. Dəfələrlə dediyimiz kimi, enerji təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz hissəsidir. İdxaldan asılı olan ölkələr, əlbəttə ki, ən etibarlı və uzunmüddətli tərəfdaşlar və müqavilələr axtarır. Onlar Azərbaycanın simasında məhz bunu əldə edirlər. Bizim sözümüz imzamız qədər dəyərlidir. Son 30 il ərzində imzalanmış bütün müqavilələr tam şəkildə icra olunub. Onların hamısı parlament tərəfindən ratifikasiya olunub və qanun şəklində imzalanıb. Orada bir söz belə dəyişilməyib. Bu etibar onilliklər ərzində qazanılıb".

Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün isə imkanlar olduqca böyükdür. İlk növbədə, ölkəmizin qaz ehtiyatları ilə zənginliyi buna geniş imkanlar yaradır. Belə ki, mütəxəssislər Azərbaycanın təsdiq olunmuş qaz ehtiyatlarını 2,6 milyard kubmetr səviyyəsində qiymətləndirirlər. Digər tərəfdən isə, Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlıq üçün geniş etibarlı hüquqi baza mövcuddur. Məlum olduğu kimi, 2 il əvvəl, 2022-ci ilin yayında Azərbaycanla Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen tərəfindən imzalanmış sözügedən sənəd Azərbaycandan Avropa İttifaqına təbii qaz nəqlinin artırılmasını nəzərdə tutur. Bunun üçün Cənub Qaz Dəhlizinin illik ötürücülük gücünün 20 milyard kubmetrə çatdırılmalıdır.

Azərbaycan qitənin enerji təhlükəsizliyinə töhfə vermək üçün avropalı tərəfdaşların xahişi ilə hər zaman yardım əlini uzatmağa hazır olduğunu bildirib. Yeri gəlmişkən, Avropa ölkələrinin "yaşıl keçid" kimi xarakterizə etdikləri mədən yanacağından imtina edilməsini nəzərdə tutan proqrama baxmayaraq, uzunmüddətli perspektivdə qazdan və neftdən tam imtina edilməsi gözlənilmir. Bu isə onu deməyə əsas verir ki, Azərbaycanın karbohidrogen ehtiyatları hələ uzun illər Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayacaq.

# "Şahdəniz Alfa"ya "Elios 3" dronla nəzarət edir



**BP şirkəti Xəzər dənizindəki obyektlərində iri çənlərə texniki baxış keçirmək üçün qabaqcıl dron texnologiyasının tətbiqinə başlayıb. Şirkət ilk dəfə olaraq "Şahdəniz Alfa" platformasında boş çənlərə texniki baxış keçirmək məqsədilə "Elios 3" dronlarından istifadə edib. Bu, BP-nin regiondakı əməliyyatlarının təhlükəsizliyi və səmərəliliyinin artırılması üçün tətbiq olunan texnoloji ilklərdən biridir.**

Şirkətdən verilən məlumata görə, sözügedən yeniliyin sürət və etibarlılıq kimi bir sıra əlavə üstünlükləri var. Belə ki, onun sayəsində bu əməliyyata insan müdaxiləsinə ehtiyac qalmır, iş sürətlə və çevik yerinə yetirilir. Əlavə olaraq, bu innovativ texnologiyanın tətbiqi ardıcıl və daha dəqiq texniki baxış məlumatlarının əldə olunmasını təmin etməklə əməliyyat qərarlarının qəbuluna kömək edəcək. "Elios 3" dronları ilə çənlərə texniki baxış keçirmək ənənəvi olaraq bu işə sərf olunan vaxtın çox cüzi bir hissəsinə başa gəlir. Başqa sözlə, insan əməyi ilə dörd həftəyədək vaxt aparan texniki yoxlamanı dronlar faktiki olaraq cəmi 45 dəqiqəyə yerinə yetirir və bu isə əməliyyatlarda maksimum fasiləsizliyə şərait yaradır.

BP şirkəti gələcəkdə Xəzər regionunda həyata keçirdiyi əməliyyatlarında "Elios 3" dronlarından daha geniş miqyasda, münasib və tələblərə uyğun şəkildə qeyri-karbohidrogen maye üçün tutumların və çənlərin vizual texniki baxışı üçün də istifadə etməyi planlaşdırır.

BP-nin hasilat üzrə vitse-prezidenti Elxan Məmmədov deyib: "Bu texnologiya əsas prioritetimiz olan əməyin təhlükəsizliyinin təmin olunmasında ciddi transformativ irəliləyişdir. Daha geniş mənada, dəniz əməliyyatlarında dronlardan istifadə texniki təhlükəsizlik və əməliyyatların mükəmməlliyi baxımından sənayemizdə yeni standart müəyyən edir".

Qeyd edək ki, BP-nin regional əməliyyatlarında çənlərin yoxlanılması və təmizlənməsi üçün texnologiyadan istifadə etdiyi ilk hal deyil. Belə ki, şirkət 2019-cu ildə Səngəçal terminalında xam neft saxlama çənlərinə texniki baxış keçirmək üçün ilk dəfə olaraq sürünən robotlardan istifadəyə başlayıb. Həmin vaxtdan bu innovasiyanın tətbiqi irihəcmli xam neft çənlərinin təmizlənməsində insan əməyini əhəmiyyətli dərəcədə azaltmaqla yanaşı, profilaktik işlərin fasiləsiz aparılmasını və nəticədə, xərclərə xeyli qənaət olunmasını təmin edib.

*Hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Taxıl zəmilərinin 30 faizi biçilib



**Azərbaycanda taxıl biçini davam edir. Kənd Təsərrüfatı Nazirliyində taxıl biçinin təşkili ilə bağlı yaradılmış operativ qərargahın məlumatına görə, artıq payızlıq əkin sahələrinin 30 faizində biçin başa çatıb. Mövsümün əvvəlindən indiyə qədər 303 min 549 hektar sahədə biçin aparılıb. Zəmilərdən, ümumilikdə, 920 min 344 ton məhsul yığılıb. Hazırda taxıl üzrə orta məhsuldarlıq 30,3 sentner təşkil edir.**

Ötən müddətdə ölkə üzrə arpa əkini sahələrinin 58,7 faizində, buğda sahələrinin isə 9,2 faizində biçin başa çatıb. Biçin aparılmış sahələrdə arpa üzrə orta məhsuldarlıq 29,6 sentner, buğda üzrə orta məhsuldarlıq isə 33,7 sentner olub. Hazırda intensiv biçin prosesi, əsasən, Neftçala, Biləsuvar, Göyçay, Kürdəmir, Ucar, Sabirabad, Salyan, Samux rayonları ərazisində aparılır. Artıq Neftçala, Ucar, Biləsuvar və Salyanda taxıl sahələrinin 50 faizindən çoxu biçilib.

Operativ qərargahın məlumatına görə, iyunun 20-dək biçin prosesinə 1572 kombayn cəlb olunub. Bunlardan 626-sı "Aqroservis" ASC-nin, 946-sı isə fiziki və hüquqi şəxslərin mülkiyyətində olan kombaynlardır. Hazırda "Aqroservis" ASC-nin kombaynları dislokasiya planı üzrə ilkin mərhələdə 5 hektaradək olan kiçik sahələrdə biçin aparır. Sosial biçin prosesi növbəlilik prinsipi əsasında həyata keçirilir. Bütövlükdə isə, kütləvi biçin prosesi dövründə zəmilərə 1803 kombaynın buraxılacağı gözlənilir.

Yeri gəlmişkən, may ayında ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçməsi taxıl sahələrinə xeyli ziyan vurub. Aqrar Sığorta Fondunun məlumatına görə, əlverişsiz hava şəraitinin arpa və buğda əkinlərinə vurduğu ziyanla bağlı ölkənin taxılçılıq təsərrüfatlarından quruma çoxsaylı müraciətlər daxil olub. Hazırda aqrar sığorta mütəxəsisləri həmin müraciətlər əsasında təsərrüfatlara baxış keçirir, dəymiş ziyanın həcmini müəyyənləşdirirlər. Kənd təsərrüfatı mütəxəssisi Mirsahib Zəkiyevin verdiyi məlumata görə, ötən ay yağmurlu havaların intensiv şəkildə davam etməsi, həmçinin temperaturun aşağı olması yabanı bitkilərin və alaq otlarının yüksək sürətlə inkişafına münbit şərait yaradır. Əlverişsiz hava şəraitinin mədəni bitkilərin, əsasən də taxılın inkişafını ləngitdiyini vurğulayan mütəxəssis deyib ki, yabanı otların – vələmirin, pişikquyruğu kimi taxılçılığa böyük ziyan vuran alaq otlarının inkişafına səbəb olur. Onun sözlərinə görə, bunun qarşısını almaq üçün erkən yazda taxıl sahələrində alaq otlarına qarşı herbisidlərlə kimyəvi mübarizə tədbirləri həyata keçirilməlidir.

Havaların əlverişsiz keçməsinə baxmayaraq, zəmilərdə məhsul boldur. Bu bolluğun təməli isə əkin mövsümündə qoyulub. Belə ki, əvvəlki dövrlərdə olduğu kimi, bu dəfə də sahələrə kifayət qədər toxum səpilib. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin məhsulu üçün ölkə üzrə 598,3 min hektar sahədə buğda, 417,1 min hektar sahədə isə arpa əkilib. Yeri gəlmişkən, ən çox buğda bitkisi Cəlilabad (56,6 min hektar), Füzuli (32 min hektar) və Şamaxı (29,3 min hektar) rayonlarının payına düşüb. Bununla yanaşı, Hacıqabul, Şəki, İsmayıllı, Ağcabədi və Xocavənd rayonlarında da kifayət qədər səpin aparılıb. Arpa bitkisinə gəldikdə isə, bu siyahıda ilk üçlükdə Kürdəmir (34,5 min hektar), Şəki (34,2 min hektar) və Neftçala rayonları qərarlaşıb. Biləsuvar, Ağsu, Goranboy və Qobustan rayonları üzrə də arpa əkini sahələri xeyli genişləndirilib. Bütövlükdə isə, bu il ölkə üzrə arpa sahələri 4,3 faiz artıb.

Hazırda kənd təsərrüfatı mütəxəssisləri taxıl əkini sahələrini genişləndirməkdənsə, məhsuldarlığın artırılmasına daha çox diqqət yetirilməsinin vacibliyini önə çəkirlər. Təsadüfi deyil ki, Prezident İlham Əliyev də çıxışlarında bu vacib məsələyə dəfələrlə toxunub. Mütəxəssislərin fikrincə, taxıl sahələrinin məhsuldarlığının artırılması üçün subsidiyaların ayrılması, yüksək keyfiyyətli və məhsuldar toxumların gətirilməsi vacib şərtdir. Bununla yanaşı, becərilmənin yaxşılaşdırılması ilə bağlı tələb olunan zəruri tədbirlər də vaxtında görülməlidir.

Son illər Azərbaycanda taxılçılığın inkişafına dövlət dəstəyi getdikcə artılır. Bu dəstəyin mühüm istiqamətlərindən sayılan subsidiya mexanizminin işə düşməsi taxılçılığa marağı ildən-ilə artırır. Məlum olduğu kimi, Aqrar Subsidiya Şurasının qərarına əsasən, "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 iyul 2022-ci il tarixli 1754 nömrəli Fərmanından irəli gələn tapşırığa uyğun olaraq 2024-cü il üzrə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə bağlanmış müqaviləyə əsasən müasir suvarma sistemlərinin tətbiq edildiyi təsərrüfatlarda ərzaqlıq buğda istehsalı ilə bağlı öhdəlik götürmüş şəxslər tərəfindən istehsal olunan və Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilən ərzaqlıq buğdanın hər tonuna görə 100 manat məbləğində məhsul subsidiyası müəyyən edilib.

Yeri gəlmişkən, ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair yaradılmış İşçi Qrupunun bugünlərdə 8-ci iclası keçirilib. Kənd təsərrüfatı naziri Məcnun Məmmədovun sədrlik etdiyi toplantıda Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Kənd Təsərrüfatı, İqtisadiyyat və Maliyyə nazirliklərinin, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Dövlət Su Ehtiyatları, Azərbaycan Respublikasının Dövlət Ehtiyatları agentliklərinin və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin məsul şəxsləri iştirak ediblər.

İclasda ərzaqlıq buğda proqramının 2022–2023 və 2023–2024 təsərrüfat ili çərçivəsində icra vəziyyəti təhlil edilib, pivot suvarma sistemləri qurmaq üçün yeni müraciət etmiş fermerlərin üzləşdikləri çətinliklər, infrastruktur (suvarma suyu və elektrik enerjisi) təminatı, 2024-cü ilin məhsulu üçün ərzaqlıq buğdanın tədarükünün təşkili və ərzaqlıq buğda proqramının icrası ilə bağlı digər məsələlərin müzakirəsi aparılıb və onların həlli istiqamətində qərarlar qəbul edilib.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

## Naxçıvan xəbərləri



### Muxtar respublikada ÜDM istehsalı 2,2 faiz artıb

2024-cü ilin yanvar–may aylarında Naxçıvan Muxtar Respublikasında 535 milyon 488 min 900 manatlıq ümumi daxili məhsul istehsal edilib ki, bu da əvvəlki ilin müvafiq dövründəki göstəricidən 2,2 faiz çoxdur. Bu barədə muxtar respublikanın Dövlət Statistika Komitəsindən məlumat verilib.

Bildirilib ki, hesabat dövrü ərzində əhalinin hər nəfərinə düşən ümumi daxili məhsul istehsalı 1,6 faiz artaraq 1141,8 manat olub.



### Vergi ödəyicilərinin sayı 19,1 faiz çoxalıb

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Naziriyi yanında Dövlət Vergi Xidmətinin məlumatına görə, bu ilin ilk 5 ayında 2926 yeni vergi ödəyicisi qeydiyyata alınıb. Bunların 2790-ı fiziki şəxslər, 136-sı isə hüquqi şəxslər və digər təşkilatlar olub. Ötən ilin eyni dövrü ilə müqayisədə qeydiyyata alınmış vergi ödəyicilərinin sayı 19,1 faiz artıb.

Hesabat dövründə kommersiya qurumlarının 72,3 faizi elektron qaydada, 27,7 faizi isə kağız daşıyıcılar vasitəsilə müraciətlər əsasında uçota alınıb.

### 4 minə yaxın daşınmaz əmlaka çıxarış verilib

Muxtar respublikanın İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti cari ilin yanvar–may ayları ərzində daşınmaz əmlak üzərində 3958 mülkiyyət hüququ qeydiyyata alaraq çıxarışla təmin edib. Bu göstəricinin 1358-i və yaxud 34,3 faizi ilkin, 2600-ü və yaxud 65,7 faizi isə təkrar qeydiyyatın payına düşüb.




İlin ilk 5 ayı ərzində mülkiyyət hüququ qeydiyyata alınan əmlaklardan 1427-si fərdi yaşayış və bağ evi, 701-i mənzil, 1581-i torpaq sahəsi, 65-i qeyri-yaşayış binası, 170-i qeyri-yaşayış sahəsi, 13-ü isə əmlak kompleksidir.

*XQ*

# Təbiətin vurduğu ziyan kompensasiya olunur

**Bu ilin yanvar-may aylarında aqrar sahəyə dəyən zərərlər üzrə Aqrar Sığorta Fonduna müraciətlərin sayı 800-ü keçib. Fonddan verilən məlumata görə, müraciətlərin yarıdan çoxu havaların kəskin dəyişdiyi may ayında qeydə alınıb.**



Müraciətlər əsasən dolu, intensiv yağışlar, sel-subasma, qasırğa kimi hadisələrə aiddir. Ümumilikdə, müraciətlər 40-a yaxın rayondan qəbul edilib. Bunlara Qazax, Şəki, Qobustan, Sabirabad, Kürdəmir, Saatlı, İmişli, Ağcabədi, Ağdam, Ağsu, Balakən, Zaqatala, Qax, Beyləqan, Bərdə, Goranboy, İsmayıllı və s. rayonlar aiddir. Ötən ilin eyni dövründə sığorta hadisələri ilə bağlı müraciətlər, təqribən, 26 rayondan daxil olmuşdu.

Qeyd edək ki, əkin sahəsinə zərərlə bağlı müraciətlər fondun sığorta təminatı verdiyi bitki məhsullarının əksəriyyətini əhatə edir. Belə ki, müraciətlər arpa, buğda, albalı, gilas, xurma, pambıq, fındıq, alça, badam, şaftalı, nektarin, gavalı, armud, tütün, qoz, ərik, günəbaxan, üzüm təsərrüfatlarına dəyən zərərlə bağlıdır. Onu da qeyd edək ki, ötən il ümumi müraciətlərin 80 faizi taxıl bitkiləri ilə bağlı olduğu halda, bu il isə onların yarısı bağçılıq və digər bitkiçilik əkinləri üzrədir.

*XQ*

# Tut yarpağı atlas olur

**Ölkədə yaş barama tədarükü davam edir. İyunun 20-dək kümçülər tərəfindən tədarük məntəqələrinə 230 tondan çox yaş barama təhvil verilib.**



Hər il olduğu kimi, bu dəfə də Zərdab rayonu barama təhvilində birincidir. Belə ki, rayon kümçüləri tədarük məntəqələrinə 40 ton 481 kiloqram yaş barama təhvil veriblər. Məhsul tədarükünə görə Zaqatala (25 ton 226 kiloqram), Ağcabədi (21 ton 585 kiloqram) və Balakən rayonları da öndə gedir.

Xatırladaq ki, ölkədə yaş barama istehsalı dövlət tərəfindən subsidiyalaşdırılır. Kümçülər yaş baramanı kiloqramı 5 manatdan "Azərİpək" MMC-yə təhvil verirlər. Dövlət əlavə olaraq hər kiloqram yaş barama istehsalına görə fermerlərə 6 manat subsidiya ödəyir. Ümumilikdə, fermer təhvil verdiyi hər kiloqram yaş baramanın əvəzində 11 manat alır.

2024-cü ildə dövlət tərəfindən kümçülərə əvəzsiz olaraq 90 min qutu ipəkqurdu toxumu paylanıb. Builki mövsümdə Azərbaycanın 40 rayonunda, o cümlədən, Naxçıvan Muxtar Respublikasında yaş barama tədarükü aparılır.

*XQ*

# İnkişafın və müasirliyin Astara nümunəsi



**Müasir müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasətini uğurla davam etdirərək ölkəmizi bugünkü tərəqqiyə çatdıran möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik rəhbərliyi sayəsində doğma Vətənimiz gündən-günə inkişaf edir, daha da gözəl, abad, yaraşıqlı bir diyara çevrilir.**

Cənab Prezidentin tövsiyə və tapşırıqlarına uyğun olaraq ölkəmizin digər bölgələrində olduğu kimi, Astara rayonunda da son illərdə əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində genişmiqyaslı tədbirlər həyata keçirilir. Dövlət başçısının imzaladığı sərəncamlarla ayrılan vəsaitlər hesabına Astara şəhərində, eləcə də rayonun qəsəbə və kəndlərdə çoxlu tikinti-quruculuq, abadlıq işləri görülüb, yüzlərlə yeni iş yerləri açılıb. Bu quruculuq işləri rayonun hüsnünə misilsiz gözəllik verir.

Bu baxımdan 2023-cü ildə və bu ilin ilk beş ayı ərzində rayonda görülən işlər diqqət çəkir. Belə ki, bu dövr ərzində Astara şəhərində bir neçə çoxmənzilli yaşayış binasının dam örtükləri dəyişdirilib, fasad və blokları təmir olunub. Bununla yanaşı, küçələrin işıqlandırılması və səkilərə tamet düzülməsi işləri davam etdirilib. Ötən müddətdə Diqo kəndində modul tipli ibtidai məktəb binasının inşası başa çatdırılıb, Sərək kənd tam orta məktəbi üçün yeni binanın tikintisinə başlanıb. Bundan əlavə, Heydər Əliyev Fondu tərəfindən Şümrüd kənd tam orta məktəbi üçün yeni binanın tikintisinə hazırlıq görülür.

Əhalinin fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin olunmasından ötrü bir neçə ərazidə istismar müddəti başa çatmış transformatorlar, köhnəlmiş dayaqlar və naqillər yeniləri ilə əvəz edilib. Hazırda Astara şəhərinin böyük bir hissəsində, Suparibağ və Pəlikəş ərazisində yüksək gərginlikli elektrik xətlərinin yenilənməsi, Şiyəkəran, Kakalos, Kolatan, Çayoba, Siyaku, Vaqo, Liəzi və Giləşə kəndlərində SİP kabelləşmə işləri aparılır.

Rayonun kənd təsərrüfatı sahəsindəki nailiyyətləri də ürəkaçandır. Prezident İlham Əliyevin çayçılığın, çəltikçiliyin və sitrusçuluğun inkişafı ilə bağlı imzaladığı sərəncamlardan sonra rayonda yeni innovativ üsullarla sitrus və subtropik meyvə bağlarının salınmasına maraq xeyli artıb. Artıq sitrus meyvə bağlarının sahəsi genişləndirilərək 2600 hektardan 4500 hektara çatdırılıb. Ötən il sitrus bağlarından, ümumilikdə, 62 min ton məhsul yığılıb. Vətəndaşlarımız bu məhsulların satışından, təqribən, 60 milyon manatdan çox qazanc əldə ediblər. Son illər rayonda ekzotik meyvələrin becərilməsinə də maraq artıb. Bunun nəticəsidir ki, Azərbaycanda, ümumiyyətlə, Cənubi Qafqazda ilk dəfə Astarada 42 hektarlıq təsərrüfatda 7 növdən ibarət avokado bağı salınıb. Ötən il 231 hektar çay sahəsindən 710 ton yaşıl çay yarpağı, 235 hektar çəltik sahəsindən isə 970 ton yüksək keyfiyyətli düyü tədarük edilib.

Astara rayonunun yol infrastrukturunun yaxşılaşdırılması, əsasən dağ kəndlərinə avtomobil yollarının çəkilməsi istiqamətində həyata keçirilən tədbirləri xüsusilə vurğulamaq istəyirəm. Ötən müddətdə şəhərdə, həmçinin qəsəbə və kəndlərdə, ümumilikdə, 30 min kvadratmetrə qədər yol asfaltlaşdırılıb. Uzun müddətdir Şiyəkəran kəndində Təngərüdçay üzərindəki qəzalı vəziyyətdə olan avtomobil körpüsü və 15 min nəfərə yaxın əhalinin daimi istifadə etdiyi yolda yerləşən, sel-suları nəticəsində dağılmış Vaqo körpüsü yüksək səviyyədə yenidən tikilərək bu ilin may ayında istifadəyə verilib.

Rayonun dağ kəndlərinin inkişafı cənab Prezident İlham Əliyevin 21 kilometrlik Deqadi–Pəlikəş avtomobil yolunun asfaltlaşdırılması ilə əlaqədar 2013-cü ildə imzaladığı sərəncamla başladı. Bundan sonra Taxtanəkəran–Miki, Taxtanəkəran–Toradi, Kijəbə–Tüləküvan–Təngərüd avtomobil yollarına müasir asfalt örtüyü döşənib. Bunudan əlavə, yüksək dağlıq ərazidə yerləşən Dolu, Şəvqo, Sibiyyət, Diqo, Avyarud, Dürriyə və Şümrüd kəndlərinə avtomobil yolları çəkilib. Hazırda isə 26 kilometrlik Çayoba–Astara magistral avtomobil yolunun əsaslı təmiri və yenidən qurulması yüksək səviyyədə davam edir. Eyni zamanda, sıldırım qayaların qoynunda, çətin relyefdə yerləşən Dolu kəndindən Reqloba kəndinə və Diqoli yaşayış massivinə 5,5 kilometrlik avtomobil yolunun salınması üçün əraziyə ağır texnikalar gətirilərək işlərə başlanıb.

Yeri gəlmişkən, yol olmadığı üçün yığılıb qalan sosial problemləri həll etmək mümkün deyildi. Yollar istifadəyə veriləndən sonra Pəlikəş, Hamoşam və Asxanakəran nümayəndəliklərində 14 ümumtəhsil məktəbi, 2 xəstəxana binası, torpaq sürüşməsi nəticəsində evləri qəzalı vəziyyətə düşmüş Şümrüd kəndinin sakinləri üçün 18 fərdi yaşayış evi tikilərək istifadəyə verilib.

Astaranın emblemınə çevrilmiş park-bulvar kompleksi tikilib istifadəyə veriləndən və ucqar dağ kəndlərinə asfalt yollar çəkiləndən sonra rayona gələn qonaq və turistlərin sayı xeyli artıb. Bulvara yaxın ərazidə və Qamışoba kəndində inşa edilmiş kotteclər, qonaq evləri, hotellər və restoranlarda yüksək səviyyədə xidmət təşkil edilib. Rayonun digər kəndlərində də istirahət mərkəzləri salınıb, iaşə obyektləri inşa edilib və yeniləri tikilməkdədir.

İnsanların xəyallarına gətirmədiyi bu cür möhtəşəm layihələrin reallaşması, ən ucqar kəndlərimizin hərtərəfli, sürətli inkişafı cənab Prezidentin ölkə vətəndaşlarına olan hədsiz diqqət və qayğısının davamlı sübutu, müstəqil Azərbaycanımızın sürətli inkişafının bariz nümunəsidir.

*Mərasim HACIZADƏ*

**Astara**

# Türk dünyasını Koreyada tanıdan türkoloq

***Türk dili ilə kore dilinin çox uzaq zamanlarda eyni kökdən ayrılması Koreya xalqı ilə Türk xalqları arasında tarixi, mədəni, mənəvi-psixoloji bir bağlılıq yaradıb. Təəssüf ki, bu sahə ilə məşğul olan, kore dilini dərindən bilən, Koreya ədəbiyyatını orijinaldan tərcümə edən mütəxəssislərimiz yox dərəcəsindədir. Bu sahədə ilk addımları atan fədakar insanlar böyük hörmət və ehtirama layiqdirlər. Onlardan biri və bəlkə də, birincisi koreyalı türkoloq, professor, xanım Oh Eun-kyungdur. Aşağıda onun haqqında verilən məlumatdan da göründüyü kimi, ömrünü türk xalqları mədəniyyətini Koreyada tanıtdırmağa həsr etmiş bu böyük alim, fədakar və gözəl insan öz araşdırmaları ilə türkologiyaya dəyərli əsərlər qazandırmışdır.***

***Bu günlərdə Koreyanın ingilisdilli mətbuatında Dongduk Qadın Universitetinin professoru Oh Eun-kyung ilə geniş müsahibə dərc edilmişdir. Xanım Oh Eun-kyungun mənə göndərdiyi müsahibəni çevirib oxuculara təqdim edirəm.***

**Sabir RÜSTƏMXANLI,**
**Milli Məclisin deputatı, Xalq şairi**



## Koreya "Türk qurşağı"na ümid və doğmalıqla baxır

## *Xanım Oh Eun-kyungun müsahibəsi*

***Prezident Yoon Seok-yeol 3 Mərkəzi Asiya ölkəsinə səfərə çıxacaq. Səfər ərəfəsində Koreyada ilk "Türk Humanitar Elmlər Ensiklopediyası"nı hazırlayıb nəşr etdirən xanımla görüşdük.***

***Oh Eun-kyung Dongduk Qadın Universitetinin professoru, Avrasiya Türkşünaslıq İnstitutunun direktoru, ingilisdilli "Türkşünaslıq" jurnalının baş redaktoru, Asiya-Sakit Okean bölgəsinin qeyri-maddi mədəni irs mərkəzinin məsləhətçisidir. YUNESKO-nun (2016-2018), Özbəkistan Turan Elmlər Akademiyasının üzvü, Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü, Seul Şəhər Diplomatiya Məsləhət Komitəsinin, Seul Şəhər Multikultural Ekspert Komitəsinin, Koreya Ədliyyə Nazirliyinin Qaçqınlar Komitəsinin müşaviridir.***

***Türkiyənin Ankara şəhərindəki Hacettepe Milli Universitetində türk ədəbiyyatı və müqayisəli ədəbiyyat üzrə fəlsəfə doktoru (1999), həmçinin Özbəkistan Elmlər Akademiyasında elmlər doktoru və professor elmi dərəcəsi almışdır (2014).***

***Bu günə qədər o, türkologiya məsələlərinə dair müxtəlif dillərdə 150-dən çox elmi məqalə və 40 kitab nəşr etdirmişdir. "Türk ədəbiyyatında Koreya savaşı" (türk, ingilis), "XX əsr türk və Koreya ədəbiyyatında qadınlar" (türk, Azərbaycan, ingilis), "Türk və Koreya qəhrəmanlıq dastanlarının müqayisəli təhlili" ( Özbək və rus) adlı elmi araşdırmaları, "İslamda qadın kimi yaşamaq" (Koreya)", "Qadın və çarşablı İslam" (Koreya) əsərləri akademik dünyada xüsusi yayılmışdır.***

***Onun rəhbərliyi altında 21 müəllifin iştirakı ilə Koreya dilində "Türk Humanitar Elmlər Ensiklopediyası" hazırlanmış və nəşr edilmişdir.***

***– Bu yaxınlarda "Türk Humanitar Elmlər Ensiklopediyası"nı nəşr etdirdiniz. Bu lüğət haqqında nə deyə bilərsiniz?***

– "Türk Humanitar Elmlər Ensiklopediyası" türkologiyanı anlamaq üçün zəruri olan humanitar elmlərin bütün sahələrinə aid əsas anlayışları əhatə edir. "Türk Humanitar Elmlər Ensiklopediyası" Koreya Milli Araşdırmalar Fondunun dəstəyi ilə Dongduk Qadın Universitetinin Avrasiya Türkşünaslıq İnstitutu tərəfindən son 5 ildə həyata keçirilən fundamental tədqiqat işinin nəticəsidir. Bu ensiklopedik lüğətin əhatə etdiyi sahələr müxtəlifdir: türk humanitar elmləri, dil, ədəbiyyat, tarix, incəsənət, coğrafiya, folklor, din və s. Kitab və PDF e-kitab şəklində nəşr olunan və yayılan bu ensiklopediya 2000-dən çox girişi olan, 8 cilddən, 4500 səhifədən ibarət böyük həcmli mənbədir.

***– Lüğət nəşr etmək asan məsələ deyil, amma "Türk Humanitar Elmlər Ensiklopediyası" Koreya cəmiyyətinə nə dərəcədə lazım idi ki, onu yaratmaq üçün belə çətinliklərə dözməli oldunuz?***

– "Türkiyə qurşağı" ölkələrinin humanitar elmləri təkcə akademik dəyər baxımından deyil, həm də geosiyasi və geoiqtisadi baxımdan vacibdir. Bununla belə, ölkəmizdə hələ də geniş ictimaiyyətin türk ölkələri haqqında ilkin biliklərə yiyələnməsinə ehtiyac var. Bu vəziyyəti yaxşılaşdırmaq üçün, düşünürəm ki, hər şeydən əvvəl türkşünaslığı və əlaqəli humanitar elmləri əhatə edən belə bir lüğətə ehtiyacımız vardı.

ABŞ və Çin arasında münaqişə dərinləşdikcə, Koreya da müxtəlif əməkdaşlıq kanallarını təmin etməlidir. Xüsusən də, türk ölkələrinin bizimlə mədəni yaxınlığı var və geosiyasi baxımdan Asiya ilə Avropanı birləşdirən, Avrasiya qitəsinin əhəmiyyətli bir hissəsini tutan Qafqaz bölgəsi də bura daxildir. Biz Türk Şurasında iştirak yolu ilə Koreya şirkətlərinin iqtisadi və mədəni əməkdaşlıq şəbəkəsinin genişləndirilməsi imkanlarını fəal şəkildə axtarmaqla Avrasiya qitəsi ilə əlaqələrimizi bütövləşdirə bilərik…

Nəhayət, Türkiyə ilə Koreya arasında layihələr önəmli olsa da, türk ölkələri arasında da çoxtərəfli əməkdaşlıq layihələri və sistemləri lazımdır. Hətta B2B layihələrini həyata keçirən iri şirkətlər üçün də hökumətin köməyi olmadan işləmək asan deyil. Ona görə də istənilən



vaxt korporativ problemlərin həlli və məsləhətləşmə xidmətləri göstərmək üçün "Koreya–Türkiyə İqtisadi Əməkdaşlıq Mərkəzi (şərti adı)" adlı özəl qurum yaradılmalıdır. Sonra hər bir türk ölkəsi ilə belə bir təşkilat qurulmalı və baş nazirə qədər bir əlaqə kanalının fəaliyyəti təşkil edilməlidir.

***– Koreyanın türk ölkələrində diqqət yetirməli olduğu humanitar hədəf varmı?***

– Cənubi Koreya Türk qurşağı ölkələrinə dil və mədəniyyət baxımından digər etnik qruplardan daha yaxındır. Bu, yaxınlıq deyilən anlayışa əsaslanır. Odur ki, Avrasiyanın türk ölkələri ilə əlaqələrini, dil və mədəni yaxınlığını müəyyən edərək, qarşılıqlı anlaşma mövqelərini genişləndirmək üçün bu regionda humanitar elmlərin araşdırılmasını genişləndirmək və gücləndirmək vacibdir.

İpək yolu üzərində Koreya mədəniy-



yəti ilə mənşəcə yaxın olan türk ölkələri arasındakı mədəni bağı gücləndirib siyasi və iqtisadi mübadilə üçün əsas kimi istifadə etsək, bunun mühüm milli sərvətə çevriləcəyinə inanıram. Nəzərə almalıyıq ki, bunlar ABŞ və Çin arasındakı gərginliyin, eləcə də Çinlə tarixi və mədəni münaqişələrin öhdəsindən gəlmək üçün imkanları olan ölkələrdir.

***– Koreya Türkiyə və digər türk dövlətləri ilə siyasi və iqtisadi sahədə qarşılıqlı əlaqə qurarkən nələrə diqqət etməlidir?***

– Gözlənilən dəyər o qədər böyükdür ki, buna Koreyanın kəşf edə biləcəyi son bazar da demək olar. Buna baxmayaraq, reallıqda yerli türk xalqları və ya türk ölkələri ilə bağlı araşdırmalar lazım olduğu qədər fəal aparılmır. Tədqiqat apara biləcək kifayət qədər mütəxəssis, meydana çıxa biləcək istedadlı adamlar çox deyil.

Bu reallıqda türk ölkələri Koreya üçün çox mühüm siyasi və iqtisadi tərəfdaşlardır. Xüsusilə, Bayden administrasiyasının inaqurasiyasından sonra ABŞ Rusiya və Çinlə çox həssas qarşıdurma içərisindədir. Belə bir zamanda Koreya diqqətini Mərkəzi Asiyanın türk ölkələrinə yönəltməlidir. Çünki Rusiya və Çinlə aradakı gərginlik əslində Orta Asiyanın türk ölkələrinə doğru irəliləmək üçün daha böyük fürsət ola bilər. Bayden administrasiyasının iqlim sazişinə qoşulması və karbon neytrallığı siyasəti bütün dünyada paradiqmanı dəyişdi. Karbon sərhəd vergisinin tətbiqi şirkətlərin və ölkələrin sağ qalması üçün kritik təhlükəyə çevrildi. Bərpaolunan enerji və yeni yaşıl siyasətlərlə iri yerli şirkətlər ABŞ kimi qabaqcıl bazarlara hakim olmaq üçün yarışırlar. Mərkəzi Asiya ölkələri təkcə təbii sərvətlərə malik ölkələr deyil, həm də külək və günəş enerjisi kimi bərpaolunan enerjinin istehsalı üçün mükəmməl təbii mühitə malikdir.

Avtomobillərə gəldikdə isə, Özbəkistan Prezidenti avtomobil istehsal xətlərini elektrik avtomobil xətlərinə çevirmək planlarını açıqladı. Koreya şirkətləri bu mühitdən təkan kimi istifadə edərək liderlik etməlidirlər.

Bayden administrasiyası əməkdaşlıq kanallarını şaxələndirmək üçün "C5+1" yaratdı və Mərkəzi Asiyaya böyük diqqət yetirməyə başladı. Görünən odur ki, Mərkəzi Asiya ölkələrində də ABŞ-ın təsiri arta bilər. Türk ölkələri iqtisadiyyatlarının böyük bir hissəsində əsas investorlar Rusiya və Çindən asılıdır. Bu ölkələr arasında ictimai əhval-ruhiyyə tarixən o qədər də müsbət olmayıb və onlar imkan daxilində bir-birilərindən müəyyən məsafə saxlamaq istəyirlər. Bu boşluq Türkiyə üçün böyük ölçüdə sızmaq imkanı yaradıb və bölgəyə güclü, görünməz təsir göstərir. Bununla belə, Türkiyənin texnoloji imkanlarının zəif olduğu sahələr var. Koreya şirkətləri enerji, avtomobil, ağıllı təsərrüfatlar, səhiyyə və texnoloji imkanlar tələb edən sənayelərin rəqəmsallaşdırılması kimi sahələrə girib sərmayə qoymağa can atırlar.

Siyasi baxımdan türk ölkələri beynəlxalq arenada qeyd-şərtsiz Cənubi Koreyanın tərəfini tuta bilən ölkələrdir. Beynəlxalq vəziyyətin gedişatına görə Koreyanın belə "səslərə" ehtiyacı var. Çinin böhran və ya münaqişə vəziyyəti yaratması halında türk ölkələrini razı salmaqla Çinə təzyiq etmək vasitəsi yaradıla bilər. Bir məsələ də var ki, Orta Asiyanın türk ölkələrində, o cümlədən Özbəkistanda 180 min, Qazaxıstanda 100 min koreyalı soydaşımız yaşayır. Koreya diasporu ümumiyyətlə, Şimali Koreyada qohumları olan və Şimali Koreyaya sərbəst səyahət edə bilən insanlardır. "Koryoin (Koreya diasporu)" həm də Şimali və Cənubi Koreya arasındakı münaqişə vəziyyətlərində mühüm rol oynaya biləcək insan resursudur.

Beləliklə, Türk dünyası bir çox sahələrdə Koreya üçün yüksək gələcək dəyəri olan ölkələrdir. Bununla belə, bu cür əməkdaşlığın və dostluq münasibətlərinin özülünə hər şeydən öncə, tarix və mədəniyyət baxımından çoxsaylı təbəqələrdə toplanmış ənənəvi bilgilərdən qidalanmaq lazımdır. Məhz buna görə də türk dövlətlərinin tədqiqi humanitar elmlərə əsaslanmalı, sonra isə siyasət, iqtisadiyyat, diplomatiya və təhlükəsizlik tədbirlərini əhatə edəcək şəkildə genişləndirilməlidir.

***– Koreyada türk ölkələri ilə bağlı mütəxəssislərin hazırlanmasına təcili ehtiyac olduğunu dediniz. Başqa hansı tədbirlərə ehtiyac var?***

– Düşünürəm ki, Koreya hökuməti türk ölkələrində ekspertlərin yetişdirilməsi üçün xüsusi tədbirlər görməsə, Koreyanın türk dövlətləri, o cümlədən Mərkəzi Asiya ilə münasibətlərinin inkişafı çətin olacaq. İstedadlı şəxsiyyətlər və mütəxəssislər yetişdirmədən gələcək haqqında düşünə bilmərik.

Hər şeydən əvvəl universitet sistemində islahatlar aparılmalıdır. Son zamanlar yerli universitetlər 1-ci ixtisasla yanaşı, 2-ci ixtisası və yan sistemləri də genişləndirirlər. "Mikrodərəcə kursları" da yaranır. Türk dövlətində ekspertlər yetişdirmək üçün biz bu sistemdən fəal istifadə etməliyik. Bu, türkşünaslıqla ixtisası birləşdirən ekspert kursu yaratmaqla ekspertlər hazırlamaq planıdır.

***– Gələcəkdə Türkiyə və digər türk dövlətləri ilə əlaqələri inkişaf etdirmək üçün başqa hansı tövsiyələriniz var?***

– Türk dövlətləri ilə davamlı əməkdaşlığa imkan verən qurum və sistemlərin yaradılmasına ehtiyac duyulur. Hər şeydən əvvəl, mütəxəssis yetişdirmə planı hazırlanmalıdır. Biz əsas universitetləri inkişaf etdirmək və fəal şəkildə türk bölmələri açmaq yollarını axtarmalıyıq. Hazırda Koreya hökuməti tərəfindən irəli sürülən insan mübadiləsi və istedadın inkişafı tədbirləri Mərkəzi Asiya ölkələrində koreyaşünaslıq və Koreya dilini dəstəkləməyə, yerli hökumət rəsmilərini və tələbələri Koreyaya cəlb etməklə xaricdə təhsil imkanlarını təmin etməyə yönəlib. Mühüm universitetləri inkişaf etdirmək üçün layihələr və fondlar yaratmaq və türk bölmələrinin açılmasını təşviq etmək vacibdir. Hazırda Təhsil Nazirliyində Beynəlxalq Təhsil üzrə Milli İnstitut tərəfindən həyata keçirilən xüsusi xarici dil təhsilinin təşviqi layihəsi mövcuddur, lakin fənlərarası ixtisaslar şəklində şöbələrin açılmasına və həm əsas, həm də regional təcrübəyə malik istedadların yetişdirilməsinə təcili ehtiyac var. Təhsil Nazirliyində, Koreya Milli Araşdırmalar Fondunun nəzdində Türkşünaslıq fondu yaradılmalıdır.

İkincisi, Koreya hökumətinin "Türk Dövlətləri Təşkilatı"na assosiativ üzv kimi daxil olması zəruridir. 2010-cu ildə yaradılan qurum hazırda türk ölkələri arasında siyasət, iqtisadiyyat, cəmiyyət, mədəniyyət, təhsil, ticarət, nəqliyyat və logistika daxil olmaqla bütün sahələrdə əməkdaşlığı gücləndirir. Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan və Qırğızıstan tamhüquqlu, Türkmənistan və Macarıstan isə assosiativ üzvlərdir.

***XQ***

**Vəcihə Səmədova – 100**

# Sənətkar ömrünün rənglərdə yaşayan səhifələri





**Görkəmli rəssam, Əməkdar incəsənət xadimi Vəcihə Səmədovanın anadan olmasının 100 illiyi münasibətilə Azərbaycan Milli İncəsənət Muzeyində "Sənətkar ömrünün səhifələri" adlı rəsm sərgisi açılıb.**

Əhvalyaradıcı sujetlərin təsviri, kompazisiya quruluşunda gözoxşayan mənzərələrin mahiranə izahı, ovqatyaradıcı görüntülərə üstünlük vermək, kolorit və təravətin kətan üzərindəki inikası unudulmaz fırça ustasının yaradıcılığının nəzərəçarpan tərəfləri kimi ekspozisiyada parlaq əksini tapıb. Bu özəllikər hər bir ziyarətçiyə bədii estetik zövq verir.

Sərgnin açılışında bütün bunlar barədə bilgi verən Milli İncəsənət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Şirin Məlikova rəssamın yaradıcılığındakı mövzu dairəsinin zənginliyi, sənətdəki dəst-xətti və bir-birindən rəngarəng kompazisiyaları barədə danışdı. O qeyd etdi ki, sərgidə Milli İncəsənət Muzeyi və Azərbaycan Dövlət Rəsm Qalereyasının kolleksiyasına məxsus müxtəlif janrlarda 60-dək rəngkarlıq və qrafika əsəri yer alıb.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının prorektoru, Xalq rəssamı Səlhab Məmmədov bildirdi ki, Azərbaycanın ilk peşəkar qadın rəngkarı Vəcihə Səmədova seçilən dəst-xəttə malik rəssam kimi özündən sonra dəyərli irs qoyub. Onun geniş mövzu dairəsini əhatə edən əsərləri mövzu üzrə bölünmüş zallarda təqdim olunur. Sərgilənən mənzərə əsərlərində müəllifin canlı müşahidələri əsasında fırçaya aldığı Vətən torpağının əsrarəngiz təbiəti, qeyri-adi gözəllikləri canlanır.

Rəssamın nəvəsi Akşin Feyzullayev çıxış edərək, tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkür etdi. Sonra qonaqlar sərgi ilə tanış oldular.

Rəssamın sərgi ekspozisiyasında yer alan "İmtahandan qabaq", "Xəbər gözləyərkən", "Kəşfiyyatçı qocalar", "Azərbaycan toyu" və digər tematik tabloları mükəmməl kompozisiya həllinə malik olmaqla canlı hiss və duyğuların təsviri ilə fərqlənir.

Onun 1961-ci ildə yaratdığı və sanki, öz bədii-estetik axtarışlarının zirvəsinə çatdığı "Kürün sahilində" tablosu ekspozisiyada xüsusi yer tutur. Bu əsərdə o bir daha böyük kolorist-rəssam qabiliyyətini, istedadının qüdrətini, dəst-xəttinin özəlliyini sübut edir.

Ekspozisiyanın xüsusi hissəsini Vəcihə Səmədovanın özünü sənətkar kimi təsdiq etdiyi aparıcı janrlardan olan portret əsərləri təşkil edir. Burada yer alan tanınmış elm, sənət və zəhmət insanlarının obrazları, eləcə də, rəssamın avtoportreti onlara xas individual aləmin özünəməxsus ifadəsi ilə seçilir. Savadlı, iradəli, öz gücünə güvənən müasir qadın xarakterləri görkəmli aktrisa "Leyla Bədirbəylinin portreti", "Geoloq M.Məmmədbəylinin portreti", "Memar Solmaz Səmədovanın portreti", pambıqçı "Şamama Həsənovanın portreti" və digər portretlərdə dolğun şəkildə əksini tapıb.

Xatırladaq ki, Mədəniyyət Nazirliyi və Milli İncəsənət Muzeyinin təşkilatçılığı ilə açılan sərgi noyabrın 25-dək ziyarətçilər üçün açıq olacaq.

***Ceyhun ALIŞLI,***
***jurnalist***

# Balet təkcə incəsənət deyil, həm də incə sənətdir

**Bakı Xoreoqrafiya Məktəbinin (hazırkı Bakı Xoreoqrafiya Akademiyası) yetirməsi olan Zaur Fətullayev görkəmli incəsənət xadimləri və pedaqoqlardan dərs alıb. Xatırlayır ki, qəbul komissiyası SSRİ Xalq artisti Leyla Vəkilova, Azərbaycanın Xalq artisti Konstantin Bataşov, bədii rəhbər, balerina Ella Almazova, pedaqoq Roza Hacıyeva, Əməkdar mədəniyyət işçisi Mayra Almaszadə və başqalarından ibarət idi. 3 il ərzində klassik rəqs üzrə ilk baza dərslərini aldığı müəllimi isə həm də opera və balet teatrının məşq ustası Qalina Rodomskaya oldu.**



Ardınca məşhur balerina Yelena Butuninanın sinfində oxudu. Buraxılış sinfində yekun konsertində Sezar Puninin "Markitant qız" baletindən Pa-de-sis rəqsini, Volfqanq Amadey Mosartın musiqisinə Tamilla Şirəliyevanın quruluş verdiyi "Üvertüra"nı və Pyotr Çaykovskinin "Sonalar gölü" baletindən "İspan rəqsi"ni məharətlə ifa edərək, Leyla Vəkilovadan xeyir-dua alıb. Zaur Fətullayev Xalq artisti Çimnaz Babayevanı da özünün ustadı sayır. Deyir ki, onun sayəsində səhnəni qəlbən hiss etməyi öyrənib. Bu isə çox vacibdir. Axı, baletdə danışığı, monoloqları hərəkətlər, jestlər əvəz edir, rəqqas lazımi fikri seyrçiyə çatdırmaqdan ötrü bunları səviyyəli şəkildə təqdim etməlidir.

Zaur Fətullayev 90-cı illərin əvvəllərində Azərbaycanda baletə ögey münasibəti də, ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ümumbəşəri mədəni dəyərlərə lazımi qiymət verilməsini də görən balet artistlərindəndir. Azərbaycan Dövlət Opera və Balet Teatrının repertuarının böyük qismində onun adı keçib. "Jizel", "Min bir gecə", "Qız qalası", "Şelkunçik", "Arlekinada" və digər baletlər bu sıradandır. Xalq artisti Mədinə Əliyeva və digər balet "ulduz"ları ilə səhnədə tərəf-müqabil olub.

Zaurun debütü olan Adolf Adanın "Jizel"i üzərində saatlarca çəkən gərgin məşqlər onda böyük səhnədə, necə deyərlər, ayaqda qalmaq qabiliyyəti formalaşdırıb. Opera və Balet Teatrında çalışdıqca o, anlayıb ki, sənətin incəliklərini öyrənmək bitib-tükənən həvəs deyil. Bir müddət Türkiyədə, özəl balet məktəbində çalışdığı zaman da təzə nələri isə öyrənməyə çalışıb. Hazırda Moskva Dövlət Xoreoqrafiya Akademiyasında təhsilini davam etdirməsi onun sənətin bütün incəliklərinə vaqif olmaq əzminin göstəricisidir.

Sənətkarın sabahın qabiliyyətli pedaqoqu olacağına əminik.

***Əbülfəz BABAZADƏ,***
***kulturoloq***

# "Gənclik" ASC-nin 2023-cü il dekabrın 31-nə illik maliyyə hesabatı

*(manatla)*

| | |
|---|---|
| 2.1.1 Emitentin tam və qısaldılmış adı,vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi | "Gənclik" Açıq Səhmdar Cəmiyyəti, "Gənclik" ASC,(VÖEN 1500265291) qeydiyyat tarixi 01.06.2006, qeydiyyat №46 |
| 2.1.2 Emitentin hüquqi ünvanı və olduğu yer; | Bakı, Nərimanov rayonu, Olimpiya küçəsi 6 |
| 2.1.3Emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitentin digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxsdərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yinidən təşkilin forması, həmin hüquqi şəxslərin adları; | "Gənclik"Açıq Tipli Səhmdar Cəmiyyəti, "Gənclik" ATSC, qeydiyyat tarixi 24.04.1998, qeydiyyat № D-2658; "Gənclik"Açıq Tipli Səhmdar Cəmiyyəti, "Gənclik" ATSC, qeydiyyat tarixi 19.02.1999, qeydiyyat № 46; |
| 2.1.4 Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı; olduqları yer və qeydiyyatları haqqında məlumatlar; | Olmayıb |
| 2.1.5 Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı,qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və quvvədə olma müddəti; | Olmayıb |
| 2.1.6 Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun adı; | Deyil |
| 2.1.7 Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri; | İdman xidmətinin göstərilməsi |
| 2.1.8 Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri; | Malik deyil |
| 2.1.9 Emitentin təklif etdiyi məhsullar və xidmətlər; | İdman xidməti |
| 2.1.10 Emitentin işçilərinin sayı və onun rüblük dinamikası; | İşçilərinin orta illik sayı 37 nəfər |
| 2.1.11 Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı | Müşahidə şurası:<br>Müşahidə şurasının sədri- Fərzəliyev İlham Rəfayıl oğlu;<br>Müşahidə şurasının üzvləri: Hacıyev Samir Ehtibar oğlu,<br>Qəhrəmanov Süleyman Aslan oğlu<br>İcra orqanı: Direktor -Şaxhüseynov Əli Əziz oğlu |
| 2.1.12 Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının ayrı-ayrılıqda sayı | Fiziki - 60 nəfər |
| 2.1.13 Emitentin nizamnamə kapitalının on beş faizi və daha artıq həcmdə səsli səhmlərinə malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı; | Babayev Kamal Ələkbər oğlu – 41,81 % (288500)<br>Babayev Tahir Kamal oğlu – 20,85 % (143858)<br>Babayeva Rəna Kamal qızı – 15,00 % (103500)<br>Əsədulla Çingiz Rauf oğlu - 20,85 % (143918) |
| 2.1.14 Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı); | Hüquqi şəxslər yoxdur |
| 2.1.15 Emitentin səhmdarlarının hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat: | Səhmdarların ümumi yığıncağı keçirilib. |
| 2.1.15.1 Yığıncağın keçirilmə tarixi və yeri (ünvan) | 14 iyun 2024-cü il.,Bakı şəhəri, Olimpiya küçəsi 6 |
| 2.1.15.2 Ümumi yığıncağda qəbul edilmiş qərarlar | 2023-cü il üzrə maliyyə-təsərrüfat hesabatı |
| 2.1.16 Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir) | Dövriyədə olan qiymətli kağızlar- səhmlər |
| 2.1.16.1 İnvestisiya qiymətli kağızın növü və forması | Adi, adlı səhm, sənədsiz |
| 2.1.16.2 İnvestisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi | № 725/ A 21.05.98 |
| 2.1.16.3 İnvestisiya qiymətli kağızların miqdarı və nominal dəyəri | 690092 1 manat |
| 2.1.16.4 İnvestisiya qiymətli kağızlar buraxılışınıın məcmu nominal dəyəri | 690092 |
| 2.1.16.5 Hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir) | Dividendlər ödənilməyib,2023-cü ilin yekunlarına görə zərər əldə olunub. |
| | |
| 2.1.16.6 Faizli istiqrazlar buraxılışı haqqında məlumatda- istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi | Olmayıb |
| 2.1.16.7 İnvestisiya qiymətli kağızlarının yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda) | Olmayıb |
| 2.1.17 Emitent tərəfindən bağlanmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar | Olmayıb |
| 2.1.17.1 Əqdin məbləği | |
| 2.1.17.2 Hesabat tarixinə əqdin ödənilməmiş hissəsi | |
| 2.1.18 Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanmış əqdlər barədə məlumatlar: | Olmayıb |
| 2.1.18.1 Bağlanmış əqdin mahiyyəti, tarixi və məbləği; | |
| 2.1.18.2 Aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi; | |
| 2.1.19 İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi | 14 iyun 2024-cü il |
| 2.1.20 İllik hesabatın açıqlanma mənbəyi haqqında məlumat | "Xalq qəzeti" |

**2023-cü il dekabrın 31-nə məcmu gəlir haqqında hesabat (xərclərin xüsusiyyətləri üzrə təsnifləşdirilməsi)**

| | 2022-ci il | 2023-cü il |
|---|---|---|
| Əməliyyat fəaliyyətindən gəlirlər | 467384.73 | 482335.71 |
| Digər əməliyyat gəlirləri | 111154.25 | 184056.70 |
| Digər gəlirlər | - | |
| Cəmi gəlirlər | 578538.98 | 666392.41 |
| Əmək haqqı və işçilərlə bağlı digər ödənişlər | 263604.09 | 346737.33 |
| Mal-material ehtiyatlarının silinməsi | 22831.30 | 167860.92 |
| Əmlak və avadanlığın köhnəlməsi | 67418.86 | 78529.21 |
| Digər xərclər | 165887.61 | 89322.57 |
| **Xərclər** | 519741.86 | 682450.03 |
| Əməliyyat mənfəəti (zərəri) | 58797.12 | -16057.68 |
| Mənfəət vergisindən əvvəl mənfəət (zərər) | 58797.12 | -16057.68 |
| Mənfəət vergisi xərcləri | | |
| Hesabat dövründə xalis mənfəət (zərər) | - | -1026.34 |
| İlin əvvəlinə kapital ehtiyatları | 49601800.04 | 49776635.92 |
| Yenidənqiymətləndirilmənin dəyəri | - | |
| Vergi məcəlləsilə istifadə edilməmiş və silinmiş güzəştə uyğun təxirə salınmış vergi | - | |
| İlin sonuna kapital ehtiyatları | 49776635.92 | 49791667.24 |

**2023-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabat**

| | 2023-cü il | 2023-cü il | 2022-ci il | 2022-ci il |
|---|---|---|---|---|
| AKTİVLƏR | | | | |
| Uzunmüddətli aktivlər | | | | |
| Qeyri-maddi aktivlər | 2478.33 | | 258.33 | |
| Torpaq,tikili və avadanlıqlar | 50712394.68 | | 50759870.97 | |
| Tikilməkdə olan torpaq,,tikili və avadanlıqlar | 81490030 | | 81490.30 | |
| Təxirə salınmış vergi aktivləri | 18734.06 | | 27230.12 | |
| Sair uzunmüddətli aktivlər.Gələcək dövrün xərcləri | 308957.74 | | 292900.08 | |
| CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR | | 51124055.11 | | 51161749.80 |
| Qısamüddətli aktivlər | | | | |
| Ehtiyatlar | 18654.94 | | 12381.01 | |
| Qısamüddətli debitor borcları | 2494.29 | | 11862.71 | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 34104.26 | | 26639.03 | |
| Sair qısamüddətli aktivlər | 0.00 | | 0.00 | |
| Sair qısamüddətli aktivlər. Gələcək dövrün xərcləri | 59569.50 | | 52391.66 | |
| CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR | | 136722.99 | | 103274.41 |
| CƏMİ AKTİVLƏR | | 51260778.10 | | 51265024.21 |
| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | | | | |
| Kapital | | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | 690092 | | 690092,00 | |
| Kapital ehtiyatları | 49791667.24 | | 49776635.92 | |
| Bölüşdürülməmiş mənfəət ( zərərlər) | -74854.78 | | -58797.12 | |
| CƏMİ KAPİTAL | | 50406.904.46 | | 50407930.80 |
| Uzunmüddətli öhdəliklər | | | | |
| Sair uzumüddətli öhdəliklər.Gələcək dövrün gəlirləri | 257217.03 | | 257217.03 | |
| Digər uzumüddətli öhdəliklər | 525844.44 | | 525844.44 | |
| CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | 783061.47 | | 783061.47 |
| Qısamüddətli öhdəliklər | | | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | | 4412.72 | |
| Qısamüddətli kreditor borcları | 70812.17 | | 69619.22 | |
| Sair qısamüddətli öhdəliklər. Gələcək dövrün gəlirləri | | | | |
| CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | 70812.17 | | 74031.94 |
| CƏMİ ÖHDƏLİKLƏR | | 853873.64 | | 857093.41 |
| CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | | 51260778.10 | | 51265024.21 |

**2023-cü il dekabrın 31-nə pul vəsaitlərinin hərəkəti haqqında hesabat**

| | 2022-ci il | 2023-cü il |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitləri** | | |
| Əməliyyat fəaliyyətindən mənfəət (zərər) | | (-16057.66) |
| Üstəgəl əmlak və avadanlığın köhnəlməsi | 67418.86 | 78529.21 |
| Çıxılsın silinmiş və istifadə edilməmiş vergi məcəlləsilə güzəştdən yaranmış təxirə salınmış vergi | | |
| **Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər** | | |
| Çıxılsın debitorların artması | 12613.19 | (-12531.58) |
| Üstəgəl gələcək dövrün xərclərinin azalması | 58803.18 | |
| Üstəgəl ehtiyatların artması | -7656.85 | (-6273.93) |
| Üstəgəl kreditorların artması | -2029.71 | (-1901.55) |
| Çıxılsın gələcək dövrün gəlirlərinin azalması | - | |
| Əməliyyat fəaliyyətində pul vəsaitləri | 129148.67 | 41764.46 |
| Çıxılsın ödənilmiş vergi | 885.17 | (-1026.34) |
| Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | 130033.84 | 40738.12 |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | |
| Uzunmüddətli aktivin əldə olunması | (-106413.52) | (-33272.91) |
| Çıxılsın tikilməkdə olan torpaq, tikili və avadanlıqların azalması | | |
| Uzunmüddətli aktivin əldə olunması ilə bağlı pul vəsaitlərinin xaric olması | (-106413.52) | (-33272.91) |
| İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | - | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | (-66000) | |
| Maliyyələşdirmə fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti | (-66000) | |
| Pul vəsaitlərinin və onların ekvivalentlərinin artması/azalması | (-42379.68) | 7465.23 |
| Pul vəsaitlərinin və onların ekvivalentlərinin ilin əvvəlinə | 69018.71 | 26639.03 |
| Pul vəsaitlərinin və onların ekvivalentlərinin ilin sonuna | 26639.03 | 34104.26 |

**2023-cü il dekabrın 31-nə kapitalda dəyişikliklər haqqında hesabat**

| | Ödənilmiş aksioner kapital | Kapital ehtiyatları | | |
|---|---|---|---|---|
| | | Digər ehtiyatlar | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
| 2023-cü il yanvarın 1-nə qalıq | 690 092,00 | 49776635,92 | -58797,12 | 50407930,80 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | 15031.32 | -16057.66 | -1026.34 |
| Dividendlər | | | | |
| 2023-cü il dekabrın 31-nə | 690092.00 | 49791667.24 | -74854.78 | 50406904.46 |

**MÜSTƏQİL AUDİTORUN HESABATI**
**"GƏNCLİK" ASC-nin RƏHBƏRLİYİNƏ**

**Rəy**

1.Biz, "GƏNCLİK" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra şirkət adlandırılacaq) 2023-cü il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatından və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizcə, əlavə edilmiş maliyyə hesabatları şirkətin **2023-cü il dekabrın 31-nə** maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

2. Biz, auditi Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın " Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz, maliyyə hesabatlarının auditinə aid etik normalarla Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının «Etika məcəlləsinin» (İESBA məcəlləsi) tələblərinə uyğun olaraq şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və İESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

3. Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər, maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmış və biz bu məsələlər barədə ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

4. Rəhbərlik, maliyyə hesabtlarının İFRS (beynalxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, şirkətin fasiləsiz fəaliyyət göstərmək qabliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə rəhbərlik məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər şirkətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

5.Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər, dələduzluq və səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda, əhəmiyyətli hesab olunur.

***"F.N.Audit Servis" MMC-nin direktoru- Fuad Əliyev***
**Bakı, Azərbaycan Respublikası 16 aprel 2024-cü il**



# Qədim Çövkənin çağdaş təntənəsi

## *Milli oyunumuz artıq dünya idmanında yer alıb*

***Azərbaycanda çox qədim zamanlardan təşəkkül taparaq məşhurlaşan çövkən bu gün doğma yurdumuzda özünün əsl inkişaf dövrünü yaşayır. Təsadüfi deyil ki, bu atüstü milli oyunumuzun şöhrəti dünyanı gəzib dolaşır. Bugünlərdə Bakıda təşkil olunan dünya çempionatında milli cinsdən olan atlarımız eksteryer görünüşü, rəng və bədən göstəriciləri, dözümlülüyü, çevikliliyi ilə bir daha tamaşaçıları, mütəxəssisləri heyran qoydular.***

Binə Atçılıq Mərkəzində 6 gün davam edən mundialda Azərbaycan komandası ilk matçlardan başlayaraq, sonacan əzmkarlığı ilə fərqləndi. Qalib adı uğrunda keçirilən final qarşılaşmasında Mərakeş yığmasını 2:0 hesabı ilə məğlub edən "cəngavər"lərimiz dünya çempionatının qalibi oldular. Rəqib komandanın qapısına hər 2 qolu Elçin Camallı vurdu. Elə yarışın bombardiri adına da 10 qolla E.Camallı layiq görüldü. Bununla da, Azərbaycan millisi ardıcıl ikinci dəfə çövkən üzrə dünya çempionatının qalibi oldu.

Üçüncü yer uğrunda yarışda isə Özbəkistan Nigeriyadan daha güclü olduğunu nümayiş etdirdi. Gərgin idman mübarizəsi şəraitində keçən matçda Özbəkistan rəqibini 3:1 hesabı ilə məğlub edərək bürünc medala sahib oldu.



Yarışın bağlanış mərasimində Qarabağ atlarının Böyük Britaniyada "Vindzor Kral Atçılıq Şousu"nda, Türkiyə və İsveçrədə nümayiş etdirdiyi möhtəşəm şou-kompozisiya onu izləyənləri məftun etdi.

Mundialı ikinci yerdə tamamlayan Mərakeş yığmasına fəxri fərman və medalları Beynəlxalq Çövkən Federasiyasının prezidenti Bəhruz Nəbiyev, dünya çempionu adına layiq görülən millimizə isə kuboku Azərbaycan Respublikası Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev təqdim etdilər.

Yarışın sonunda mətbuata müsahibə verən Beynəlxalq Çövkən Federasiyasının (BÇF) prezidenti Bəhruz Nəbiyev ilk dəfə Azərbaycanda yaradılan BÇF-nin bayrağı altında birinci rəsmi yarışda komandaların layiqincə mübarizə apardıqlarını bildirdi:

– Komandalar çox gözəl, fərqli oyun göstərdilər. Ötənilki yarışda iştirak edən yığmalar özlərini daha da təkmilləşdiriblər. Sevindirici məqamlardan biri də, həm atların, həm də idmançıların yarışı zədəsiz başa vurmalarıdır.

B.Nəbiyev yarış günlərində qurumun növbədənkənar ikinci Baş Assambleyasının keçirildiyini və burada bir sıra vacib qərarların təsdiq olunduğunu vurğuladı. Bildirildi ki, Assambleyada beynəlxalq çövkən qaydaları təsdiq edildi:

– Növbəti ildə Afrika, Avropa və Cənubi Amerikada yarışların təşkili nəzərdə tutulub. İkinci rəsmi dünya çempionatı isə 2026-cı ildə keçiriləcək. Yarışın məkanı və keçirilmə tarixi barədə gələn il qərar qəbul ediləcək. 2025-ci ildə Polşada Avropa çempionatı təşkil olunacaq.

BCF-nin baş katibi Maciej Miçel Olbriç Bakıda dünya çempionatının gərgin, lakin maraqlı mübarizə şəraitində keçdiyini bildirdi:

–Turnir ilk yarış idi ki, Beynəlxalq Çövkən Federasiyasının təşkilatçılığı ilə keçirildi. Mundialda 10 komandanın hər biri layiqincə mübarizə apardı. İki ildən bir təşkil edilən dünya çempionatının evsahibliyi Azərbaycana etibar edildi. Azərbaycanın möhtəşəm təşkilatçılıq qabiliyyəti var. Ölkəniz belə mötəbər turnirlərin yüksək səviyyədə təşkilində zəngin təcrübəyə malikdir. Ümid edirik ki, 2026-cı ildə təşkil ediləcək mundiala da Azərbaycan ev sahibliyi edəcək.

Polşalı mütəxəssisin sözlərinə görə, gələcəkdə dünya çempionatında iştirak edəcək ölkələrin sayının artırılması üçün tədbirlərin təşkili nəzərdə tutulub. O, çövkənin öz coğrafiyasını getdikcə genişləndirdiyini diqqətə çatdırdı. Sonda növbəti dünya çempionatında 20-yə yaxın komandanın mübarizə aparacağına ümid etdiyini dedi.

***Leyla QURBANOVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 127 (30531) 21 iyun 2024-cü il, cümə

İDMAN

## Paraüzgüçümüz Paris Oyunlarında yarışacaq

**Paralimpiya, Dünya və Avropa çempionumuz Vəli İsrafilov Paris Yay Paralimpiya Oyunlarında iştirak edəcək.**




İdmançımıza Milli Paralimpiya Komitəsi tərəfindən göndərilən sorğu əsasında Beynəlxaq Paralimpiya Komitəsindən Paralimpiadada iştirak hüququ ("bipartite") verilib.

Paraüzgüçümüz Fransanın paytaxtında SB13 kateqoriyasında 100 metr məsafədə brass üsulunda mübarizə aparacaq.

## Avropa Kuboku: cüdoçularımız 1-ci pillədə

**Azərbaycan cüdoçuları Sloveniyanın Podçetrtek şəhərində böyüklər arasında keçirilmiş Avropa Kubokunda medal əyarına görə ilk sırada yer alıblar.**



Milli komanda iki günün nəticəsinə əsasən, 4 qızıl, 1 gümüş və 3 bürünc medal qazanaraq kişilər arasında ümumi hesabda birinci yeri tutub. Qeyd edək ki, yarışda Nazir Talıbov (66 kq), Nəriman Mirzəyev (73 kq), Məhərrəm İmamverdiyev (81 kq) və İmran Yusifov (+100 kq) qızıl, Kamran Süleymanov (73 kq) gümüş, Rövşən Əliyev (60 kq), Rəşad Yelkiyev (66 kq) və Camal Feyziyev (+100 kiloqram) bürünc medal əldə ediblər.

## Ağırlıqqaldıranlarımızın medalları artır

**Yunanıstanın Saloniki şəhərində 15 və 17 yaşlı yeniyetmələr arasında ağırlıqqaldırma üzrə Avropa birinciliyində komandamızın uğurlu çıxışı davam edir.**



Yaşı 15-ə qədər olan atletlər arasında komandamızın üzvlərindən Kamran Xappayev (61 kq) 3 qızıl, İsa Əliyev (73 kq) 2 qızıl, 1 gümüş, Elman Kurdanov (67 kq) 1 bürünc, 2 gümüş, Nuray Əbilova (40 kq) gümüş, Malikə Biçekuyeva (55 kq) 2 bürünc medal qazanıblar.

İyunun 23-də başa çatacaq yarışda 38 ölkədən 415 (198 qız + 217 oğlan) idmançı iştirak edir.

***L.QURBANOVA***
***XQ***

Bakı milyonçuları

# Xanəndə milyonçunun acı taleyi

## *Sərvət "əl çirki", sənət isə dar gündə də istinadgahdır*

**O, xanəndə kimi məclislərdə, el şənliklərində hədsiz hörmətlə qarşılanırdı. Onun səsini sevə-sevə dinləyən minlərlə pərəstişkarları vardı. Həmişə qonaqlı-qaralı, toylu-büsatlı, çal-çağırlı məclislərdə başa çəkilirdi.**




Seyid Mirbabayev öz məlahətli səsi ilə insanların məhəbbətini qazanmışdı. O səs mənəvi zövq mənbəyi idi. Sahibinə əbədi şöhrət gətirirdi. Xalq arasında dolaşan söhbətlərə görə, Hacı Zeynalabdin Tağıyev də onun səsinin vurğunu olub. Onu vaxtaşırı evinə dəvət edərək oxutdurub, haqqını qat-qat artıqlaması ilə verib. Deyib ki, bu səs Allahın vergisidir, Tanrı töhfəsidir. Səsinin qayğısına qal, korlanmağa qoyma. Sonra peşman olarsan...

Bəli, tale elə gətirib ki, Seyid Mirbabayev nəinki səsinin qayğısına qalmayıb, hətta sənətdən uzaqlaşıb və sonda da Hacının dediyi kimi, peşman olub...

Seyid Mirbabayev 1910-cu ilə kimi Bakı kəndlərinin toylarında, ümumiyyətlə, Bakının musiqi həyatında öz səsi ilə dərin iz buraxıb. Teatr tamaşalarında və konsert salonlarında sevilən müğənni kimi böyük coşqu ilə qarşılanıb. Səsinin vala yazılması üçün 1906-cı ildə Riqa şəhərindəki "Qramofon" şirkəti tərəfindən dəvət alıb. Onun ifasında "Hicaz", "Şüştər" və başqa muğamlar, "Ay bəri bax" və digər təsniflər valda yer alıb.

Onun əsl adı Mir Tağıdır. El arasında Seyid Mirbabayev kimi tanınıb. 1867-ci ildə mərsiyəxan ailəsində dünyaya göz açıb. Atası da, qardaşı da mərsiyəxanlıqla məşğul olub. Sonralar Mir Tağı xanəndə kimi toylarda məşhurlaşıb. Zəngin ailələr bir-birinin bəhsinə Seyid Mirbabayevi öz ailə toylarına dəvət ediblər. Haqqını ödəməklə yanaşı, qiymətli hədiyyələr veriblər. Toyların birində, "Segah" muğamı üstündə bəyi böyük ilhamla, şövqlə tərif edib:

**"Görüm, a bəy, toyun mübarək olsun,**
**Atan, anan, dayın, əmin sağ olsun..."**

Bakının zəngin ailələrindən olan Şıxbalayevin gözünün ağı-qarası olan tək övladının toyunda xanəndənin səsindən vəcdə gələn bəyin milyonçu əmisi ona "Bala Şoranlıq" deyilən yerdə neft quyusu bağışlayıb. Onun milyonçu olmağının maraqlı tarixçəsi də "Bala Şoranlıq"dakı neft quyusu ilə bağlıdır. Çox çəkməyib ki, həmin quyudan neft fontan vurub. "Qara qızıl" ətrafı bürüyüb. Nəticədə, məşhur xanəndə Seyid Mirbabayev gözlənilmədən milyonçuya çevrilib.

Onun haqqında görkəmli yazıçı Manaf Süleymanov "Azərbaycan milyonçuları: Hacı Zeynalabdin Tağıyev" kitabında yazıb: (1996) "Bəxt ulduzu birdən parlayan neftxudalardan biri də milyonçu Seyid Mirbabayev idi... O, milyonçu olduqdan sonra musiqi sahəsindəki fəaliyyətinə son qoyub. Toylarda müğənni kimi çıxış etməkdən birdəfəlik uzaqlaşıb. Milyonçu olduğuna görə, xanəndəlik etməyi özünə ar bilib. Daha doğrusu, özünün xanəndə adından utanıb. Çünki var-dövləti başından aşıb. Toylarda onu kimlərinsə pul qarşılığında oxutmasını milyonçu adına yaraşdırmayıb. Tarixdə xanəndə kimi qalmaq istəməyib.

Seyid Mirbabayev hətta, vaxtilə özünün səsi yazılmış valları başqalarından baha qiymətə alıb sındırıb. Onun bu hərəkəti səsinin vurğunu olan Hacı Zeynalabdin Tağıyevi məyus edib. Hacı deyib ki, "Səsi ilə bülbülləri susduran Seyid Mirbabayev fəxr etmək əvəzinə, xanəndə adından utanır. Bu, necə ola bilər?!"

...Milyonçu Seyid Mirbabayev Bakını həmişə abad görmək istəyib. Ona görə də şəhərdə yaraşıqlı tarixi binalar tikdirib. Deyib ki, "burada yaşayan bizik. Bizim əvəzimizə başqası gəlib Bakını abad edə bilməz". Tikdirdiyi yerlərdə bir-birindən gözəl binalar göz oxşayıb. Bir çox məşhur evlərin sahibi olub. O vaxtlardan "Qubernator evi" kimi tanınan məşhur ev də Seyid Mirbabayevin tikdirdiyi mülklərdəndir. Milyonçu həmin evini Rusiya quberniyasının qubernatorlarına icarəyə verdiyi üçün "Qubernator evi" adlanıb.

Bakıda "Azneft" İB-nin işçilərinin çalışdığı əzəmətli bina da Seyid Mirbabayevə məxsus olub. O, həmin evdə 1920-ci ilədək yaşayıb. Lakin bolşeviklər Azərbaycanı işğal etdikdən sonra mülkləri müsadirə edilib. O, Bakıdan Fransaya köçmək məcburiyyətində qalıb.

Çox çəkməyib ki, özü ilə Fransaya apardığı var-dövləti və sərvəti tükənməyə başlayıb. Bir sözlə, milyonçu Seyid Mirbabayev müflisləşib. O, müflisləşdikdən sonra təsadüfən Parisdə Teymur bəy Aşurbəyli ilə rastlaşıb. "Nə xoş təsadüf," – deyə Seyid Mirbabayev öz-özünə fikirləşib. Teymur bəy onu miskin görkəmdə görüb və çox mütəəssir olub. Ona geyim mağazasından əyin-baş alanda əvvəlki xoşbəxt günləri kino lenti kimi Seyid Mirbabayevin gözləri önündən gəlib keçib. Vaxtilə Hacı Zeynalabdin Tağıyevin onun sənəti haqqında dediyi sözləri bir daha xatırlayıb...

Teymur bəy Aşurbəyli o zaman Tehranda yaşayıb. Həmin vaxt Parisə alış-veriş üçün gedib. Seyid Mirbabayevi acınacaqlı vəziyyətdə görən Teymur bəy onu özü ilə İrana aparıb. Beləcə, Seyid Mirbabayev Tehranda məskunlaşıb. Ömrünün sonuna kimi orada bakılıların çayxanasında xanəndəlik edib. "Subaylıq sultanlıqdır" – deyən Seyid Mirbabayev ömrünün sonunadək ailə həyatı qurmayıb. Ona görə də özündən sonra övladı qalmayıb.

Bəli, Seyid Mirbabayevin ömrünün ötən illərindən qalan izlər budur. Onun ömür kitabının son səhifələri insanı mütəəssir edir.

Sonda bildirək ki, Azərbaycanın görkəmli bəstəkarı Cahangir Cahangirov 1978-ci ildə "Xanəndənin taleyi" adlı operasında acı taleli Seyid Mirbabayevin prototipini yaradıb.

Vətənini milyonçu kimi tərk edən Seyid Mirbabayev 1953-cü ildə Tehranda 86 yaşında kasıb, kimsəsiz bir müğənni kimi vəfat edib.

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

Sağlamlıq

# Alçanı al – salamat qal!

**Çoxumuzun sevimli meyvəsi olan və böyük həvəslə yediyimiz alça mövsümüdür. Xüsusi dada malik alça sağlamlığa faydaları ilə diqqət çəkir. Tərkibindəki vitamin və minerallar sayəsində əsl şəfa mənbəyidir. Bu meyvənin tərkibində A, C, K, E, B6 vitaminləri, kalium, kalsium, maqnezium, fosfor mineralları, beta-karoten, lutein və zeaksantin kimi antioksidant birləşmələr var.**



Alça antioksidant təsiri ilə immuniteti gücləndirir, tərkibindəki kalium ürək əzələlərinin işini tənzimləyir, təzyiqi aşağı salır, lif sayəsində LDL xolesterinini azaldır. Ehtiva etdiyi C vitamini isə zədələnmiş damarların bərpasını sürətləndirir.

Alça çoxlu lif ehtiva etdiyindən həzm sisteminin sağlamlığını qoruyur. Bağırsaqlar üçün yararlıdır, qəbizliyin qarşısını alır. Tərkibindəki fitokimyəvi maddələr iltihabı azaldır. Toxluq hissi verir, arıqladır. Kalorisi çox az olsa da, qanda dəmir çatışmazlığının qarşısını alır, sümük sağlamlığı üçün vacibdir, qan şəkərini tənzimləyir.

Alça gözəlləşmək istəyənlərin də bir nömrəli seçimi olmalıdır. Çünki tərkibindəki antioksidantlar dərinin zədələnməsinə səbəb olan sərbəst radikallarla mübarizə aparır. C vitamini kollagen istehsalını dəstəkləyərək dərinin elastikliyini qoruyur. Qırışların əmələ gəlməsinin qarşısını alır və qocalma gecikir. Hüceyrələrin özünü yeniləmə prosesi sürətlənir. E vitamini dəri gözəlliyi üçün xüsusilə vacibdir.

Ancaq ekspertlər xəbərdarlıq edirlər ki, alçanın bütün bu faydalarından yararlanmaq üçün onu duzsuz yemək lazımdır.

***Z.HÜSEYNLİ***
***XQ***

# "Sarvan" Borçalı uşaqlarını Türk dünyasında təmsil edib

**Borçalıdakı "Azərbaycan Evi"nin nəzdində fəaliyyət göstərən "Sarvan" folklor ansamblı İstanbulda 24-cü Türk Dünyası Uşaq Festivalında iştirak edib. Bu barədə XQ-yə "Azərbaycan evi"ndən məlumat verilib.**

Məlumata görə, Türkiyənin Xaricdə Yaşayan Türklər və Əqraba İcmaları Baş İdarəsinin (YTB) və Türk Dünyası Araşdırmaları Fondunun təşkilatçılığı ilə keçirilən festivala Gürcüstan, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Başqırdıstan, Qaqauziya, Krım, Yakutiya, Tatarıstan, Tuva, Bolqarıstan, Kabarda-Balkar, İraq, Axıska və Şərqi Türkistandan 250-dən çox uşaq qatılıb.



Festivalda Türk Dünyası Araşdırmaları Fondunun rəhbəri Gözhan Yazqan, İstanbul şəhər Gənclər və İdman İdarəsinin rəhbəri Muhittin Özbay, İstanbul Milli Təhsil şöbəsinin rəhbəri Dr. Mücahit Yentürk, İstanbul Valisinin müavini Məhmət Sülün, Samsun millət vəkili və MHP sədrinin müavini professor-doktor İlyas Topsakal və Moldovanın Qaqauziya Muxtar Respublikasının mədəniyyət naziri Marina Semyonova və başqaları çıxış ediblər. Türk dünyasının dörd bir tərəfindən gəlmiş 250-dən çox uşaq öz ölkələrinin mədəniyyətini, incəsənətini və milli musiqisini təqdim edib.

Festivalda Cəmilə Səttarqızının rəhbərliyi altında Gürcüstanı təmsil edən "Sarvan" folklor ansamblı Azərbaycan milli musiqilərini və xalq rəqslərini ifa edib. Çıxış iştirakçılar tərəfindən alqışlarla qarşılanıb.

***Paşa ƏMİRCANOV***
***XQ***

# Yağışlı, dumanlı və küləkli bir cümə günü...

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyunun 21-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir.***

Yarımadanın bəzi yerlərində qısa müddətə intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Səhər arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Gecə 20-25°, gündüz 28-32° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 756 mm civə sütunu, nisbi rütubət 60-70 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 23-24° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntıların intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə əsəcək, arabir güclənəcək.



Havanın temperaturu gecə 20-25°, gündüz 30-35°, dağlarda gecə 11-16°, gündüz 18-23° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Məhəməliyevlər ailəsi Balakən rayon prokuroru Camal Bağırova atası

**FİRUDİN MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4042
SİFARİŞ 1385
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00